# Xalq qəzeti

Xalqın qəzeti!

№ 214 (30618) 1 oktyabr 2024-cü il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti


# Azərbaycanın ideoloji təhlükəsizlik prioriteti

**Prezident İlham Əliyev yeddinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin ilk iclasındakı nitqində dünyada "Kim güclüdürsə, o da haqlıdır" prinsipinin üstünlük təşkil etdiyini bildirib və əlavə edib ki, bəzi böyük dövlətlər bunu heç gizlətmirlər də. Ölkəmizin lideri gücümüzün artırılmalı olduğunu vurğulayıb və bu məsələdə bir neçə istiqamətə diqqət yetirib. Prezident hərbi baxımdan daha da möhkəmlənmənin zəruriliyini əsaslandırmaqla yanaşı, ən başlıca məqamlardan biri kimi ideoloji təhlükəsizlik məsələləri üzərində dayanıb.**

***

Ondan başlayaq ki, ümummilli lider Heydər Əliyevin azərbaycançılıq ideologiyası milli yüksəlişimizi təmin edən dəyərlər sistemidir. Bu sistem müasir Azərbaycan dövlətinin qurulması və inkişafında müstəsna rol oynayıb. O da məlumdur ki, Ulu öndər azərbaycançılıq ideologiyasını real müstəqilliyə nail olmağın qarantı kimi təqdim edib. Mövcud təqdimatda vahid, bölünməz Azərbaycan obrazı canlanır, həmin obrazı qoruyub saxlamaq və möhkəmləndirmək əsas götürülür.

*(ardı 5-ci səhifədə)*



# Qərbi azərbaycanlılar da dədə-baba torpaqlarına qayıdacaqlar



Səhifə ⇨ 2

## Bakı iqlim həftəsi: COP29 hazırlıq təqdimatı

**Dünən Bakı İqlim Fəaliyyəti Həftəsi öz işinə başlayıb. Sentyabrın 30-dan oktyabrın 4-dək davam edəcək tədbir ictimaiyyətin paytaxtımızda keçiriləcək BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) hazırlaşdığı vaxtda iqlim gündəliyinin əsasını təşkil edir.**



Siyasət, maliyyə, ticarət, investisiya, elm, incəsənət, mədəniyyət, vətəndaş cəmiyyətləri nümayəndələrinin və medianın iştirakı ilə keçirən tədbirin əsas mövzularını "enerji keçidi", "şəhərlər və urbanizasiya mühiti", "su təhlükəsizliyi", "qida və kənd təsərrüfatı", "kiçik və orta müəssisələrin biznesi" və "yaşıl bacarıqlar" olacaq.

Rəsmi açılış mərasimində ekologiya və təbii sərvətlər naziri, COP29-un müəyyən olunmuş prezidenti Muxtar Babayev, COP29-un Yüksək Səviyyəli Çempionu Nigar Arpadarai, İqtisadiyyat naziri Mikayıl Cabbarov, Energetika naziri Pərviz Şahbazov, digər rəsmi şəxslər və xarici qonaqlar iştirak ediblər.

Ekologiya və Təbii Sərvətlər naziri Muxtar Babayev açılış mərasimindəki çıxışında bildirib ki, iqlim dəyişikliyinin mənfi təzahürləri dünyanın hər nöqtəsində hiss olunur. Artıq baş verən təbii fəlakətlərin iqlim dəyişikliyinin nə qədər təhlükə yaratdığını sübut etdiyini bildirən natiq COP29 sədrliyinin İkiillik Şəffaflıq Hesabatının hazırlanmısına diqqət yetirdiyini vurğulayıb. Onun sözlərinə görə, Azərbaycan COP29-a qədər həmin sənədi təqdim etməyi planlaşdırır.

Nazir deyib ki, ölkəmiz 2026-cı ildə BMT-nin Bioloji Müxtəliflik haqqında Konvensiyasının növbəti, sayca 17-ci Tərəflər Konfransına evsahibliyi etmək üçün müraciət edib. O, üç həftədən sonra sonra Kolumbiyanın Kali şəhərində BMT-nin Bioloji Müxtəliflik haqqında Konvensiyasının 16-cı Tərəflər Konfransının keçiriləcəyini söyləyib: "Bu platformadan istifadə edərək bildirmək istəyirəm ki, Azərbaycanın 2026-cı ildə BMT-nin Bioloji Müxtəliflik haqqında Konvensiyasının növbəti, sayca 17-ci Tərəflər Konfransına evsahibliyi etməsi üçün namizədliyi irəli sürülüb. Evsahibliyi ilə bağlı yekun qərar gələn ayın sonunda Kali şəhərindəki tədbir zamanı qəbul ediləcək".

*(ardı 10-cu səhifədə)*

## Ermənistan təzminat ödəməlidir!

*Başqa yol yoxdur!*

**Hazırda Ermənistanla Azərbaycan arasında sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında ikitərəfli saziş layihəsinin müzakirəsi aparılır. Tərəflərin son açıqlamalarından bu qənaətə gəlmək olar ki, layihənin böyük bir hissəsi razılaşdırılıb. Ancaq Ermənistanda və bir sıra xarici ölkələrdə, o cümlədən, ABŞ və Fransada radikal düşüncəli şəxslər, revanşistlər bir an boş dayanmırlar. Aydın görünür ki, nə 44 günlük Vətən müharibəsi, nə də lokal xarakterli antiterror tədbirləri onlara dərs olmayıb.**



Bu şəxslər ölkəmizə qarşı bir sıra əsassız tələblər səsləndirirlər. Bir neçə gün öncə onların sırasına daha biri əlavə olunub. ABŞ Konqresinin Nümayəndələr Palatasının üzvü, Konqresdəki bədnam erməni qrupu sədrinin müavini Adam Şiff özü kimi ermənipərəst konqresmenlərlə birlikdə sentyabrın 18-də 2024-cü il üçün "Artsax gəlirlərinin bərpası aktı"nın qəbul edilməsinə dair təklif irəli sürüb.

*(ardı 6-cı səhifədə)*

## Beynəlxalq ekoloji savaş ölkələrarası mübarizə deyil

*Qərbdəki bədxahlarımız bunu anlamaq istəmirlər*

**İqlim konfransının başlayacağı vaxt yaxınlaşdıqca Qərb mediasının ölkəmizə qarşı qarayaxma kampaniyası da güclənir, əks-təbliğatın miqyası genişlənir. Bəs dezinformasiya və yalan məlumatların yayılmasında müşahidə olunan canfəşanlığın səbəbi nə ilə bağlıdır? COP29 Təşkilat Komitəsinin üzvü, "Qadın, İnkişaf, Gələcək" İctimai Birliyinin sədri Gülşən Axundovanın fikrincə, Qərb dairələrinin COP29 ərəfəsində ölkəmizə qarşı gücləndirdiyi "qara piar" kampaniyası, ilk növbədə, geosiyasi təsirlərlə əlaqədardır.**

*(ardı 10-cu səhifədə)*

# Azərbaycana qarşı dezinformasiyalar dünyaya Ermənistandan ötürülür




**Ermənistanla Azərbaycan arasında real müharibə 2020-ci ildə 44 günlük savaşla bitib. Dörd ilə yaxındır ki, tərəflər arasında sülh danışıqları aparılır. Baş nazir Nikol Paşinyan Azərbaycanın çağırışlarına cavab olaraq, öz tərəfindən elan edib ki, iki ölkə arasında sülhün əldə edilməsi üçün çalışır. O, Münxen Təhlükəsizlik Konfarnsı çərçivəsində 2023-cü il fevral 18-də keçirilən debat zamanı "Ermənistanın sülh istədiyini" iddia edib.**

2023-cü il avqustun 2-də "Euronews" televiziyasında yayımlanan müsahibəsi zamanı da eyni fikri təkrarlayıb. Bu tonda açıqlamalarını 2024-cü il mayın 7-də keçirdiyi geniş mətbuat konfransında davam etdirib. 2024-cü ilin noyabr ayına qədər Azərbaycanla Ermənistan arasında sülh sazişinin imzalana biləcəyini dilə gətirib. 2024-cü il sentyabrın 18-də keçirilən 2-ci Qlobal erməni sammiti zamanı da baş nazir həmin fikirlərini təsdiqləyib. Ermənistan hökumətinin Azərbaycanla Naxçıvan arasında əlaqəni təmin etmək üçün keçid məntəqələri yaratmağa hazır olduğunu bəyan edib. Tavuş bölgəsində sərhədlərin demarkasiya prosesinə başlanılmasını isə iki dövlət arasında aparılan sülh danışıqlarının real nəticəsi kimi dəyərləndirib .

*(ardı 7-ci səhifədə)*

## İrəvanda "kölgə" yüksəlişi

Səhifə ⇨ 9



## Keşiş Qaregin Matenadarandan baş nazirə meydan oxudu

Səhifə ⇨ 5



# Prezident İlham Əliyev Bakıda Aşıq Ələsgərin abidəsinin açılışında





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və oğlu Heydər Əliyev sentyabrın 30-da Bakıda Azərbaycan aşıq yaradıcılığının görkəmli nümayəndəsi, böyük el sənətkarı Aşıq Ələsgərin abidəsinin açılışında iştirak ediblər. Dövlətimizin başçısı tədbirdə çıxış etdi.**

## Prezident İlham Əliyevin çıxışı

– Əziz dostlar, bu gün şəhərimizdə çox əlamətdar bir gündür. Deyə bilərəm ki, ölkə üzrə çox əlamətdar bir gündür. Bakının mərkəzində Azərbaycan aşıq sənətinin görkəmli nümayəndəsi Aşıq Ələsgərin abidəsi açılır. Bu münasibətlə sizi və bütün Azərbaycan xalqını ürəkdən təbrik etmək istəyirəm. Bu, doğrudan da çox gözəl hadisədir.

Bildiyiniz kimi, 3 il əvvəl Aşıq Ələsgərin adının əbədiləşdirilməsi üçün mən 2 sərəncam imzalamışam. Bir sərəncam əsasında Aşıq Ələsgərin 200 illik yubileyi dövlət səviyyəsində qeyd edildi. İkinci sərəncam əsasında onun abidəsinin ucaldılması məsələsi nəzərdə tutulurdu. Bu gün şəhərimizin bu gözəl yerində, deyə bilərəm ki, şəhərimizin mərkəzində, gözəl parkda Aşıq Ələsgərin abidəsi ucaldılıb.

Bildiyiniz kimi, Aşıq Ələsgər ömür boyu Azərbaycanın qədim torpağı olan Göyçə mahalında yaşamış, yaratmışdır, uzun ömür yaşamışdır və ömrünün son illərində öz doğma torpaqlarını tərk etməyə məcbur olmuşdur. O vaxt onun 97 yaşı var idi, 1918-ci ildə erməni vəhşiləri azərbaycanlıları etnik təmizləməyə məruz qoymuşdular. Bu, XX əsrdə azərbaycanlıların öz qədim torpaqlarından – Qərbi Azərbaycandan birinci deportasiyası idi. Əfsuslar olsun, ondan sonra da bizim xalqımız iki deportasiyaya məruz qalmışdır. Aşıq Ələsgər ailəsi ilə birlikdə qonşu Kəlbəcər rayonuna köçmüşdür. Ancaq doğma Vətən, doğma torpaq onu yenə də Göyçə mahalına çəkirdi, baxmayaraq ki, iqlim, təbiət, gözəllik baxımından Kəlbəcər və Göyçə mahalı çox da fərqlənmir. Amma onun Vətən sevgisi, torpaq sevgisi o qədər güclü idi ki, bütün təhlükələrə baxmayaraq, o, təqribən üç ildən sonra öz doğma Ağkilsə kəndinə qayıtmış və bir neçə ildən sonra orada vəfat etmişdir.

Hamımız yaxşı bilirik ki, 1970-ci illərdə Ulu öndərin təşəbbüsü ilə Aşıq Ələsgərin 150 illik yubileyi qeyd edilmişdir, özü də Sovet İttifaqı miqyasında və bu yubiley münasibətilə doğma Ağkilsə kəndində onun abidəsi ucaldılmışdır. Xalqımız deportasiyanın üçüncü dalğasına məruz qalanda erməni vandalları onun abidəsini dağıtmışdılar. Necə ki, indi biz hamımız bunu görürük. Qarabağda, Şərqi Zəngəzurda bizim tarixi abidələrimiz, görkəmli şəxsiyyətlərin abidələri, məscidlərimiz, saraylarımız, qəbiristanlıqlarımız erməni vandalları tərəfindən dağıdılmışdı. Bu praktika yeni deyil, əsrlər boyu bütün dünyanın gözü qarşısında bizə qarşı bu ədalətsizlik, bu vəhşilik törədilirdi.

Bu gün bu tədbirdə iştirak edən yoldaşlar Aşıq Ələsgərin fəaliyyəti və yaradıcılığı ilə bağlı danışacaqlar. Sadəcə olaraq, onu demək istəyirəm ki, onun yaradıcılığı Azərbaycan xalqının ürəyində böyük bir iz buraxmışdır ki, 200 il keçəndən sonra yenə də o, görkəmli şəxsiyyət, vətənpərvər insan, öz xalqını, Vətənini sevən insan kimi xalqımızın yaddaşında yer tutub. Əlbəttə ki, biz onun timsalında xalqımızın yüksək ruhunu görürük. Çünki yenə də deyirəm, 97 yaşında öz torpağından köçməyə məcbur olmuş insan 100 yaşında yenə də bütün təhlükələrə baxmayaraq, – o vaxt hələ o təhlükələr tam sovuşmamışdı, – yenə də öz Vətəninə qayıtmışdır.

Qeyd etdiyim kimi, xalqımız XX əsrdə üç deportasiya dalğasına məruz qalmışdır – 1918-ci ildə birinci, 1940-50-ci illərdə ikinci və 1980-ci illərin sonları-1990-cı illərin əvvəllərində üçüncü deportasiya baş vermişdir. İki deportasiyadan müəyyən müddətdən sonra Azərbaycan xalqı öz dədə-baba torpaqlarına qayıtmış, yəni, hamısı olmasa da, böyük bir qisim qayıtmışdır. Bu, bizdə haqlı olaraq əminlik yaradır ki, üçüncü etnik təmizləmə dalğasına məruz qalmış Qərbi azərbaycanlılar öz dədə-baba torpaqlarına qayıdacaqlar. Bunu deməyə əsas verən bir çox amillər var. Əlbəttə ki, Vətən sevgisi, o torpaqlar unudulmayıb və unudulmayacaq, o torpaqları görməyən Qərbi azərbaycanlıların sonrakı nəsilləri Vətən həsrəti ilə yaşayırlar.

Bu gün biz Azərbaycan xalqının əyilməz ruhunu Qarabağa və Şərqi Zəngəzura qayıdan soydaşlarımızın timsalında görürük. O torpaqları heç vaxt görməyən Qarabağdan, Şərqi Zəngəzurdan olan soydaşlarımız həvəslə, səbirsizliklə o qayıdış gününü gözləyirlər, Böyük Qayıdış proqramının icrasını səbirsizliklə gözləyirlər. Əslində, bu proqram artıq icra edilir. Heç vaxt o torpaqlarda yaşamamış, amma o torpaqlara qayıtmaq eşqi ilə yaşamış qarabağlılar bu gün Qarabağa qayıdırlar. Mən əminəm ki, biz eyni mənzərəni Qərbi Azərbaycana qayıdış dövründə də görəcəyik. Çünki bu gün Şuşada, Laçında, Xankəndidə, Xocalıda, Füzulidə uşaqlar, məktəblilər məktəbə gedirlər. Birinci dərs günü bunu göstərdi. Yəni, sözün əsl mənasında, bütün bu bölgələrdə və bütün Azərbaycanda bayram ab-havası idi. Qərbi Azərbaycandan olan soydaşlarımız da əminəm ki, eyni hissləri yaşayacaqlar. Hər şey bizim əlimizdədir. Qarabağın işğalı dövründə də bəzi hallarda hər birimiz məyusluq və inamsızlıq hissləri yaşamışıq. Hər birimizin qəlbini incidən bu ədalətsizlik bizə sanki əbədi olacaq kimi gəlirdi. Amma o fikirləri biz özümüzdən hər zaman uzaqlaşdırırdıq, inamla yaşayırdıq və onu da bilirdik ki, ədaləti bərpa etmək bizim öz işimiz olmalıdır, heç kim bizim əvəzimizə bu ədaləti bərpa etməyəcək, heç kimin belə niyyəti də, istəyi də olmamışdır.

İşğal dövründə çoxsaylı xarici nümayəndələrlə görüşlər əsnasında mən bu barədə artıq bir neçə dəfə demişəm. Belə fikirlər eşidirdim ki, reallıqlarla barışmaq lazımdır, Qarabağ artıq əldən gedib, Ermənistanla barışmaq lazımdır, gənc nəsli sülhə hazırlamaq lazımdır. Bu münaqişənin hərbi həlli yoxdur və digər fikirlər səsləndirilirdi. Bəzi hallarda bu fikirləri səsləndirənlər bəlkə də səmimi idilər, bəzi hallarda bizi yolumuzdan döndərmək, bizə bədbinlik duyğuları aşılamaq üçün edirdilər. Həyat və reallıq onu göstərir ki, hər şey bizim əlimizdədir. Həm İkinci Qarabağ müharibəsi, həm antiterror əməliyyatı və ondan sonrakı dövr, yəni, bir il göstərdi ki, güclü iradə olan yerdə, xalq-iqtidar birliyi olan yerdə, xalqımızın əyilməz ruhu olan yerdə heç bir qüvvə, heç bir təşkilat bu iradənin qabağında dura bilməz. Qarabağın və Şərqi Zəngəzurun azad edilməsi, suverenliyimizin tam bərpa olunması, - mən bunu bilirəm, – Qərbi azərbaycanlılarda da bu nikbinlik hisslərini, fikirlərini, ümidlərini daha da artırmışdır. Hətta işğal dövründə, 10 il, bəlkə də ondan da qabaq mən bəzi çıxışlarımda Qərbi Azərbaycanla bağlı fikirlərimi səsləndirirdim. Biz hər dəfə qarşıya hədəflər qoymalıyıq. Bu hədəflər həm stratejidir, həm taktikidir, həm qısamüddətlidir, həm uzunmüddətlidir. Amma hədəflər düzgün seçilməsə, heç bir nəticəyə nail olmaq mümkün olmayacaq. Hədəflər həm həqiqəti, ədaləti və həm də real vəziyyəti, real gücümüzü əks etdirməlidir. Nə qədər güclü olsaq, o qədər də bizim səsimiz eşidiləcək. Bu gün antiterror əməliyyatından keçən il ərzində biz bunu görürük. Əslində, birinci həftələr, birinci aylar ərzində bizə qarşı nə qədər əsassız ittihamlar irəli sürülürdü, bizə sanksiyalar tətbiq edildi. Daha böyük sanksiyaların tətbiq edilməsi üçün böyük dövlətlər, – hər halda, özlərini belə sayanlar, – bizə qarşı müxtəlif beynəlxalq platformalarda açıq hücuma keçmişdilər, soyuq müharibə başlamışdır. Bu gün də bu, davam edir. Antiterror əməliyyatının ildönümü ərəfəsində biz yenə də nə qədər genişmiqyaslı şər, böhtan kampaniyası ilə üzləşdik. Bu, bizim iradəmizə təsir edə bilər? Heç vaxt! Çünki bizim işimiz haqq işidir və bizim işimizi Azərbaycan xalqı dəstəkləyir. Əslində, bu, Azərbaycan xalqının işidir. Qarabağı, Şərqi Zəngəzuru azad etmək, suverenliyi tam bərpa etmək Azərbaycan xalqının iradəsi hesabına, qəhrəman övladlarımızın qəhrəmanlığı, şücaəti hesabına mümkün olmuşdur.

Biz üç gün bundan əvvəl Anım Gününü qeyd etmişik. Bir daha bütün şəhidlərimizə Allahdan rəhmət diləyirik, onların qəhrəmanlığı heç vaxt unudulmayacaq. Amma bizim təqvimimizə bu kədərli 27 Sentyabr günü ilə bərabər, iki bayram günü də əlavə edildi – 8 Noyabr  və 20 Sentyabr günləri. Bunlar bayram və Zəfər günləridir. Bu Zəfər bizimlə əbədi yaşayacaq.

Bu gün Qərbi azərbaycanlıların görkəmli nümayəndəsinin abidəsinin ucaldılması təbii olaraq, ilk növbədə, Aşıq Ələsgərin xatirəsinə Azərbaycan xalqının hörmətinin əlamətidir. Ancaq, eyni zamanda, bu abidə bütün Qərbi azərbaycanlıları və bütün Azərbaycan xalqını yenə də bir amal uğrunda birləşməyə dəvət edən hadisədir. Biz o günü səbirsizliklə gözləyirik, inanırıq, mən də inanıram, siz də inanırsınız. Gün gələcək biz Aşıq Ələsgərin ermənilər tərəfindən dağıdılmış abidəsini bərpa edəcəyik və Ağkilsə kəndində buna oxşar mərasim keçirəcəyik.

***

**Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar çıxış edərək dedi:**



– Hörmətli cənab Prezident, hörmətli tədbir iştirakçıları! Gündən-günə gözəlləşən Bakını həm də dünyada ən çox sənətkarları, heykəlləri olan bir şəhər adlandıra bilərik. Ancaq elə son illərdə dörd böyük bəstəkarımızın – Qara Qarayevin, Fikrət Əmirovun, Niyazinin, Tofiq Quliyevin, üç böyük müğənnimizin – Bülbülün, Rəşid Behbudovun, Müslüm Maqomayevin heykəlləri ucaldılıb. Bu heykəllərin əksəriyyəti o vaxt ucaldılır ki, biz tariximizin ən şərəfli, ən qürurlu günlərini yaşayırıq. Müzəffər Prezidentimizin rəhbərliyi ilə qəhrəman Azərbaycan Ordusu 30 illik həsrətimizə son qoydu, Qarabağın tacı Şuşa başda olmaqla, Qarabağ torpaqları azad olundu. 23 saatlıq antiterror əməliyyatında 200  ilin problemi həll olundu. Buna görə, bu xoşbəxtliyi yaşadığımıza görə mən bir daha hörmətli Prezidentimizə dərin təşəkkürlərimi bildirirəm.

Prezidentimiz qeyd etdiyi kimi, Aşıq Ələsgər Qərbi Azərbaycanın Göyçə mahalında anadan olmuşdur. Oranın dağlarını, meşələrini, çeşmələrini vəsf etmişdir və vaxtilə orada heykəli ucaldılmışdı. Vandallar Qarabağda tarixi və mədəni abidələrimizi uçurtduqları kimi, Aşıq Ələsgərin heykəlini də uçurtmuşlar. Amma hörmətli Prezidentin dediyi o əminliyi mən də paylaşıram ki, gec-tez dinc yolla Aşıq Ələsgərin özü də, sözü də, adı da və həmvətənləri də öz doğma torpaqlarına qayıdacaqlar.

Bu gün biz Aşıq Ələsgərdən danışanda minillik poeziyamızda xüsusi yeri olan bir sənətkardan danışırıq. Çünki bizim poeziyamız çox zəngindir, böyükdür. Amma orta əsr şairlərinin dillərində ərəb, fars kəlmələri o qədər çoxdur ki, indi onları yeni nəsillər lüğətsiz oxuya bilmirlər. Aşıq Ələsgərin, ümumiyyətlə, aşıq poeziyasının dili isə o qədər şəffafdır, bulaq suyu kimi o qədər təmizdir ki, onu biz lüğətsiz oxuyuruq. Mən Aşıq Ələsgərin lap gəncliyimdən yadımda qalan şeirini burada səsləndirmək istəyirəm:

**Çərşənbə günündə çeşmə başında,**
**Gözüm bir alagöz xanıma düşdü.**
**Atdı müjgan oxun keçdi sinəmdən,**
**Nazu qəmzələri qanıma düşdü.**

**İşarət eylədim, dərdimi bildi,**
**Gördüm həm gözəldi, həm əhli-dildi,**
**Qaşını oynatdı, gözündən güldü,**
**Güləndə qadası canıma düşdü.**

**Ələsgərəm, hər elmdən halıyam,**
**Gözəl, sən təbibsən, mən yaralıyam.**
**Dedi nişanlıyam, özgə malıyam,**
**Sındı qol-qanadım, yanıma düşdü.**

Bu şeir nə qədər sadə, nə qədər gözəl, bu gün anlayacağımız dildə yazılmışdır.

Mən sizə bəstəkarlar və musiqiçilərin heykəlləri haqqında dedim, amma onu da demək istəyirəm ki, bu illərdə bizim ədəbiyyatımızla da bağlı heykəllər ucaldılıb. Dədə Qorqudun, Koroğlunun, Türk dünyasının böyük klassikləri Əlişir Nəvainin, Çingiz Aytmatovun və bu gün də Aşıq Ələsgərin heykəli ucaldılıb. Ona görə də mən Yazıçılar Birliyi adından bir daha cənab Prezidentə təşəkkürlərimi və minnətdarlığımı bildirmək istəyirəm.

Sonda bir arzumu da bildirmək istəyirəm. Cənab Prezident, gün o gün olsun ki, Cəlil Məmmədquluzadənin heykəlinin də açılışına gələk. Sağ olun!

***

**Sonra Qərbi Azərbaycan İcmasının Ağsaqqallar Şurasının sədri, akademik Əhliman Əmiraslanov çıxış edərək dedi:**



– Möhtərəm cənab Prezident!

Çox hörmətli tədbir iştirakçıları!

Dünya elm, mədəniyyət, incəsənət xəzinəsinə böyük töhfələr vermiş Azərbaycan övladlarının yubileylərinin dövlət səviyyəsində qeyd edilməsi və xatirələrinin əbədiləşdirilməsi Azərbaycanımızda gözəl ənənəyə çevrilmişdir. Bu ənənənin əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuşdur. Siz isə, möhtərəm cənab Prezident, bu müqəddəs ənənəni çox böyük uğurla davam etdirirsiniz. Bu gün Bakıda aşıq sənətinin əlçatmaz zirvəsinə yüksəlmiş ustad Ələsgər abidəsinin ucalması bu müqəddəs ənənənin davamıdır. Bu da bir həqiqətdir ki, Aşıq Ələsgər şəxsiyyəti, Aşıq Ələsgər irsi, Aşıq Ələsgər yaradıcılığı həmişə Ulu öndərin qayğısı ilə əhatə olunmuşdur. Belə ki, ilk dəfə Azərbaycanda dövlət səviyyəsində Aşıq Ələsgərin yubileyinin qeyd edilməsi Ulu öndərin sayəsində mümkün olmuşdur. Aşıq Ələsgər irsinin tədqiqi, təbliği və onun əsas mərhələləri də Ulu öndərin adı ilə bağlıdır.

Burada qeyd edildiyi kimi, 1971-ci ildə ilk dəfə olaraq Azərbaycanda Aşıq Ələsgərin dövlət səviyyəsində yubileyi keçirildi və ondan bir qədər sonra keçmiş sovetlər birliyinin, mən deyərdim ürəyində, Moskvada, Kremlin sütunlu salonlarında bu yubiley tədbirləri həyata keçirildi. Ulu öndərin özünün də qatıldığı bu yubiley tədbirlərində keçmiş SSRİ-nin ən yüksəkçinli rəhbərləri və tanınmış mədəniyyət xadimləri iştirak edirdilər. Burada mən yaşda olan insanlar yəqin yaxşı bilirlər ki, o dövrdə belə bir tədbirin Kremldə keçirilməsi o qədər də asan bir məsələ deyildi. Bu və buna bənzər tədbirlər yalnız Ulu öndərin o dövrdə sovetlər birliyində olan böyük nüfuzunun sayəsində mümkün olmuşdur. Mən çox yaxşı xatırlayıram, Ulu öndərin sərəncamından sonra Aşıq Ələsgərin 150 illik yubileyi ərəfəsində Göyçə mahalının Ağkilsə kəndində onun qəbirüstü abidəsinin qoyulması məsələsi gündəmə gəlmişdi. Möhtərəm cənab Prezident, Ermənistan rəhbərliyi buna çox cidd-cəhdlə mane olmağa çalışırdı. O vaxt Göyçə ziyalıları ulu öndər Heydər Əliyevə müraciət etdikdən sonra bu məsələ öz həllini tapdı və abidə çox qısa bir müddət ərzində hazırlandı və qoyuldu. Burada qeyd edildiyi kimi, çox təəssüflər olsun ki, o abidə erməni vandalları tərəfindən dağıdılıb.

*(ardı 3-cü səhifədə)*

# Prezident İlham Əliyev Bakıda Aşıq Ələsgərin abidəsinin açılışında

**(əvvəli 2-ci səhifədə)**

Möhtərəm cənab Prezident, tarixi Qələbəmizdən sonra Şuşada dahi Üzeyir Hacıbəylinin, Bülbülün, Natəvanın ermənilər tərəfindən dağıdılmış abidələrini bərpa etdiyiniz kimi, Sizin dəmir iradəniz sayəsində Qərbi azərbaycanlılar öz torpaqlarına qayıdacaq və Aşıq Ələsgərin qəbirüstü abidəsi də bərpa olunacaq. Mən bu günün çox da uzaq olmadığına inanıram.

Möhtərəm cənab Prezident, Siz qeyd etdiyiniz kimi, böyük ustadın 200 illik yubileyi ilə bağlı iki sərəncam imzalamısınız. Birinci Sərəncama əsasən böyük ustadın yubileyi Azərbaycanda dövlət səviyyəsində təntənəli şəkildə qeyd edildi. Ulu ustadın yubileyi təkcə Azərbaycanda deyil, bütün Türk dünyasında qeyd olundu. Bu gün isə gözəl Bakımızın ən gözəl yerlərindən birində ikinci Sərəncamınız icra olunur. Mən hesab edirəm ki, bu möhtəşəm abidənin Bakıda ucaldılması Sizin Aşıq Ələsgər şəxsiyyətinə, irsinə, yaradıcılığına verdiyiniz çox yüksək qiymətin təcəssümüdür.

Son olaraq, möhtərəm cənab Prezident, icazə verin, böyük Ələsgər irsinə, şəxsiyyətinə, yaradıcılığına olan bu misilsiz diqqət və qayğıya görə Qərbi Azərbaycan İcmasının çoxsaylı üzvləri adından və öz adımdan Sizə dərin təşəkkürümü və səmimi minnətdarlığımı bildirim. Diqqətinizə görə təşəkkür edirəm.

***

**Aşıqlar Birliyinin sədri Məhərrəm Qasımlı çıxış edərək dedi:**



– Bu gün söz bayramıdır, Aşıq Ələsgər bayramıdır. Bu bayramı bizə qismət edən Prezidentimizə xüsusi təşəkkür edirik, var olsun!

Ulu öndərimiz Heydər Əliyev vaxtilə Dədə Qorqudun yubileyində bir məşhur cümlə işlətdi, dedi ki, ozan, aşıq mədəniyyəti bizim milli varlığımızın ən mötəbər qaynağıdır. Doğrudan da bütün sonrakı dönəmdə bizim bu yoldakı irəliləyişimizdə Prezident cənab İlham Əliyev də bu məsələni diqqətdə saxladı. Gördük ki, böyük Dədə Qorqud abidəsi, möhtəşəm Koroğlu heykəli ərsəyə gəldi. Bu gün ucaldılan Aşıq Ələsgər heykəli də bir daha bu doğru yolun nə qədər diqqətdə olduğu, vacib olduğu mənasında bizim diqqətimizdədir.

Mən düşünürəm ki, bizim milli-mənəvi varlığımızın qorunmasında cənab Prezidentimizin həqiqətən böyük işləri var. Bu böyük işləri hər gün, hər saat görürük. Qarabağdan tutmuş bir çox məsələlərdə milli-mənəvi dəyərlər bütün başqa istiqamətlərlə birlikdə ön planda durur. Bu gün Aşıq Ələsgərin heykəli də o gerçəkliyi ortaya qoydu. Bir məsələni də ayrıca qeyd etmək istəyirəm, yəqin ki, çoxları bilir, Bakıda çoxlu heykəllər var. Anar müəllim də dedi, amma ilk aşıq heykəli Aşıq Ələsgərindir. O, məhz cənab Prezident, Sizin sayənizdə ucaldılıbdır. Ona görə Sizə ürəkdən təşəkkür edirik.

Elə sənətkarlar var ki, onlar mənsub olduqları sənət sahəsində öz qüdrətləri ilə həmin sahənin rəmzinə çevrilirlər. Bu mənada Aşıq Ələsgər də ozan-aşıq mədəniyyətinin rəmzi olan, onun sənət pasportu rolunu oynayan bir şəxsiyyət, bir sənətkar səviyyəsindədir və hamımızın da gözündə o ucalıqda dayanır. Aşıq Ələsgərin dili, poeziyası Azərbaycan dilinin, Azərbaycan ruhunun, türk ruhunun, belə deyək ki, çox monumental bir göstəricisidir. O deyib:

**Yaxşı hörmət ilə, təmiz ad ilə**
**Mən dolandım bu Qafqazın elini,**
**Pirə ata dedim, cavana qardaş,**
**Ana-bacı bildim qızı, gəlini.**

Bu bir əxlaq kodeksidir, sənətkarın əxlaq kodeksi. Özü də sıradan bir kodeks deyil, milli-mənəvi dəyər səviyyəsinə ucalmış bir kodeksdir ki, bizim üçün Ələsgər ucalığının nə olduğunu bu misralardan görürük. Yaxud aşıq sənətinin nizamnaməsi statusunda çıxış edən bir şeirində deyir:

**Xalqa həqiqətdən mətləb qandıra,**
**Şeytanı öldürə, nəfsin yandıra,**
**El içində pak otura, pak dura,**
**Dalısınca xoş sədalı gərəkdir.**

Baxın, bu və bu sıradan olan bütün mətləblər hamısı elin, xalqın ürəyindən gələn, belə deyək ki, o düşüncələrdir. Həm də böyük fəlsəfi dərinliyi özündə cəmləşdirir. Yəni, Aşıq Ələsgər sıradan bir aşıq deyil, o, böyük ustaddır, filosof ustaddır və onun heykəlinin ucaldılmasında da bu keyfiyyətlər rol oynayır. Şeirlərinə baxın, şeirlər Dədə Qorqud ruhundan, Dədə Qorqud dilindən süzülüb gəlir və onların içərisindəki bütün keyfiyyətlər xalqın milli duruşuna, milli-mənəvi varlığının ayaq üstündə durmasına təkan verir. O mənada mən düşünürəm ki, Aşıq Ələsgər irsinə ulu öndərimiz Heydər Əliyevin verdiyi böyük dəyərdən bu gün möhtərəm Prezidentimiz cənab İlham Əliyevin də ucaltdığı bu heykəl doğrudan da hamımız üçün bir qürur mənbəyidir, elə bir ümid yeridir ki, heykəlin ikinci açılışı Göyçəmizdə olacaq və Göyçədə Aşıq Ələsgər heykəlinin açılışı sizli-bizli bir yerdə olacaq.

Mən saz, söz ictimaiyyəti adından cənab Prezident, Sizə xüsusi təşəkkür edirəm. Sağ olun, var olun!

***

**Sonra Aşıq Ələsgərin nəticəsi Xətai Ələsgərli çıxış edərək dedi:**

– Çox hörmətli Prezident!

Hörmətli tədbir iştirakçıları!

Hər birinizi Aşıq Ələsgərin bütün qohumları adından və “Dədə Ələsgər Ocağı” İctimai Birliyi adından salamlayıram.

Cənab Prezident, qeyd etdiyiniz kimi, həqiqətən şəhərin belə bir gözəl yerində Aşıq Ələsgərin heykəlinin ucaldılması bizi çox sevindirir. Bu, bizim uzun illərdir arzumuz idi ki, bu arzuya bu gün qovuşuruq.



Cənab Prezident, bu heykəlin ucaldılması barədə Sərəncamınızdan sonra mən tez-tez heykəlin necə olacağı ilə bağlı heykəltaraşımızla əlaqə saxlayırdım. O deyirdi ki, bir neçə eskiz vermişik, cənab Prezident hansını bəyənərsə, o hazırlanacaq. Doğrudan da çox möhtəşəm, əsl Aşıq Ələsgərin adına layiq, bu sənətə uyğun gözəl bir heykəl alınıb. Buna görə bir daha bütün Ələsgərsevərlər adından Sizə xüsusi təşəkkürümü bildirirəm.

Ələsgər ocağının bir nümayəndəsi kimi hər zaman bizim ailədə ya saz çalmalısan, ya şeir deməlisən. Bu, bir adətdir. Mənim də qismətimə hər ikisindən pay düşüb. Ancaq istəyirəm ki, burada Sizin şərəfinizə bir şeir deyim. Bu şeir Vətən müharibəsinin ən qızğın vaxtlarında Sizə xitabən deyilibdir. İstəyirəm bunu Sizə çatdırım:

**Xalqın sənə güvənir, ey Baş Komandanımız,**
**Uzun ömür diləyirik sənə bizim hamımız.**
**Səninlə nəfəs alır ürəyimiz, canımız,**
**Səninlə çiçəklənir bu Azərbaycanımız.**

**Sən bizim ümidimiz, sən bizim inamımız,**
**Səninlədir gələcək, işıqlı sabahımız.**
**Səninlə fəxr edirik, həmişə edəcəyik,**
**Sənin siyasətinlə irəli gedəcəyik.**

**Xalqına məhəbbətin xalqını qoruyacaq,**
**Söylədiyin hər nitqin əldə şüar olacaq.**
**Sən bir tarix yazırsan, dahi Heydər övladı,**
**Tutduğun doğru yolla yaşadırsan o adı.**

**Xalqın sənin arxanda, yolundan dönməyəcək,**
**Yüksələn Bayrağımız bir daha enməyəcək.**
**Xoş sorağın gələcək hər obadan, hər eldən,**
**Hamı Sizi deyəcək, hamı Sizi deyəcək,**
**Tarix yazan Sərkərdə, tarix yazan Sərkərdə.**

Cənab Ali Baş Komandan, həqiqətən də həmin dövrdə, müharibənin çox qızğın dövründə hamı kimi bütün millətimiz televizor qarşısında Sizin çıxışınızı gözləyirdi. Deyərdim, 100 minlərlə insan Sizin o çıxışınızdan sonra televizoru qucaqlayıb öpürdü. Onlardan biri də mən olmuşam.

Cənab Prezident, həqiqətən də Aşıq Ələsgər sənətinə verdiyiniz bu dəyər bütövlükdə saz sənətinə, söz sənətinə verilən bir dəyərdir. Milli-mənəvi dəyərlərimizi bu gün belə yaşatmaq bizi çox sevindirir, çox qürurlandırır. Həqiqətdə ürək sözlərim çoxdur, bir qismini dedilər. Əslində, mən o mövzuya toxunacaqdım. Amma istəyirəm ki, bir balaca da o mövzuya toxunum. Ulu öndərin Aşıq Ələsgərə ilk dəfə verdiyi ən böyük dəyər 1972-ci ildə oldu. Aşıq Ələsgərin 150 illik yubileyi 1971-ci ildə olmalı idi. Məhz nəyə görə bir ildən sonra oldu? Hörmətli Əhliman müəllim də qeyd etdi, o dövrdə erməni xalqı istəmirdi ki, Aşıq Ələsgərin, türk millətindən olan belə bir şairin xatirəsi əbədiləşdirilsin. Ona görə ermənilər bir il bu işi yubatdılar. Nəhayət, Ulu öndərimiz həmin vaxt Moskvada məsələ qaldırdı, bütün mərkəzi komitəni ayağa qaldırdı, komissiya təşkil etdi və bilavasitə bu məsələni öz nəzarətinə götürdü. Beləliklə, nəinki Göyçə mahalında onun kəndində abidəsi qoyuldu, hətta İrəvanda, Moskvada, Kreml sarayında onun yubiley tədbiri keçirildi.



Bəli, bizim çox böyük arzumuz var ki, İnşallah, bayaq dediyiniz kimi, Aşıq Ələsgərin doğulduğu kənddə yenə də onun qəbirüstü abidəsi bərpa olunsun. Hələ vaxtilə Ulu öndər Göyçə camaatı ilə görüşəndə belə bir söz deyib ki, mən çox inanıram, inanıram ki, gün gələcək, dövr dəyişəcək, siz öz dədə-baba torpaqlarınıza qayıdacaqsınız və orada ata-babalarınızın qəbrini ziyarət edəcəksiniz və Aşıq Ələsgərin sazı o dağlarda təzədən çalınacaq. Həqiqətən də biz buna inanırıq, çox inanırıq. Çünki Siz ata vəsiyyətini doğrudan həyata keçirirsiniz. İnanırıq ki, o gün bizə qismət olacaq.

Vaxtınızı çox almayacağam, cənab Prezident, mən o vaxt televizorda Sizi qucaqlamışdım, istəyirəm icazə versəniz əlinizi sıxım.

Göyçədə Şəhrəbanu bulağından Sizə şəxsən su verəcəyəm.

***

Prezident İlham Əliyev ustad sənətkar Aşıq Ələsgərin abidəsinin açılışını etdi.

Azərbaycan Prezidenti abidənin önünə gül dəstəsi qoydu.

Sonda xatirə şəkli çəkdirildi.

Qeyd edək ki, heykəlin müəllifi Xalq rəssamı Natiq Əliyev, memarı isə Azərbaycan Rəssamlıq Akademiyasının baş müəllimi Malik Babayevdir.

Aşıq Ələsgər öz əsərləri ilə Azərbaycanın zəngin bədii irsinə misilsiz töhfələr bəxş edib. Azərbaycan milli bayramları və toylarının əvəzedilməz iştirakçısı olan Aşıq Ələsgərin yaradıcılığı əlvan xüsusiyyətlərə, müxtəlif mövzulara və süjet xəttinə malikdir. Aşıq Ələsgərin əsərləri dilinin sadəliyi, nitqin zənginliyi, müxtəlifliyi, emosionallığı və özünəməxsus bədii tapıntıları ilə seçilir.



Onun yaradıcılığında gənc nəslin əxlaqi-tərbiyəvi və vətənpərvər ruhda böyüməsi üçün yazdığı şeirlər-ustadnamələr də xüsusilə təqdirəlayiqdir. Aşıq Ələsgərin zəngin poetik irsi aşıqlar üçün əsl sənətkarlıq məktəbi olub.

***AZƏRTAC***



# Prezident İlham Əliyevin Rusiya Dövlət Dumasının fraksiya rəhbəri ilə görüşü



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 30-da Rusiya Federasiyasının Dövlət Dumasında Rusiya Liberal Demokrat Partiyası fraksiyasının rəhbəri Leonid Slutskini qəbul edib.**

**Görüşdə çıxış edən Prezident İlham Əliyev dedi:**

– Hörmətli Leonid Eduardoviç! Sizi salamlamağa çox şadam. Xoş gəlmisiniz. Sizin səfəriniz böyük əhəmiyyətə malikdir. Əminəm ki, bu səfər ölkələrimiz arasında dostluq və tərəfdaşlıq münasibətlərinin möhkəmlənməsinə mühüm töhfə verəcək.

Bildiyiniz kimi, ötən ay Rusiya Federasiyası Prezidentinin ikitərəfli münasibətlərimizin bütün sahələrdə inkişafına çox böyük təkan verən dövlət səfəri oldu. Sizə də məlumdur ki, qanunvericilərimiz arasında fəal parlamentlərarası əlaqələr mövcuddur. Hökumətlərarası Komissiya uğurla fəaliyyət göstərir, humanitar əməkdaşlıq fəal inkişaf edir. Rusiya Prezidentinin səfəri çərçivəsində bütün bunlar və bir çox digər məsələlər müzakirə olunub. Biz münasibətlərimizin ardıcıl, dinamik xarakterini bir daha məmnunluqla qeyd etdik. Əlbəttə, ölkələrimizin siyasi qüvvələrinin partiyalararası əlaqələri də qarşılıqlı fəaliyyətin mühüm amilidir. Siz Rusiya Federasiyasının bütün regionlarında böyük nüfuza malik olan Rusiya Federasiyasının aparıcı siyasi partiyalarından birinə rəhbərlik edirsiniz. Partiyanızın nümayəndələrinin nümayiş etdirdiyi seçki kampaniyalarının uğurlu nəticələri siyasi qüvvənizin Rusiya Federasiyasının siyasi sistemində mühüm amil kimi böyük nüfuzundan xəbər verir.

Əlbəttə, biz bütün bunları böyük maraq və sevinclə müşahidə edirik. Sizə və rəhbərlik etdiyiniz partiyaya yeni-yeni uğurlar arzulayıram. Təbii ki, Dövlət Dumasının xarici siyasət istiqamətinin rəhbəri kimi siz, əlbəttə, gündəlik fəaliyyətinizdə Rusiya-Azərbaycan münasibətlərində əldə edilən uğurlarla tanış olursunuz. Düşünürəm ki, bu gün isə biz bu və digər məsələləri ətraflı müzakirə edəcəyik və gələcək qarşılıqlı fəaliyyətin yollarını müəyyənləşdirəcəyik.

Son olaraq, istərdim ki, gərgin iş cədvəlinizə baxmayaraq, vaxt tapıb Azərbaycanın Qarabağ bölgəsinə səfər etdiyinizə görə sizə təşəkkürümü bildirim. Sizin ziyarət etdiyiniz yaşayış məntəqələri arasında Şuşa şəhəri də olub. Bu, əlbəttə, səfərinizə xüsusi əhəmiyyət verir. Əminəm ki, Azərbaycan ictimaiyyəti də, ilk növbədə, keçmiş məcburi köçkünlər də Qarabağ bölgəsinə səfər etməklə bağlı qərarınızı layiqincə qiymətləndirəcəklər.

Bir daha xoş gəlmisiniz.

***

**Sonra Leonid Slutski çıxış edərək dedi:**

– Möhtərəm, əziz İlham Heydər oğlu. Bizə qardaş olan Azərbaycana hər dəfə səfər etmək, Sizinlə görüşmək və Azərbaycanın milli iqtisadiyyatın inkişafı üzrə uğurlarını böyük məmnuniyyətlə vurğulamaq mənim üçün həm şərəf, həm də mühüm hadisədir. Heydər Əlirza oğlunun bütün vəsiyyətləri uğurla həyata keçirilir. Sosial siyasətə gəldikdə, o, hər bir ailəni əhatə edir, bütün insanlara aiddir. Ölkənizdə hər il çox ciddi humanitar layihələr reallaşdırılır.

Azərbaycanın mədəniyyət mərkəzi Şuşada olmaq mənim çoxdankı arzumun həyata keçməsi baxımından əlamətdar oldu. Deyə bilərəm ki, Qarabağ bölgəsi inanılmaz templərlə bərpa olunur. Artıq Füzulidə və Zəngilanda çox gözəl beynəlxalq aeroportlar var, üçüncü hava limanı sürətlə tikilir. Bu gün Şuşa möhtəşəm tikinti meydançasını xatırladır, tarixi obyektlər bərpa olunur. Mən Şuşada olduğum üçün xoşbəxtəm. Bütün bunlar mənim üçün çox əlamətdar oldu. Ona görə də səfərə xüsusi olaraq bir gün əvvəl gəldim. Qarabağın Azərbaycanın tərkibinə qayıtması ilə nəticələnən antiterror əməliyyatının uğurlarının ən azından bir hissəsini öz adına çıxan bəzi region ölkələrinə münasibətdə xüsusi bir məqamı da qeyd etmək istəyirəm, – bununla yanaşı, milli miqyasda yoxsulluqla mübarizə üzrə strategiya uğurla hazırlanandan sonra Azərbaycan enerji cəhətdən müstəqil ölkə oldu, Sizin dahi atanızın, müasir Azərbaycan dövlətinin banisi, bizim də Rusiyada xatirəsini əziz tutduğumuz Heydər Əlirza oğlu Əliyevin bəlkə də ən böyük vəsiyyəti həyata keçdi. Ənənəyə uyğun olaraq, bu gün Moskvaya uçmazdan əvvəl mütləq onun məzarını ziyarət edəcəyəm, – burada mən Qarabağın qaytarılmasını nəzərdə tuturam. Bu məsələdə Azərbaycandan, Azərbaycan rəhbərliyindən, Azərbaycan xalqından, Azərbaycan Silahlı Qüvvələrindən başqa heç bir ölkənin hər hansı bir xidməti yoxdur. Bu, mühüm milli məsələ olmaqla yanaşı, Cənubi Qafqazda sabitlik, uğurla həll edilən tarixi vəzifədir.

Bu gün Azərbaycanın Qarabağ bölgəsində sürətli templərlə yeni iş yerlərinin yaradılması, o cümlədən elmi əsaslı klasterlərin həyata keçirilməsi prosesi gedir. Bəzilərinin Qarabağın tezliklə azad ediləcəyinə inanmadığı kimi, bu gün də kimsə bir neçə ildən sonra Qarabağda nələrin yaradılacağını təsəvvür etmir. Amma mən öz gözlərimlə gördüm ki, bu bölgə yenidən çiçəklənəcək, bərəkətli torpaqlara çevriləcək və Rusiya ilə Azərbaycanın mühüm infrastruktur şirkətləri də daxil olmaqla, əziz İlham Heydər oğlu, Sizin də müasir Azərbaycanın rəhbəri vəzifəsində çoxillik fəaliyyətinizi həsr etdiyiniz insanların rifahı naminə Qarabağda yeni infrastruktur layihələri həyata keçiriləcək.

Dünən hamımızın dərindən hörmət etdiyi, sevimli Polad Bülbüloğlunun mənimlə birlikdə olması da əlamətdar idi. O, 18 il Azərbaycanın mədəniyyət naziri olub. Həmçinin o, Azərbaycanın xarici siyasət xəttinin Rusiya istiqamətini səfir qismində layiqincə təmsil edərək Moskvada diplomatik korpusun duayeni qismində çalışıb. İndi isə Milli Məclisdə onun atasının da dünyaya gəldiyi Qarabağ bölgəsini layiqincə təmsil edir. Dünən biz Bülbülün tarixi ev-muzeyində olduq, bu vaxta qədər Özbəkistan, Qazaxıstan, Belarus prezidentləri, həmçinin digər müasir siyasi və ictimai xadimlər də burada olublar. Beləliklə, dünən mənim üçün ikiqat əlamətdar səfər oldu. Ona görə də indi aktual, ikitərəfli gündəliyimizdə olan, o cümlədən, əlbəttə ki, Milli Məclislə ən uğurlu şəkildə inkişaf edən parlament diplomatiyası müstəvisində məsələləri müzakirə edəcəyik.

Möhtərəm əziz İlham Heydər oğlu, dünən Şuşada olandan sonra bir daha Sizin qonağınız olaraq qəlbi Azərbaycanla döyünən, o cümlədən Azərbaycanın hüdudlarından kənarda olanları Qarabağın qaytarılması münasibətilə təbrik etmək istəyirəm. Qarabağ Azərbaycandır!

**Prezident İlham Əliyev:** Çox sağ olun!

***AZƏRTAC***

# Azərbaycanın yəhudi icmasına

**Hörmətli həmvətənlər!**

Yəhudi xalqının milli yeni il bayramı – Roş ha-Şana münasibətilə sizi ürəkdən təbrik edir, hər birinizə ən səmimi arzu və diləklərimi yetirirəm.

Şərqlə Qərbin qovuşuğunda körpü rolunu oynayan Azərbaycan uzun əsrlərdən bəri xalqlar arasında dostluq, qardaşlıq münasibətlərinin mövcud olduğu və etnik-mədəni rəngarəngliyin, yüksək multikultural dəyərlərin qorunub saxlandığı nadir məkanlardandır. Burada tarix boyu ən müxtəlif mədəniyyətlərin və etiqadların nümayəndələri ayrı-seçkiliyə məruz qalmadan həmişə sülh, mehriban qonşuluq, qarşılıqlı etimad və hörmət şəraitində bir ailə kimi yaşamışlar. Bu gün də nümunəvi tolerantlıq mühitinin hökm sürdüyü ölkəmizdə etnik və dini azlıqların, o cümlədən yəhudi icmasının öz milli-mənəvi dəyərlərindən lazımınca faydalanaraq adət-ənənələrini, dil və mədəniyyətini yaşatmaları üçün geniş imkanlar mövcuddur.

Xüsusi vurğulamaq istəyirəm ki, cəmiyyətimizin ayrılmaz hissəsi və bərabərhüquqlu üzvü olaraq yəhudiəsilli vətəndaşlarımız Azərbaycan həqiqətlərinin beynəlxalq aləmə çatdırılması işinə töhfələr verir, hazırda böyük tərəqqi və sürətli inkişaf mərhələsini yaşayan respublikamızın ictimai-siyasi həyatında yaxından iştirak edirlər.

Əziz dostlar!

Yeniliyin, mənəvi saflığın, həmrəyliyin və xeyirxahlığın təcəssümünə çevrilən Roş ha-Şana münasibətilə hamınızı bir daha təbrik edir, ailələrinizə xoşbəxtlik, süfrələrinizə bolluq və bərəkət arzulayıram.

Bayramınız mübarək olsun!

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 30 sentyabr 2024-cü il**

# Azərbaycan Respublikası Prokurorluğunun bir qrup əməkdaşının təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Xidməti vəzifələrini yerinə yetirərkən fərqləndiklərinə görə Azərbaycan Respublikası Prokurorluğunun aşağıdakı əməkdaşları təltif edilsinlər:

**“Tərəqqi” medalı ilə**

Ələskərov Aydın Abdulla oğlu
Həmzə Eldar Əkbər oğlu
Rəşidov Nazim Xudaşirin oğlu

**“Prokurorluq orqanlarında qulluqda fərqlənməyə görə” medalı ilə**

Acalov Ağakişi Zakir oğlu
Bağırov Camal Firudin oğlu
Əhmədov Toğrul Rahab oğlu
Əliyev Ramiz Kamal oğlu
Hacıyev İsfəndiyar Ruslan oğlu
Hümmət-zadə Tural Ramazan oğlu
İbrahimli Rahim Adif oğlu
Məmmədli Sahil Rəfail oğlu
Məmmədova Təranə Yavər qızı
Mirkişiyev Anar Nurəddin oğlu
Tağıyev Emil Zülfüqar oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 30 sentyabr 2024-cü il**

# “Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidməti haqqında Əsasnamənin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 19 aprel tarixli 1340 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

“Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidməti haqqında Əsasnamənin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 19 aprel tarixli 1340 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 4, maddə 554 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 2.1.2-ci yarımbənddə “dayanacaq bazalarının (qurğularının)” sözləri “və onların dayanacağı üçün bazaların (qurğuların)” sözləri ilə əvəz edilsin.

**2.** Həmin Fərmanla təsdiq edilmiş “Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidməti haqqında Əsasnamə”nin 3.0.24-cü yarımbəndində “dayanacaq bazalarının” sözləri “və onların dayanacağı üçün bazaların (qurğuların)” sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 30 sentyabr 2024-cü il**

# Qərbi azərbaycanlıların ədalət çağırışları

**Azərbaycan Prezidenti İlham Əliyev Bakının mərkəzində böyük el sənətkarı Aşıq Ələsgərin abidəsinin açılışını etmiş və açılış mərasimində Qərbi Azərbaycandan qovulmuş azərbaycanlıların qayıdış məsələsi ilə bağlı tarixi çıxış etmişdir. Prezident İlham Əliyevin Aşıq Ələsgər irsini yaxından himayə etməsi, həm də Qərbi Azərbaycana qayıdış məsələsinə, Ermənistanın işğal, etnik təmizləmə və irqi ayrı-seçkilik siyasətindən zərər görmüş Azərbaycan mədəniyyəti, ədəbiyyatı və incəsənətinə diqqətinin göstəricisidir. Prezidentin çıxışından da göründüyü kimi, Aşıq Ələsgərin qaçqınlıqla keçmiş ağrılı həyat yoluna dərindən bələd olması, onun Qərbi azərbaycanlıların taleyinə nə qədər yaxından qayğı göstərdiyinin təzahürüdür.**

Bu barədə Qərbi Azərbaycan İcmasının yaydığı bəyanatda deyilir.

Sənəddə vurğulanır ki, dövlət başçısı Qərbi azərbaycanlıların öz dədə-baba torpaqlarına qayıdacağına olan inamını ifadə etməsi böyük motivasiya mənbəyidir. Qarabağ və Şərqi Zəngəzurun azad edilməsi və orada Böyük Qayıdış proqramının həyata keçirilməsi, doğma yurdlara qayıdılacağı günün uzaqda olmadığını göstərir.

“Biz, Qərbi Azərbaycan İcması olaraq, cənab Prezidentin ədalətin bərpasına, xalqımızın birliyinə, və əyilməz ruhuna yönəlmiş çağırışlarını tam dəstəkləyirik. Doğma torpaqlarımıza sülh yolu ilə, ləyaqətlə və təhlükəsiz şəkildə qayıdışımızın təmin edilməsi üçün dövlətimizin atacağı bütün addımlarda bundan sonra fəal şəkildə iştirak edəcəyik.

Aşıq Ələsgərin və bütövlükdə Azərbaycan aşıq sənətinə göstərdiyi diqqət və qayğıya görə cənab Prezident İlham Əliyevə və Birinci xanım Mehriban Əliyevaya bir daha dərin təşəkkürümüzü bildiririk. İnanırıq ki, milli birlik və iradəmiz ilə tarixin ədalətsiz səhifələrini çevirərək doğma yurdlarımıza qayıdacağıq”, – deyə bəyanatda bildirilir.

***

**QAİ-nin digər bəyanatı COP29 yaxınlaşdıqca anti-Azərbaycan qüvvələrin "insan hüquqları" bəhanəsi ilə Azərbaycana qarşı hücumlarının intensivləşməsi ilə bağlıdır.**

Sənəddə bildirilir ki, erməni lobbisi ilə sıx əlaqəli olan “Freedom House”, “Human Rights Watch” və digərləri əvvəllər ermənipərəst motivlərini gizlətməyə çalışırdılarsa da, artıq bunu açıq şəkildə edirlər. Artıq bu hücumları həmin təşkilatların erməni mənşəli əməkdaşlarının özləri həyata keçirir. Buna son nümunə isə Freedom House-un erməni millətçisi Şeyla Paylan tərəfindən Newsweek-də yayımlanan böhtan dolu məqaləni dəstəkləməsidir.

Bəyanatda sonra deyilir: “Biz bu hücumları qətiyyətlə pisləyir və Paylanın işlədiyi BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsini (UNODC) onun haqqında zəruri ölçü götürməyə çağırırıq”.

***XQ***

# Beynəlxalq Prokurorlar Assosiasiyasının 29-cu İllik Konfransı və Ümumi Yığıncağının iştirakçılarına

Hörmətli tədbir iştirakçıları!

Sizi Beynəlxalq Prokurorlar Assosiasiyasının Bakı şəhərində keçirilən 29-cu İllik Konfransı və Ümumi Yığıncağında səmimi-qəlbdən salamlayıram.

Yüzə yaxın ölkənin, eləcə də BMT-nin ixtisaslaşmış qurumlarının da daxil olduğu beynəlxalq təşkilatların təmsilçilərini, habelə prokurorlar, hakimlər, hüquqşünaslar, ekspertlər və digər nüfuzlu şəxsləri bir araya gətirən belə bir mötəbər tədbirə ev sahibliyi etmək bizim üçün əlamətdar hadisə, eyni zamanda, ölkəmizə olan ehtiramın təzahürüdür.

Azərbaycanın qlobal əhəmiyyətli tədbirlərə ev sahibliyi etməsi artıq ənənə halını almışdır. Məlum olduğu kimi, ötən ilin sonunda Azərbaycan Respublikası dünya dövlətlərinin yekdil qərarı ilə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) ev sahibliyi etmək şərəfinə layiq görülmüşdür.

Bəşəriyyəti narahat edən iqlim dəyişmələrinə qarşı mübarizədə ölkəmiz digər dövlətlər, həmçinin aidiyyəti beynəlxalq təşkilatlarla birgə dünyanın ekoloji sisteminin yaxşılaşmasına töhfələr verməyə çalışacaqdır. Təsadüfi deyildir ki, COP29 çərçivəsində beynəlxalq tərəfdaşlarla birlikdə “İqlim dəyişikliyi ilə mübarizədə hüquq-mühafizə orqanlarının səfərbər edilməsi” mövzusunda tədbirin keçirilməsi planlaşdırılır.

Azərbaycan uzun müddət qonşu Ermənistan Respublikası tərəfindən işğal və hərbi təcavüzə məruz qalmışdır. Bu işğal dövründə xalqımıza qarşı etnik təmizləmə siyasəti aparılmış, çoxsaylı hərbi cinayətlər və insanlıq əleyhinə cinayətlər törədilmişdir. Nəhayət 2020-ci ildə Vətən müharibəsi və 2023-cü ildə antiterror əməliyyatı nəticəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa edildi.

İşğal dövründə 4 minə yaxın azərbaycanlı itkin düşmüşdür. Onlar Ermənistan tərəfindən işgəncələrə məruz qalaraq qətlə yetirilmiş və kütləvi məzarlıqlarda basdırılmışdır. Ermənistan hazırda itkin düşmüş bu şəxslərin sonrakı aqibəti, habelə onların basdırıldığı kütləvi məzarlıqların yeri barədə məlumatları bizə təqdim etməkdən imtina edir.

Həmçinin işğal dövründə Azərbaycan xalqına məxsus maddi-mədəniyyət abidələri, eləcə də dini ibadət yerləri, bütövlükdə 9 şəhər və yüzlərlə kənd və qəsəbə tamamilə məhv edilmişdir. Bu cinayət əməllərinə görə Ermənistan işğalçı və təcavüzkar ölkə olaraq, dövlət səviyyəsində məsuliyyət daşıyır. Bütün bu cinayətləri törətmiş Ermənistan tərəfi Azərbaycan xalqından üzr istəmək əvəzinə, ölkəmizə qarşı əsassız ittihamlar irəli sürür. Bütün bunlara baxmayaraq, bu gün Azərbaycan bölgədə davamlı sülh və sabitliyə nail olmaq üçün səylərini davam etdirir.

Hörmətli qonaqlar!

Biz Beynəlxalq Prokurorlar Assosiasiyası ilə uzunmüddətli əlaqələrimizi yüksək qiymətləndirir və bu tərəfdaşlığın möhkəmləndirilməsi istiqamətində səylərin gücləndirilməsini vacib hesab edirik.

Azərbaycanda prokurorluq orqanlarında mütərəqqi islahatlar həyata keçirilmiş, ölkədə qanunun aliliyi, fundamental hüquq və azadlıqlar tam təmin olunmuşdur. Ölkəmizin hüquq-mühafizə orqanları beynəlxalq səviyyədə transmilli cinayətkarlıq, terrorizm, separatizm, qaçaqmalçılıq, çirkli pulların yuyulması, narkotiklərin qanunsuz dövriyyəsi, kibercinayətkarlıq, qanunsuz miqrasiya və s. qarşı mübarizəyə öz mühüm töhfəsini verir və bu istiqamətdə beynəlxalq əməkdaşlığı dəstəkləyir.

Transsərhəd cinayətkarlığının yeni forma və təzahürlərinin, o cümlədən kibercinayətkarlığın yeni növlərinin meydana gəlməsi, sosial media platformaları, süni intellektin yaratdığı imkanlardan cinayətkarlıq, terrorizm məqsədilə istifadə edilməsi prokurorluq orqanlarının qarşısında yeni və mürəkkəb çağırışlar qoyur. Eyni zamanda, dünyada etnik-dini zəmində artmaqda olan nifrət və irqçilik meyilləri hamımızı narahat edir.

Əminəm ki, “Qanunun aliliyinin təmin edilməsində prokurorun rolu” mövzusuna həsr olunmuş dördgünlük konfrans ortaq məqsədlərə töhfə verəcək və daha böyük əməkdaşlığa yol açacaqdır.

Mən sizləri bir daha Azərbaycanda salamlayır, ən xoş arzularımı yetirir, konfransın işinə isə uğurlar diləyirəm.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 28 sentyabr 2024-cü il**

# Azərbaycanın ideoloji təhlükəsizlik prioriteti

*Bu siyasətin əsasında xalqımızın güclü iradəsi və milli ruhumuz dayanır*

(əvvəli 1-ci səhifədə)

Heydər Əliyevin baxışlarındakı azərbaycançılıq milli mənsubiyyətin, mili-mənəvi dəyərlərin ümumbəşəri dəyərlərlə sintezidir. Belə yanaşma qlobal inteqrasiyasından bəhrələnməni inkar etmir, ancaq proses zamanı ideoloji təhdid və təhlükələrə qarşı son dərəcə ciddi immunitet və müqavimət formalaşdırır. Digər yandan, Ulu öndər milli birliyin və həmrəyliyin təminatı, dilimizin və mənəvi dəyərlərimizin qorunması, inkişaf etdirilməsi zərurəti ilə bağlı tövsiyə xarakterli fikirlərini bildirərkən, bunun ölkəmizin beynəlxalq nüfuzunun daha da artırılması, tariximizin, mədəniyyətimizin yüksək səviyyədə təbliği baxımından vacibliyini vurğulayıb, habelə Ermənistanın təcavüzkar siyasətinin ifşası, bədnam erməni lobbisinə qarşı sistemli və ardıcıl əks-hücumun təşkili məsələlərini qabardıb. Hazırda yaşananlar, o cümlədən, Azərbaycana qarşı əks ideoloji təbliğat onu göstərir ki, dahi şəxsiyyətin müəyyənləşdirdiyi mübarizə vasitələri günümüz üçün də aktualdır.

***

Unutmaq olmaz ki, müasir dövrdə böyük dövlətlər, güc mərkəzləri ideoloji işğal siyasəti həyata keçirirlər. Sözügedən siyasətin müxtəlif komponentləri, tətbiq olunan konkret mexanizmləri var. Məqsəd xalqları itaət altında saxlamaq üçün zəmin yaratmaqdır. Ayrı-ayrı ölkələrin nümunəsində bu dəstxəttin fəsadları diqqətimizdən yayınmır. Məsələn, götürək Yaxın Şərq və Afrika ölkələrini. Qərbin diktarura rejimləri kimi qiymətləndirdiyi həmin ölkələrdə ideoloji, siyasi və mənəvi müstəvidə həyata keçirilmiş "planlar" nəticəsində yaşanmış dövlət çevrilişləri, hakimiyyət dəyişiklikləri heç bir müsbət nəticə vermədi, əksinə əvvəl əldə edilmiş nailiyyətlər iflasa uğradı, dövlətçilik ənənələri sıradan çıxdı, insanların rifah halı son dərəcə dözülməz şəklə düşdü.

Yeri gəlmişkən, 1990-2000-ci illərdə Azərbaycanı da qeyd etdiyimiz acınacaqlı durumlara salmaq cəhdlərini görmüşük. Həmin zaman kəsiyində Qərbin və digər kənar qüvvələrin ideoloji müdaxiləsləri, vətəndaş cəmiyyəti institutlarının, medianın, siyasi partiyaların, tanınmış ictimaiyyət nümayəndələrinin, dindarların, bəzi hallarda isə oliqarxlaşmış şəxslərin ələ alınmaları yaxşı xatirimizdədir. Əminliklə deyə bilərik ki, ictimai rəyə təsir metodları ilə hakimiyyətə təzyiq mexanizmlərinin işlək saxlanılması cəhdləri günümüzün də acı reallıqlarıdır. Daha pisi isə budur ki, hazırda bu reallıqda ideoloji təcavüzün tam yeni formaları var. Söhbət ictimaiyyətə LGBT, "NoWar" və digər bu kimi zərərli meyillərin aşılanmasından, mövcud xüsusda gənclərin ələ alınmasından, onlarda anti-milli, kosmopolit dünyagörüşünün formalaşdırılması cəhdlərindən gedir. Həm buna, həm də digər qlobal miqyaslı mənfi tendensiyaların mövcudluğuna görədir ki, dövlətimizin başçısı Milli Məclisdəki nitqində ideoloji təhlükəsizliklə bağlı məsələləri ön plana çəkib. Həm də o səbəbdən ki, 2020-ci ilin Vətən müharibəsindən sonra yaranmış yeni reallıq var. Bu reallıqda güclü Azərbaycan amili dünyanın bəzi qütblərinə qətiyyən sərf etmir. Dövlətimizin müstəqil, prinsipial siyasət həyata keçirməsi həmin qütblərin, necə deyərlər, kürklərinə birə salır, onları "hərəkətə gətirir".



***

Prezident İlham Əliyev ideoloji təhdid riskləri ilə bağlı fikirlərini əsaslandırarkən, ATƏT-in artıq, faktiki olaraq, ölü vəziyyətində olan Minsk qrupunu "diriltmək" cəhdlərinin nəzərə çarpdığını vurğulayıb. Əslində, dövlətimizin başçısının qaldırdığı məsələ ideoloji təhlükəsizliyimizin, belə demək mümkünsə, zahiri aspektidir. Çünki ATƏT-in keçmiş Minsk qrupunu saxlamaq istəklərinin arxasında ölkəmizə qarşı ərazi iddialarını davam etdirmək niyyəti dayanır. Axı bu təsisat Qarabağ münaqişəsinin mövcud olduğu dövrün məhsuludur və qayəsində problemi həll etmək prioriteti dayanır. Başqa sözlə desək, ATƏT-in Minsk qrupu ona görə var idi ki, ərazi mübahisəsi kimi meydana çıxan erməni avantürizmi leqallıq qazansın.

Azərbaycan ictimaiyyəti həmişə ATƏT-in Minsk qrupuna mənasız təsisat olaraq yanaşıb. Bu o deməkdir ki,cəmiyyətimiz heç vaxt Qarabağın mübahisələndirilməsi ritorikasını qəbul etməyib. Məhiyyətcə bölgənin Ermənistanın ərazisi kimi düşüncələrə yeridilməsinə çalışan ATƏT-in Minsk qrupunun ABŞ, Rusiya və Fransadan olan həmsədrləri isə regiona mənasız səfərlər gerçəkləşdirməklə, heç bir əhəmiyyəti olmayan danışıqlar aparmaqla, çalışıblar ki, xalqımızın Qarabağla və işğal edilmiş digər torpaqlarımızla bağlı yaddaşında dəyişiklik yaşansın. Uzun sözün qısası, ərazilərimizin Ermənistanın olması ilə barışmağımızı istəyiblər. Görünür, bunun üçün bölgəyə yüz min dəfə gedib gəlmək lazım olardısa, həmsədrlər və onların xələfləri bu işi gerçəkləşdirəcəkdilər.

Digər tərəfdən, o da məlum idi ki, ATƏT-in Minsk qrupunun strategiyası ilə erməni beyin mərkəzlərinin planları eyni idi. İkincilər hesab edirdilər ki, nəsillərin dəyişməsi ilə xalqımız Qarabağı unudacaq. Bu baxımdan müəyyən müddətlər üzərində dayanılmışdı. Azərbaycan gəncinin yaddaşındakı Qarabağ təsəvvürü əsas götürülmüşdü. 30, 40, 50 ildən sonrakı düşüncə durumuna uyğun "ssenarilər" qurulmuşdu. Belə bir vəziyyədə ATƏT-in Minsk qrupunun "missiyası" Azərbaycan insanın Qarabağ itkisi ilə barışmasının başa çatması zamanını gözləmək idi. Yəni, qrupun işğalın tam şəkildə başa çatmasını, bir növ, rəsmiləşdirən təsisat kimi çıxış etməsi nəzərdə tutulurdu. Deməli, həmsədrlərin Azərbaycana və Ermənistana mənasız kimi qiymətləndirdiyimiz səfərləri heç də elə-belə deyildi.

Lakin həm erməni beyin mərkəzləri, həm ATƏT-in Minsk qrupunun timsalında xaricdəki ermənipərəstlər Azərbaycan xalqının işğal faktı ilə qətiyyən barışmayacağını hesablaya bilmədilər. Onlar "planlarının" pozulduğunu ilk dəfə 2016-cı ilin Aprel müharibəsi zamanı gördülər. Gördülər ki, Azərbaycan xalqı torpaqların işğaldan azad olunmasına böyük ruh yüksəkliyi ilə yanaşır. Bununla əlaqədar həyəcan təbili çalan, aparılan ideoloji işin səmərə vermədiyini bildirən erməni politoloqlar və ekspertlər də tapıldı. Bu şəxslər məsələyə başqa cür, tam fərqli prizmadan yanaşılmasının vacibliyini əsaslandırdılar. Təxminən belə: 1993-cü ildən 2016-cı ilədək yetişən Azərbaycan gənci üçün Qarabağ prioriteti varsa, deməli, Qarabağın ermənilərə məxsusluğu yönümlü ideya iflasa uğrayıb.

Əlbəttə, sözügedən ideya 44 günlük müharibə dönəmində tam şəkildə puç oldu. Ölkəmizdə nəsillərin dəyişməsinə qoyulan ideoloji sərmayə özünü doğrultmadı və doğrulda da bilməzdi. Bu yerdə Prezident İlham Əliyevin İkinci Qarabağ müharibəsindəki Zəfərimiz məsələsində dilə gətirdiyi bir fikrin üzərində dayanaq. Dövlətimizin başçısı çox böyük fəxr və qürur hissi ilə bildirmişdi ki, torpaqlarımızı işğaldan özünün Prezidentliyi dövründə yetişən nəsil xilas edib.

***

Azərbaycan Prezidenti ATƏT-in Minsk qrupunun bərpası xüsusunda ölkəmizə qarşı media spekulyasiyalarının, qarayaxma, iftira, böhtan kampaniyalarının aparıldığını bildirib. Vurğulayıb ki, mövzunu daim gündəlikdə saxlamaqla, Azərbaycanın büdrəməsini, zəifləməsini gözləyənlər, yenidən ölkəmizə qarşı çirkin hərəkətləri başlatmaq üçün fürsət gözləyənlər var. Deməli, haqında söz açdığımız "plan" heç də siyasi gündəlikdən çıxmayıb.

Dövlətimizin başçısı səsləndirdiyi fikirlərlə ölkəmizə qarşı ideoloji diversiyalar barədə ictimaiyyətin məlumatlılığının vacibliyinə toxunub. Deməli, ölkəmizin Ermənistan qarşısında qoyduğu tələbin nə qədər yerində olduğu bir daha təsdiqini tapır. Məlumdur ki, rəsmi Bakı İrəvana ATƏT-in Minsk qrupunun ləğvi ilə bağlı birgə müraciət ünvanlamağı təklif edib. Heç şübhəsiz, müraciət Ermənistanın Azərbaycana qarşı ərazi iddiasından daşınmasının təsdiqi deməkdir. Ancaq qarşı tərəf bununla razılaşmır. Yada salaq ki, bir müddət əvvəl ölkənin Xarici İşlər Nazirliyindən Bakı–İrəvan sülh prosesinin ATƏT-in Minsk qrupunun vasitəçiliyi ilə davam etdirilməsinin mümkünlüyünə dair sərsəm açıqlama da gəlmişdi.

***

Prezident İlham Əliyev Milli Məclisdəki nitqində ideoloji təhlükəsizliyin vacibliyini konkret şəkildə də əsaslandırıb. Ölkəmizə qarşı ideoloji təxribatların davam etdiyini vurğulayan dövlətimizin başçısı xalqımızın güclü iradəsi və milli ruhumuz sayəsində belə təxribatların heç bir nəticə vermədiyini açıqlayıb, son dərəcə əminliklə Azərbaycanda istənilən təxribatın kök salmasının qeyri-mümkünlüyünü diqqətə çatdırıb. Ancaq dövlətimizin başçısı arxayınlaşmağın yolverilməzliyini də vurğulayıb. Bildirib ki, hər şeyə hazır olmalı, çirkin oyunları ifşa etməliyik. İş həm rəsmi surətdə, həm ictimai məkanda, həm də media müstəvisində getməlidir.

Deməli, milli ideoloji sistem xaricdən gələn təxribatlara qarşı sipər rolunda çıxış etməlidir. Bu zaman ulu öndər Heydər Əliyevin azərbaycançılıq ideologiyası güclü birləşdirici, müdafiəedici və inkişafa təkan verən dəyərlər sistemi kimi ön plana çıxmalıdır. Nəzərə alınmalıdır ki, müasir qloballaşmanın ideoloji təcavüz üçün açdığı geniş imkanlar şəraitində milli ideologiyanın inkişaf etdirilməsi və özünümüdafiə mexanizminin gücləndirilməsi son dərəcə əhəmiyyətlidir.

***

Prezident İlham Əliyev çıxışında vaxtilə xarici təbliğatın Azərbaycanda bir yox, bir neçə mənbədən kök saldığını vurğulayıb. Dövlətimizin başçısı bildirib ki, bir-biri ilə rəqabət aparan xarici qüvvələr və ölkələr Azərbaycanda ictimai fikirdə söz sahibi olmağa çalışır, istəyirdilər ki, onların əlaltıları vasitəsilə media məkanımızda istənilən təxribatı ortaya ataraq, vəziyyəti öz xeyirlərinə dəyişdirsinlər. Oxşar mənfi meyillərin indi də müşahidə edildiyini diqqətə çatdıran ölkəmizin lideri belə halların müəyyənləşməsi baxımından meyarları açıqlayıb. Yəni, kim bizimlə Qarabağın Azərbaycana qaytarılmasına sevinirsə, o, dostumuz, qardaşımızdır. Bundan məyusluq keçirənlər, yenidən separatçılara ürək-dirək verənlər, onları xarici ölkələrə dəvət edənlər, ölkəmizə qarşı müxtəlif alətlər vasitəsilə qarayaxma kampaniyası aparanlar, əlbəttə ki, dostumuz ola bilməzlər.

Ən əsası isə Prezident İlham Əliyev işğal dövründə indiki qədər açıq, təxribat xarakterli addımların müşahidə edilmədiyini bildirib. Çünki işğal bizə qarşı olan qüvvələri tam qane edirdi. Amma indi vəziyyət dəyişib. Əvvəldə də vurğuladığımız kimi, artıq Azərbaycan bölgədə yeni reallıq formalaşdırıb və bu reallığa qarşı çıxmanın ideoloji təxribat motivi ön plandadır. Milli birlik və vəhdətimizi sarsıtmağa çalışanlar müasir dövrün rəqəmsal anarxiya semantikasına uyğun davranırlar.

Sosial media komponentləri ilə gənclərimizin şüuru ilə manipulyasiya etməyə baş vururlar. Beləl追 44 günlük müharibə dönəmində layiqli dərs verdik. Onlar Azərbaycan gənclərinin vətənpərvərliyini, xalqa bağlılığını gördülər. Heç şübhəsiz, yenə də görəcəklər. Bütün məkrləri və oyunbazlıqları bumeranq effekti verəcək, verir də. Bunu söyləmək üçün Qərb cəmiyyətlərinə diqqət yetirmək lazımdır. O cəmiyyətlərə ki, orada əsl deqradasiya yaşanır. Ulu öndər Heydər Əliyevin azərbaycançılıq fəlsəfəsi isə daim təkamüldə və yeni dolğun çalarlarla zənginləşməkdədir. Bu zənginləşmədə Azərbaycanın gücü, regional liderliyi, dünyada söz sahibi kimi müstəsna ampluası var. Mövcud status gələcək varlığımızın, müstəqilliyimizin, ərazi bütövlüyümüzün və suverenliyimizin, habelə dövlətçiliyimizi nəsillərə miras təminatıdır.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Keşiş Qaregin Matenadarandan baş nazirə meydan oxudu

*Dövləti işğalçı, dindarı terrorçu olan xalqın sabahı qaranlıqdır*

**Yazıq Nikol Paşinyan BMT Baş Assambleyasının 79-cu iclasında iştirak etmək üçün getdiyi Nyu-Yorkda min cür oyundan çıxaraq, Azərbaycanın 20 faiz ərazisini 30 ilədək işğal altında saxlayan ölkəsinə "sülh göyərçini" donu geyindirmək istəyirdi. İstənilən siyasətçi və ya diplomata salam verən kimi "Biz Azərbaycanla sülh sazişi imzalamağa hazırıq!" – deyən Paşinyan dərhal Ermənistanın 1991-ci il Alma-Ata Bəyannaməsində qeyd edilən ərazisinin "toxunulmaz" olduğunu xatırladırdı. Ancaq işğalçı ölkənin baş nazirinin ABŞ-dən qayıtmasını gözləməyən katolikos II Qaregin Matenadarandan bəyan etdi ki, Ararat dağı ( Ağrı – red.) Ermənistanın ərazisidir.**

"Sputnik Armeniya" informasiya portalı yazır ki, sentyabrın 29-da Eçmiədzin kilsəsinin 17 əsr davam edən təzələnməsi ənənəsinin növbəti tədbiri keçirilib. Dördüncü əsrin əvvəllərində təməli qoyulmuş kilsənin təzələnməsi – ibadət yerlərinə bir neçə bitkinin suyu və şərab ilə qarışdırılmış zeytun yağının çəkilməsi prosesi belə adlandırılır – prosesinə başlayan katolikos "deyib ki, bu ibadət yeri 17 əsrdir ki, öz qapı-pəncərəsindən Ararat dağına (Ağrı-red.) işıq salır və həmin nur bizim böyük vətənimizin möhkəmlənməsini, xalqımızın xilasını" təmin edir.

Dayan görək, qoca keşiş! Sənin dövlət başçın deyir ki, biz nağıllardan uzaqlaşaraq, miflərdən əl çəkərək, reallıqlara əsaslanan müasir Ermənistan dövləti yaratmaq istəyirik. Baş nazirin xalqı yeni reallıqlarla barışdırmağa çalışdığı bir vaxtda dini rəhbərin qonşu dövlətə ərazi iddiası eləməsi, sadəcə öz xalqına pislik, dövlətə xəyanət etmək deyilmi?

Hələ bu harasıdır? Tədbirdə Ermənistanın miflərlə yaşadığı dövrdə mühüm dövlət vəzifələri tutmuş şəxslər – keçmiş baş nazir Tiqran Sarkisyan və Azərbaycan ərazilərinin 20 faizini viranəyə çevirmiş müdafiə naziri Seyran Ohanyan, eləcə də indiki iqtidarın təmsilçiləri – parlamentin sədr müavinləri Ruben Rubinyan və Akop Arşakyan da tədbirdə iştirak edib, keşişin çıxışlarını alqışlayıblar.

"SputnikArmeniya"nın "Eçmiədzindəki kilsənin bir il təxirə salınmış təzələnməsi – tarixi mərasimi necə keçdi?" – adlı yazıda qeyd edilir ki, belə tədbirlər yeddi ildə bir dəfə keçirilir. Növbəti tədbir ötən il olmalıydı. Ancaq Azərbaycanın Dağlıq Qarabağa (artıq elə bir ərazi və ya qurumun olmadığını hamıdan yaxşı ermənilər bilirlər –İ.M.) təcavüzünə görə (orada heç bir təcavüzdən söhbət getmədiyini, bizim bütün ərazilərimizdə öz suverenliyimizi bərpa etdiyimizi artıq dünyada bilməyən yoxdur) həmin mərasim bir il təxirə salınmışdı.

Burada maraqlı başqa bir məqam da var. Bütün ermənilərin katalikosu II Qaregin kilsənin ora-burasını yağlayanda deyib ki, bu qazana daxil edilmiş miro , yəni balzam 40 növ otun özündən və kökündən, çiçəklərin ləçəyindən və cavan zeytun ağacının meyvələrindən alınmış yağdan ibarətdir və onu şərabla qarışdırırıq. Bunu başa düşdük. Dalısınca isə deyib ki, bu balzamı bizə Kilikiya böyük evinin katolikosu göndərmişdir. Yəni bunlar öz tarixi vətənlərini – əgər, o varsa, gedib Kilikiyada axtarmalıdırlar, Qarabağda yox.



Kilsənin yağlanması prosesi başa çatandan sonra İkinci Qaregin oradan çıxaraq iştirakçıların arasına gəlib ki, xalq ona toxunmaq imkanı qazansın. İnsanlar onun əlini öpüblər. Bu isə Ermənistan əhalisinin Nikol Paşinyana deyil, yeni müharibələr arzusunda olan kilsə quzğunlarına inanmasını təmin etmək cəhdi idi. Onun yağlı əlini öpüb gedib Azərbaycan əsgərinin ayağı altında əzilməyi məqbul sayanlar varsa, qoy öpsünlər. Matenadaranda dayanıb Ağrı dağına da baxsınlar. Amma daha yaxşı olar ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Nyu-Yorkda Ermənistanın baş naziri Nikol Paşinyana hədiyyə etdiyi kitabdan bəhrələnməyi də unutmasınlar. Çünki artıq miflərlə yaşamaq dövrü geridə qalıb.

O ki qaldı, Eçmiədzin kilsəsinə, xatırladaq ki, 1945-ci ilin mart ayınadək Üçkilsə adlanan ərazidəki eyni adlı kilsə IV əsrin əvvəlində Cənubi Qafqazda xristianlığın yayılması zamanı inşa edilmişdir. Daha doğrusu, həmin ərazidəki məşhur atəşpərəstlik məbədi daş hasara alınmış və az sonra (303-cü ildə) burada xristian məbədi ucaldılmışdır. Mənbələrdə göstərilir ki, kilsənin "Eçmiədzin" adı erməni dilində "yenidən doğulmuş yerə endi" kimi şərh edilir (əfsanəyə görə İsa Məsih göydən enərək müqəddəs Qriqoriyə burada görünmüşdü). Yəni Nikol Paşinyanın dediyi kimi, bu adamlar min illərdir nağıllara, miflərə inanaraq yaşayır və fəaliyyət göstərirlər.

Sovet dönəmində Ermənistanda hazırlanan ensiklopediyalarda yazılırdı ki, Matenadaranda saxlanılan orta əsr sənədlərində məbədin adı məhz "Üçkilsə" kimi xatırlanır. Rus alimləri isə yazırlar ki, Erməni katalikosluğunun Üçkilsəyə köçürülməsi ilə erməni missionerləri buraya üz tutdular: "Onların Cənubi Qafqazda nüfuzlarını artırmaq imkanı yaranmışdı. Təzliklə monastrın özü ermənilərin dini mərkəzinə çevrilmişdir".

Bizə isə məlumdur ki, bu torpaqların XIX əsrin birinci yarısında Rusiyaya birləşdirilməsindək Cənubi Qafqazda Üçkilsənin hüdudlarından kənarda çox cüzi sayda erməni var idi…Tarixi mənbələrdə qeyd edilir ki, Türkmənçay müqaviləsi bağlanana qədər nəinki Qarabağ xanlığında, eləcə də Cənubi Qafqazda həqiqətən də ermənilərin sayı az idi. Göstərilən müqavilədən sonra ermənilər çar Rusiyasının himayəsi və yardımı ilə İran və Türkiyədən bu ərazilərə köçürülmüşdür. Azərbaycan ərazilərinə İrandan 40 mindən artıq, Türkiyədən isə 90 min erməni köçürülmüş və bu da çar Rusiyasının işğalçılıq siyasətinin acı nəticəsi idi. Təəssüf ki, çarizmin həmin siyasəti sovet dövləti zamanında da davam etdirilmişdi.

Məhz həmin haqsızlıqların nəticəsidir ki, indi ermənilər qədim Azərbaycan torpaqlarında hər yeddi ildən bir kilsəni yağlayır və oradan Ararat dağına baxırlar. Qoy nə qədər istəyirlər baxsınlar.

***İttifaq MİRZƏBƏYLİ***

# Sülh, yoxsa təxribat?!

## *Seçim məğlub ölkənindir*

**Ermənistan hakimiyyəti regionda davamlı sülh və sabitliyin təmin olunması istiqamətində addımlar atmaqdansa, təxribatçı hərəkətlərini davam etdirir. Torpaqlarımızı 30 il işğal altında saxlamış ölkə hazırda dünyanın müxtəlif ölkələrindən, əsasən Fransa başda olmaqla Qərb dövlətlərindən, Hindistandan silah-sursat alır, hərbi arsenalını genişləndirir. Buna paralel olaraq, şərti sərhəddə mövqelərimizin atəşə tutulması halları da səngimək bilmir.**

Diqqətçəkən məqam həm də şərti sərhədin qərb hissəsində, adətən, sakitliyin hökm sürdüyü Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan eksklavı istiqamətində son vaxtlar gərginliyin artmasıdır. Azərbaycan–Ermənistan sərhədinin şərq hissəsində 1980-ci illərin sonlarından İrəvanın işğalçılıq siyasəti üzündən məlum hadisələr baş versə də, sərhədin Naxçıvan hissəsi heç zaman mübahisəli olmayıb. Son zamanlar isə Ermənistan məhz Naxçıvan istiqamətində təxribatlar törətməyə çalışır.

Sentyabrın 26-sı saat 16:10 radələrində Ermənistan silahlı qüvvələrinin bölmələri Qarakilsə rayonunun Ərəvus yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Naxçıvan Muxtar Respublikasının Culfa rayonunun Ləkətağ yaşayış məntəqəsi istiqamətindəki mövqelərini yenə də iriçaplı pulemyotlardan atəşə tutdu. Müdafiə Nazirliyi bununla bağlı yaydığı məlumatda qeyd etdi ki, həmin istiqamətdə ordumuzun bölmələri tərəfindən cavab tədbirləri görülüb.

Ermənistan tərəfi isə məlumatın yalan olduğunu sübut etməyə uğursuz cəhdlər göstərdi və bunu "dezinformasiya" adlandırdı. Baş vermiş insidenti araşdırmaq, təqsirkarları üzə çıxarmaq əvəzinə rəsmi İrəvan ənənəsinə sadiq qalaraq, bu dəfə də inkar yolunu tutdu. Qarşı tərəfin yaydığı açıqlamada deyilirdi: "Azərbaycan Müdafiə Nazirliyinin sentyabrın 26-da saat 16:10 radələrində Ermənistan silahlı qüvvələrinin bölmələrinin sərhəd zonasının cənub-qərb hissəsində yerləşən Azərbaycan mövqelərini atəşə tutması barədə yaydığı məlumat həqiqətə uyğun deyil".

Hayastan müdafiə nazirliyi yaydığı məlumatın bundan sonrakı hissəsində yenə də, obrazlı desək, "köhnə havanı çalmağa" başladı. Yenə də rəsmi İrəvanın sərhəddə insidentlərin araşdırılması üçün ortaq komissiyanın yaradılmasına çağırış etdiyi xatırladıldı: "Yada salmaq istərdik ki, Ermənistan baş nazirinin ofisi diplomatik kanallar vasitəsilə Azərbaycan tərəfinə atəşkəs rejiminin pozulması hallarının və ya bu barədə informasiyaların araşdırılması məqsədilə Ermənistan–Azərbaycan birgə ikitərəfli mexanizminin yaradılmasını təklif edib. Lakin Azərbaycan buna hələ də cavab verməyib".

Göründüyü kimi, qarşı tərəf sərhədyanı zonada təxribatlar törətsə də, bunun təqsirini yenə bizim üzərimizə atmağa cəhd edir. Buna görə də onlar ənənəvi tezisi təkrarlamaqla vəziyyətdən çıxmağa çalışırlar. Ermənistan hakimiyyəti atəşkəs pozuntusundakı təqsirini etiraf etmir, təqsirkarları cəzalandırmaq istəmir. Bu isə hadisənin məqsədli şəkildə törədildiyini və oxşar halların qarşıdakı dövrdə də təkrarlanacağını deməyə əsas verir.

**Məsələ ilə bağlı "XQ"-yə açıqlama verən Qafqaz Tarixi Mərkəzinin direktoru, hərbi-siyasi şərhçi Rizvan Hüseynov bildirdi ki,** Ermənistan–Azərbaycan



şərti sərhədində atəşkəsin pozulması və təxribatların baş verməsi artıq adi hala çevrilib. Onun sözlərinə görə, hərbi ekspertlərin atəşkəsin pozulacağı və təxribatların olacağı ilə bağlı bir müddət öncə verdikləri proqnozlar özünü doğrultmaqdadır: "Təxribatların baş verməsi üçün, necə deyərlər, əsaslar var. Çünki rəsmi İrəvanın son vaxtlar yürütdüyü siyasi kurs regiona yeni oyunçuların cəlb olunmasına xidmət edir. Ermənistan Qərb ölkələrinin regionda maraqlarının təmin olunması üçün, belə deyək, dəridən-qabıqdan çıxır. Halbuki, "3+3" formatı regionda bütün məsələlərin həlli üçün ən əlverişli platformadır. Fransa və ABŞ-nin bölgədə aktivləşməsi isə Ermənistanın yeni havadarlar axtarışına çıxmasının nəticəsidir".

Ekspert qeyd etdi ki, belə davam edərsə, Cənubi Qafqazda təhlükəli proseslərin baş verəcəyini gözləmək olar. Hazırda Suriya və Ukraynada cərəyan edən hadisələrin günün birində Ermənistanda yaşanması da istisna deyil. Regiondakı kövrək təhlükəsizlik arxitekturasını dağıdan İrəvanın siyasəti bölgədə təhlükəli proseslərin baş



verməsinə şərait yaradır: "Rəsmi İrəvanın mövqeyi üzündən Ermənistanla Azərbaycan arasında sülh və dövlətlərarası münasibətlərin qurulmasına dair saziş layihəsini imzalamaq hələ də mümkün olmayıb. Belə olan təqdirdə biz, ölkəmizin Ermənistanla müharibə şəraitində olduğunu deyə bilərik. Azərbaycan üçün təhlükə Ermənistanın silahlandırılmasıdır. Qarşı tərəfin silahlandırılması diqqətimizdən yayına bilməz və ölkəmizdə haqlı olaraq təhlükəsizliklə bağlı qayğıların yaranmasına səbəb olur. Bu gün Ermənistanın mövqeyi revanşist, sülhdənqaçma mövqeyidir. Bütün bunlar hansısa məqsədlər naminə edilir".

R.Hüseynov təxribatların sayının artacağını da istisna etmir. Çünki bu, Ermənistanın havadarları üçün əlverişli şəraitin yaranması deməkdir. O mənada ki, Bakı İrəvanın təxribatlarına cavab olaraq qəti addımlar atacaq. Bu addımlar bəlkə də cavab addımları yox, daha böyük təxribatların qarşısını almaq üçün gələcəkdə hansısa tədbirlərin görülməsi olacaq. Bunlar sərhədyanı bölgədə yaşayan mülki əhalinin təhlükəsizliyini təmin etmək üçün tələb olunan hansısa zəruri addımlar ola bilər. Belə olan təqdirdə, regionda arzuolunmaz ölkələr Ermənistanın təhlükəsizliyini təmin etmək adı altında beynəlxalq institutları hərəkətə gətirərək, onların çıxaracaqları qərarları hüquqi sənəd hesab edib bölgədə öz maraqlarını genişləndirməyə çalışa bilərlər. Beynəlxalq institutlar deyərkən, sözsüz ki, ikili standartlarla fəaliyyət göstərən, obyektiv olmayan və bir çox hallarda böyük dövlətlərin maraqlarına uyğun, onların sifarişləri əsasında qərarlar çıxaran təşkilatları nəzərdə tuturuq. Ermənistanın təxribatlar törətməsi havadarlarının ona hazırladığı ssenarilər əsasında baş tutur. Bu kimi halların qarşıdakı dövrdə də baş verməsi mümkündür.

Müsahibimiz qarşı tərəfin sonuncu atəşkəs pozuntusu ilə bağlı inkarçı mövqe tutmasının onlara xas yanaşma olduğunu da vurğuladı: "Onlar atəşkəsi pozduqlarını nə vaxt etiraf ediblər ki?! Ermənistan nə törətdiyi cinayətləri, nə də atəşkəsi pozmasını heç vaxt etiraf etməyib. Biz onların bu cür manipulyasiyalarla məşğul olduğunu uzun illərdir ki, görməkdəyik. Qarşı tərəf indi də atəşkəsi pozduğunu boynundan atır və Azərbaycana məqsədi, məramı bilinməyən, aydın fəaliyyət planı olmayan hansısa məchul birgə ikitərəfli mexanizm yaratmağı təklif edir. Atəşkəsi pozmaqda Azərbaycanın heç bir məqsədi və niyyəti ola bilməz. Ölkəmiz hər zaman yalnız cavab tədbirləri görüb".

Onu da bildirək ki, regionda cərəyan edən bütün hadisələr Azərbaycanda diqqətlə izlənilir və müvafiq nəticələr çıxarılır. Prezident İlham Əliyevin sentyabrın 23-də yeddinci çağırış Milli Məclisin ilk iclasındakı nitqində hərbi sahənin, hərbi sənaye kompleksinin inkişafının və sərhədlərimizin təhlükəsizliyinin təmin edilməsinin başlıca vəzifələr kimi müəyyən edilməsi proseslərin diqqətlə izlənilməsindən və nəticə çıxarılmasından irəli gəlir. Dövlətimizin başçısı bildirdi ki, dünyada gedən proseslər, Ermənistanda revanşizm meylləri bu sahəyə daim diqqət göstərilməsini, hərbi gücümüzün artırılmasını zəruri edir. Ölkəmizin Silahlı Qüvvələri, eləcə də digər güc strukturları ərazi bütövlüyümüzü və suverenliyimizi müdafiə etmək üçün lazımi tədbirlər görməkdədirlər.

Sentyabrın 28-də isə Müdafiə Nazirliyi Naxçıvanda yerləşən Əlahiddə Ümumqoşun Ordunun xüsusi təyinatlı bölmələri ilə "Gecə şəraitində düşmən obyektinə qəfil basqın" mövzusunda taktiki-xüsusi təlim keçirildiyinə dair məlumat yaydı. Məlumatda qeyd edilib ki, plana əsasən, icra olunacaq fəaliyyətlər xəritə üzərində dəqiqləşdirilib. Xüsusi təyinatlılar məhdudgörmə şəraitində şərti düşmənin dərinliyinə sızaraq pusqu, basqın və müxtəlif təlim-döyüş tapşırıqlarını yerinə yetiriblər. Vaxt normativinə uyğun təyin olunan yüksəklik xüsusi təyinatlılar tərəfindən ələ keçirilib, dairəvi mühafizə və müdafiənin təşkili ilə növbəti hakim yüksəkliyin tutulması üçün mobil qruplar fəaliyyətini davam etdirib. Təlim zamanı təminat-təxliyə qrupları tərəfindən yaralıların təxliyəsi və sursat təminatının çatdırılması da praktiki şəkildə məşq etdirilib. Azərbaycan Ordusunun son dövrlərdə apardığı uğurlu döyüş əməliyyatlarında qazanılan təcrübənin tətbiq edildiyi taktiki-xüsusi təlimdə verilən tapşırıqlar yüksək peşəkarlıq və səriştə ilə yerinə yetirilərək qarşıya qoyulmuş məqsədlərə tam nail olunub.

Zənnimizcə, belə bir təlimin keçirilməsi son vaxtlar silahlanmaya xüsusi diqqət yetirən və Naxçıvan istiqamətində təxribatlarının sayını artıran Ermənistana tutarlı cavab sayıla bilər. Ermənistan hakimiyyəti bilməlidir ki, Naxçıvan istiqamətində təxribatlarını davam etdirmək ona baha başa gələcək. Ümumiyyətlə, hazırda dünyanın ən güclü 50 ordusu sırasında olan ordumuz Vətən müharibəsindən sonra gücünü, döyüş qabiliyyətini daha da yüksəldib. Ötən müddət ərzində yeni silahlı birləşmələr, o cümlədən, Komando Qüvvələri yaradılıb, Xüsusi Təyinatlı Qüvvələrin sayı bir neçə dəfə artırılıb. Ordumuzun döyüş qabiliyyəti artır, texnika ilə təchizat lazımi səviyyədə təmin edilir və təmin olunacaqdır. Ermənistan və onun arxasında duran istənilən ölkə bilməlidir ki, Azərbaycanla şantaj və ultimatum dili ilə danışmaq mümkün deyil. İstənilən cavabı verməyə qadirik və hər zaman buna hazır olmalıyıq. Əgər Azərbaycana real təhdid olarsa, o təhdidi istənilən ərazidə məhv etmək böyük çətinlik yaratmayacaq. Şərti sərhəddə təxribatların sayını artıran rəsmi İrəvan bunu yaxşı yadda saxlamalıdır.

***Səxavət HƏMİD***
***XQ***

# İrəvanın ABŞ-də seçkilərdən gözləntiləri

**Ermənilər yenə ümidlidirlər. Düşünürlər ki, demokratların prezidentliyə namizədi Kamala Harris Ağ Evə gələndən sonra problemlərini həll etməkdə Ermənistana yardım göstərəcək. ABŞ-nin vitse-prezidentinin erməni diasporuna göndərdiyi son təbrik məktubunda yazdıqları hayları okeanın o tayına həsrətlə boylanmağa vadar edir. İrəvanda ümid edirlər ki, seçkidə qalib gələn namizədin fəaliyyət planında erməni məsələsi ön sıralarda yer alacaq. Amma ötən prezident seçkilərinin tarixçəsi göstərir ki, Ağ Evə gələn yeni prezidentin addımları Ermənistanın arzuladığı kimi olmur. Erməni politoloqları da sıravi ermənilərə ABŞ-də keçiriləcək prezident seçkilərinə böyük ümid bağlamamağı məsləhət görürlər.**



Bildiyiniz kimi, anası hindistanlı, atası yamaykalı olan ABŞ-nin vitse-prezidenti Kamala Harris ermənipərəst mövqeyi ilə tanınır. Xatırladaq ki, o, siyasi karyerasının əvvəlində 1915-ci il hadisələrinin "erməni soyqırımı" kimi tanınmasını dəstəkləmişdi. Biz də onun 2016-cı ildə dediyi "Mən bəşər tarixinin ən qaranlıq dövrlərindən birini tanımaq üçün Senatda erməni icmasının yanında olacağam..." sözlərini unutmadıq. Dörd il sonra Harris ABŞ Senatında 1915-ci il hadisələrinin "erməni soyqırımı" kimi tanınmasına dair qanun layihəsini dəstəkləmişdi.

Əlbəttə, digər demokratlar kimi, Kamala Harris də ermənipərəst mövqeyini nümayiş etdirəcək, seçkilərdə ABŞ-dəki erməni lobbisinin səslərindən və imkanlarından yararlanmağa çalışacaq. Ancaq prezident seçilsə belə, bu, ABŞ-Ermənistan münasibətlərinə ciddi təsir göstərməyəcək. K.Harrisin hakimiyyətə gələndən sonra da Bayden administrasiyasının siyasətini davam etdirəcək. Çünki ABŞ-nin maraqları fərqli mövqe nümayiş etdirməyə imkan vermir. Ötən illərin təcrübəsi də göstərir ki, seçilmiş prezidentlər namizəd olarkən ermənilərə verilən bütün vədləri yerinə yetirmirlər.

Bu fikri erməni politoloqları da təsdiqləyirlər. Məsələn, Strateji Araşdırmalar və Təşəbbüslər üzrə Analitik Mərkəzin təşkil etdiyi "ABŞ-də seçkilər və onların postsovet məkanına təsiri" adlı dəyirmi masada politoloq və amerikaşünas Suren Sarkisyan bildirib ki, ABŞ-də keçirilən prezident seçkilərinin nəticəsindən asılı olmayaraq, həm Donald Trampın, həm də Kamala Harrisin qələbəsi Ermənistan üçün rahat olmayacaq. Politoloq qeyd edir ki, Ermənistan müstəqillik əldə etdikdən sonra ilk fürsətdə ABŞ diplomatiyası ölkədə güclənib: "Xüsusilə Bill Klinton administrasiyası Dağlıq Qarabağ və Ermənistan–Türkiyə münasibətləri məsələsində Ermənistanın birinci prezidenti Levon Ter-Petrosyanı fəal dəstəkləyirdi. Ermənistanla iş Robert Köçəryanın dövründə də həyata keçirilirdi". Ekspert hesab edir ki, ABŞ Serj Sarkisyanın dövründə də İrəvanla fəal işləyib.

Bununla belə, erməni politoloq etiraf edir ki, Donald Tramp administrasiyası praktiki olaraq Ermənistanla maraqlanmadı, çünki ABŞ-nin digər regionlarda xarici siyasət prioritetləri var idi. Hətta yüksək səviyyəli əlaqələr də yox idi. Tramp administrasiyası ilə yeganə əlaqə Ermənistanda inqilabdan bir neçə ay əvvəl vitse-prezident Maykl Penslə Serj Sarkisyan arasında telefon danışığı olub. Politoloqun müşahidələrinə görə, İkinci Qarabağ müharibəsindən sonrakı dövrdə (2020) Qərb qüvvələri yenidən bölgədə xeyli fəallaşıb. O, bunu iki amillə əlaqələndirir: "Birincisi, Rusiyanın diqqəti Ukraynadadır, buna görə də, "müqəddəs yer heç vaxt boş qalmır", ikincisi, amerikalılar görürlər ki, Ermənistan hökuməti Türkiyə və Azərbaycana hər cür güzəştə getməyə hazırdır".

Politoloq Sarkisyan Kamala Harrisin Amerikanın erməni icmasına müraciət etdiyi son məktubuna toxunaraq, bunun sadəcə seçkiqabağı bir hərəkət olduğunu və ABŞ-nin xarici siyasətinə təsir edəcəyi ehtimalı olmadığını bildirir. Eyni zamanda, erməni politoloqun fikrincə, Vaşinqton fəaliyyətində ABŞ-Ermənistan əlaqələrini yox, regional gündəliyi rəhbər tutur. S.Sarkisyan xatırladır ki, Co Bayden administrasiyası ilə Nikol Paşinyan arasında yüksək səviyyəli təmaslar - telefon danışığı və ya ABŞ prezidenti ilə görüş olmayıb. Politoloq hesab edir ki, bu, bir daha ABŞ-nin regional gündəmini vurğulayır, o, ilk növbədə Ermənistanla münasibətlərin inkişafında yox, Rusiyanın Cənubi Qafqazdakı təsirinin zəifləməsində maraqlıdır.

S.Sarkisyan fikrini belə yekunlaşdırır ki, Ermənistan ABŞ prezidentliyinə hər iki namizədlə bağlı özünü aldatmamalıdır: "Bilmirəm, Bayden kimi Ermənistanla fəal məşğul olmaq, yoxsa Tramp kimi passiv qalmaq yaxşıdır. İstənilən halda Trampın vaxtında biz Qarabağı itirdik, Baydenon zamanında isə "olan oldu". Ona görə də, prinsipcə, bu plan da bizə rahat olmayacaq".

Düz sözə nə deyəsən? Ermənilər hələ də okeanın o tayına ümid edirlər. "Bəlkə kömək etdilər" ümidilə yaşayırlar. Ancaq hər seçkidən sonra məyus olurlar. Halbuki güclü xalq ancaq özünə güvənər, qonşuları ilə münasibətlərini özü yoluna qoyar, xaricdən kömək gözləməz. Nə etmək olar? Hayların xisləti belədir, başqalarının arxasında gizlənərək xəyali dünyalarını yaratmağa çalışırlar. Yəqin real dünyada yox, qurama aləmlərində daha xoşbəxtdirlər.

***S.ELAY***
***XQ***

# Ermənistan təzminat ödəməlidir!



**(əvvəli 1-ci səhifədə)**

Şiff və həmfikirləri Azərbaycanın suveren aktivlərinə sahib olan bütün ABŞ maliyyə institutlarından bu aktivlər barədə ABŞ Xəzinədarlığının Xarici Aktivlərə Nəzarət Ofisinə məlumat verilməsini tələb ediblər. Qanunun qəbulundan sonra 60 gün ərzində ABŞ Prezidenti bu aktivlərlə aparılan əməliyyatları bloklamalı, blokdan sonra isə 90 gün ərzində onlara həbs qoymalıdır. Layihədə "Artsax gəlirlərinin bərpası fondu"nun yaradılması nəzərdə tutulub. Bu fond Azərbaycanın müsadirə edilmiş aktivlərini alacaq və daha sonra həmin vəsaitləri Azərbaycanın "hərbi hücumu" nəticəsində əmlakını, biznesini və iş yerlərini itirmiş "Artsaxdan didərgin düşmüş" ermənilərə kompensasiya vermək üçün istifadə edəcək. ABŞ-dəki şəxsi aktivləri ələ keçirmək və "Artsaxa hərbi hücumda" iştirak etmiş və ya dəstək vermiş yüksək rütbəli Azərbaycan nümayəndələrinə və onların yaxın ailə üzvlərinə viza məhdudiyyətləri tətbiq etmək də layihədə yer alıb. Həmçinin "köçkün ermənilərin" fonddan təzminat almaq üçün müraciət etməsinə imkan verən sadələşdirilmiş prosesin yaradılması təklif olunub.

"Artsax gəlirlərinin bərpası aktı"nı Frank Pallone, Anna Eşo, Set Maqaziner, Ceyms Makqovern, Qreys Napolitano, Linda Sançez, Dina Titus kimi erməni sevdalısı konqresmenlər, ümumilikdə, 18 konqresmen dəstəkləyib. Onların böyük əksəriyyəti A.Şiff kimi Demokratlar Partiyasının üzvüdür. Təbii ki, bu, konqresmenlərin özfəaliyyətinin nəticəsi deyil, onlar Co Bayden Administrasiyasının təlimatları əsasında bu təşəbbüsləri irəli sürürlər. Yəni bu oyunların arxasında Bayden administrasiyası dayanır.



***(ardı 9-cu səhifədə)***

# Tarixin dəyişən dinamikası 3 amilin prizmasında

## *Türk Dövlətləri Təşkilatı və qlobal geosiyasət*

**Tarix fəal liderləri sevir və qəbul edir. Dünya təcrübəsi də bunu təsdiqləyir. Lakin bununla yanaşı, tarixin sevdiyi başqa keyfiyyət də var – ədalətli olmalısan. Eyni zamanda, çalışqan, qətiyyətli və əzmkar olmalısan. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın BMT-nin yüksək tribunasından söylədiyi möhtəşəm nitqin işığında bir məqam bizim üçün daha çox əhəmiyyətli oldu. Qardaş dövlətin başçısı bəyan etdi ki, Türk Dövlətləri Təşkilatı irəliləyir, güclənir və bu, çox təqdirəlayiq prosesdir!**

Məlumdur olduğu kimi, prezident İlham Əliyev siyasi-diplomatik addımları və məharətli aparıcılığı ilə TDT-nin güclənməsini regional, regionlararası və qlobal geosiyasətin sivil normaları müstəvisində ardıcıl şəkildə həyata keçirir. Azərbaycan liderinin Bakıda qəbul etdiyi siyasi liderlərlə müzakirəsi, türk dövlətlərinə şəxsi ziyarəti zamanı apardığı danışıqlar və onların nəticələri TDT üçün olduqca əhəmiyyətlidir. Həmin dövlətlər sırasında TDT-yə üzv olmayan böyük güclər də vardır. Nümunə olaraq Avropanın bir sıra dövlətlərini, Çin, Rusiya, Misir və Pakistanı göstərə bilərik. Bu səfərlərin hər birində üç faktor aparıcılıq təşkil edir.

Birincisi, təhlükəsizliklə bağlıdır. İlham Əliyev geniş geosiyasi məkanda bir çox dövlətlərin enerji təhlükəsizliyini onların milli təhlükəsizliyinin təmini şərtlərindən biri kimi vahid şəbəkədə birləşdirə bilmişdir. Burada “vahid təhlükəsizlik şəbəkəsi” anlayışı olduqca önəmlidir. Çünki bu, milli, regional, regionlararası və qlobal miqyaslarda enerji təhlükəsiliziyi ilə milli



təhlükəsizliyin sıx əlaqəsini qura bilmişdir. Yəni Azərbaycanın siyasətində regionlararası və qlobal kontekstin artıq oturuşmuş və dinamik işlək sistem halına gəldiyini göstərir. Onun birbaşa təsiri qlobal geosiyasi dinamikayadır.

İkincisi, Azərbaycan Prezidentinin siyasi-diplomatik addımlarında TDT-nin güclənməsi faktoru fəaliyyətin təməl prinsiplərindən biri statusunu almışdır. Yəni hər bir siyasi-diplomatik addımın faydaları sırasında TDT faktoru xüsusi yer tutur. Bunu Prezidentin Rusiya və Pakistan rəhbərliyi ilə apardığı müzakirələrdə və ayrıca, Mərkəzi Asiya dövlətləri başçıları ilə danışıqlarında görmək mümkündür. Xüsusi olaraq, Avropa istiqamətində TDT üzvü olan ölkələrin enerji resurslarının nəqli məsələsi yer tutur.

Üçüncüsü, dövlət başçımız qlobal miqyasda ksenofobiyaya və yeni müstəmləkəçiliyə qarşı mübarizədə növbəti fəallıq nümayiş etdirir. İlham Əliyev bir sıra Qərb dövlətlərinin indi də həyata keçirdiyi müstəmləkə siyasətini kəskin tənqid edir və istismar edilən bir sıra dövlətlərə azadlıqları uğrunda mübarizədə dəstək olur. Bu məqam Azərbaycanın xarici siyasətdə faktiki olaraq yeni keyfiyyət mərhələsinə qədəm qoyduğunu və həmin kontekstdə də TDT-nin qlobal geosiyasətdə real aktor statusuna yüksəlməsinə töhfə verdiyini ifadə etməkdədir.

Vurğuladığımız bu üç faktorun işığında R.T.Ərdoğanın BMT tribunasından bəyan etdiyi TDT məsələsi bir sıra məqamların gündəmə gəlməsini əks etdirir.

### Qlobal geosiyasətdə qüvvələr nisbəti dəyişir

Türkiyə Prezidentinin BMT-dəki nitqini alqışlayanlar çox oldu. Səbəbi sadədir. R.T.Ərdoğan faktiki olaraq qlobal geosiyasətin “yeni nəfəsi” kontekstində mövqe nümayiş etdirdi. Türkiyə rəhbəri dünyanın daha ədalətli, rasional, konstruktiv və perspektvili humanitar siyasətə layiq olduğunu bəyan elədi. Bu bağlılıqda sadəcə “dünya beşdən böyükdür” formulunu qəbul etmək artıq yetərli deyildir. İndi bütün müstəqil dövlətlərin praktiki fəaliyyətləri ilə qlobal geosiyasi mənzərəni yeniləşdirməsi zamanıdır. Həmin anlamda “qlobal Şimal–qlobal Cənub” dixotomiyasının da məzmununun və münasibətlərinin yeniləşməsi lazımdır. Konkret olaraq – yeni təsirli güc mərkəzi meydana çıxmalıdır.

Bu prosesi təmin edə biləcək qüvvələr indi mövcuddur. Məsələn, Qoşulmama Hərəkatı, Avrasiyada formalaşan yeni geosiyasi konfiqurasiya kimi Rusiya–Çin–TDT əməkdaşlıq platforması və s. R.T.Ərdoğan hesab edir ki, bu prosesin daha da inkişaf etməsi sayəsində dünyada ədalətli geosiyasi balans şansı yaranmışdır. Bəşəriyyət bu imkanı əldən verməməlidir.

Bu nikbin və perspektivli yanaşmanın fonunda iki əlamət də BMT-nin siyasi gündəminə damğasını vurmuşdur.

### Fransa: “Azərbaycana güzəştə getməyəcəyik”

E.Makron BMT tribunasından Avropanın qosqoca bir dövlətinin siyasi çöküşünü əks etdirən nitq söylədi. Qonşu dövlətin (bu dövlətin dini mənsubluğunun BMT normalarına görə fərqi yoxdur) torpaqlarını 30 il işğal altında saxlayan cırtdan Ermənistan dövlətini müdafiə etməyə çağırdı. Özü də təcavüzə məruz qalmış Azərbaycanın cəmi 44 günə Fransa da daxil olmaqla, erməni havadarlarının dəstəklədiyi Ermənistan ordusunu darmadağın etməklə regional geosiyasi mənzərəni yeniləşdirməsi fonunda bu cəfəng fikri ortaya atdı. Aydın görünür ki, E.Makron dünyanı işğalçını, təcavüzkarı, onun müstəqil dövlətlərə olan ərazi iddiasını dəstəkləməyə səsləyir. Ardınca da utanmadan Ukraynanın ərazi bütövlüyünü təmin etmənin zəruriliyindən dəm vurur. Eyni zamanda, lideri olduğu Fransa müstəmləkə altında saxladığı ölkələrin sərvətini talamaqda davam edir.

Bütün bunların fonunda Fransanın yeni xarici işlər naziri çox haqsız, antidemokratik və hüquqa zidd fikir söyləyir: “Azərbaycana güzəştə getməyəciyik!” Əcəba, nəyi güzəştə getməyəcəksən? Azərbaycanın sənin daxili işinə aid olan məsələlərdə istədiyi bir şey varmı? Rəsmi Bakı iki faktoru qabardır: birincisi, Fransa Ermənistanla münasibətlərin normallaşmasında qeyri-konstruktiv, pozucu, aravurucu və bu mənada şeytani mövqe tutmasın! Azərbaycanla Ermənistanın özləri aralarından Fransasız hər şeyi yoluna qoyurlar və bu, davam edəcək. İkincisi, XXI əsrdə tirbunalardan demokratiyadan, beynəlxalq hüquqdan, ədalətdən, insan haqlarından danışan bir dövlət (Fransa və ona bənzərlər), əslində bir sıra ölkələrdə müstəmləkə siyasəti yeridirlərsə, bu, qəbuledilməzdir, riyakarlıqdır!

Hər iki aspektdə də rəsmi Bakı haqlıdır, ədalətlidir və humanistdir.

### Türkiyə: “Daha ədalətli dünya uğrunda”

E.Makronun köhnə və pozucu geosiyasi düşərgənin təmsilçisi kimi çərənlədiyi zamanda Türkiyə Prezidenti R.T.Ərdoğan Ermənistanın baş naziri Nikol Paşinyanı Nyu-Yorkdakı “Türk Evi”ndə qəbul etdi və ona daha ədalətli olmağın mümkünlüyün ifadə edən kitab bağışladı. Bu jest bütövlükdə dünya siyasətində olan haqsızlığa, ədalətsizliyə və pozuculuğa deyil, əməkdaşlığa, təhlükəsizliyə xidmət edən mövqe tutmağa çağırış idi. Və Fransa rəhbərliyinin qarışdırıcı, aravurucu mövqeyi fonunda çox möhtəşəm təsir bağışladı. Xüsusilə, N.Paşinyanın uşaq kimi sevindiyini əks etdirən fotosu fonunda çoxmənalı bir görüntü yarandı! Belə təəssürat formalaşır ki, hətta N.Paşinyan E.Makrondan ağıllıdır!

Bu iki məzmun və məqsəddə əks olan mövqenin fonunda TDT məsələsi R.T.Ərdoğanın təqdimatında çox əhəmiyyətli təsir bağışlayır.

### Azərbaycan aparıcı konstruktiv qüvvə kimi

Türkiyə Prezidentinin Türk Dövlətləri Təşkilatının gücləndiyini bəyan etməsi (bunun təməlində R.T.Ərdoğanın TDT-nin gücləndiyini real fakt kimi qəbul etməsi dayanır) Azərbaycan Prezidentinin bu istiqamətdə həyata keçirdiyi fəal siyasəti qəbul etməsi və dəstəkləməsi anlamına gəlir. Məsələ onunla bağlıdır ki, Prezident İlham Əliyev regional, regionlararası və qlobal miqyaslarda elə gerçəkçi gedişlər etmişdir ki, onların yekun geosiyasi təsiri artıq qlobal miqyasda yeni fakt kimi qəbul edilir!

Məsələ heç də TDT çərçivəsi ilə məhdudlaşmır. Çünki İlham Əliyev dünyanın böyük güclərinin, əsas geosiyasi qütblərinin aparıcı dövlətləri ilə münasibətlərin inkişafı kontekstində TDT-ni uğurla təmsil edir. Rusiya prezidentinin Bakıya səfəri, ABŞ-nin dövlət katibinin bir neçə dəfə Prezident İlham Əliyevə telefon etməsi, Azərbaycan rəhbərinin Çinlə strateji tərəfdaşlığa hazırlıqla bağlı sənəd imzalaması, Prezident İlhma Əliyevin çox səmərəli Pakistan, Misir, Qazaxıstan, Özbəkistan səfərləri vurğulanan tezisi irəli sürməyə tam əsas verir.

Bütün bunlar artır müstəqil Azərbaycan Respublikasının regional lider kimi regionlararası və qlobal miqyasda sayılan qüvvələrdən biri səviyyəsinə yüksəldiyini təsdiqləyir. Bundan başqa, həmin prosesin Azərbaycanın TDT-nin aparıcı üzvü kimi olduqca faydaverici siyasət yeritdiyini ifadə etdiyinə şübhə yoxdur. İndi Azərbaycan geniş bir geosiyasi məkanda aktiv konstruktiv güc kimi dünya siyasətində yerini möhkəmlətməkdədir!

### BMT dilemma qarşısında

BMT-nin son iclasında söylənən bir sıra fikirlərin qısa olaraq təhlili, qlobal dünya üçün əhəmiyyətli olan bir gerçəkliyi də ortaya qoyur. Məsələ Birləşmiş Millətlər Təşkilatının bir qurum olaraq gələcək taleyi ilə bağlıdır. Gedişat onu göstərir ki, keçən əsrin 80-ci illərindən başlayaraq getdikcə güclənən ədalətsizliyə, hüquqsuzluğa və təhlükəli proseslərə qarşı BMT tələb olunan səviyyədə əngəl ola bilmir. Bu barədə ulu öndər Heydər Əliyevin 1994-cü il və 1995-ci illərdə BMT-nin yüksək tribunasında ifadə etdiyi fikirlərində nə qədər haqlı olduğu indi də təsdiqini tapır. Həmin tədbirlərdə Heydər Əliyev BMT TŞ-də islahatların zəruriliyini vurğulamışdı və dünyanın böyük güclərinin ədalətli mövqe tutmalı olduğunu xüsusi qeyd etmişdi. Əks halda, dünyanın daha riskli bir vəziyyətə keçəcəyi barədə xəbərdarlıq etmişdi. Budur, hətta XXI əsrdə bir sıra böyük dövlətlər təcavüzü, istismarı, müstəmləkəni dəstəkləyirlər!

Bununla yanaşı, BMT onu da gördü ki, mövcud haqsızlıq, hüquqsuzluq və ədalətsizliklə mübarizə apara biləcək yeni geosiyasi güc formalaşmaqdadır. Həmin güc ənənəvi Şimal–Cənub geosiyasi qarşıdurmasını dəyişə bilər, ortaq konstruktiv bir ab-hava yarada bilər. Bu yeni gücdə Türk Dövlətləri Təşkilatının öz yeri və rolu vardır. Onun stimulverici, istiqamətləndirici və siyasi baxımdan məzmunlaşdırıcı gücü isə Azərbaycan Respublikasıdır!

İndi seçim BMT-dir: ya köhnə, pozucu geosiyasi xəttə, ya da yeni konstruktiv mövqeli geosiyasi düşərgəyə üstünlük verilməlidir! Topu BMT-yə ötürdülər!

**Füzuli QURBANOV,**
**XQ-nin analitiki,**
**fəlsəfə elmləri doktoru**

---

**İnformasiya savaşı**

**(əvvəli 1-ci səhifədə)**

# Azərbaycana qarşı dezinformasiyalar dünyaya Ermənistandan ötürülür

Amma Ermənistan hökumət başçısının media subyektlərinə verdiyi bu açıqlamalarla onun gerçək fəaliyyəti arasında uyğunsuzluq görünür. Nikol Paşinyan iki ölkə arasında sülhün bağlanılması üçün zəruri olan gerçək addımları atmır. Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev jurnalistlərə müsahibəsində deyib ki, əgər İrəvan gerçəkdən sülh müqaviləsinə nail olmaq istəyirsə, referendum yolu ilə Ermənistan konstitusiyasında zəruri olan dəyişiklikləri həyata keçirməli, erməni xalqının bu mövzuda mövqeyini ifadə etməlidir: “Erməni xalqı Qarabağın Ermənistana birləşdirilməsi kimi utopik iddialarına son qoyduğunu, Azərbaycanla sülh şəraitində yaşamaq niyyətini konstitusio-



*Müşfiq ƏLƏSGƏRLİ,*
*XQ-nin media eksperti*

nal əsasda ifadə etməlidir. Ermənistanın bu yöndə təkliflərimizə 70 gün ərzində cavab verməməsi özlüyündə suallar doğurur.”

Ermənistan tərəfi sülh müqaviləsi imzalamaqdan yayındığını təkcə konstitusiya referendumunu gecikdirməklə deyil, həm də sürətli formada silahlanmaqla büruzə verir. O, yeni müharibəyə hazırlıq görür. Məsələn, Fransanın müdafiə naziri Sebastyan Lekornun ermənistanlı həmkarı Suren Papikyanla görüşləri son 2 il ərzində intensiv xarakter alıb. Baş nazir Nikol Paşinyanın prezident Emmanuel Makronla təmasları da eyni tezlikdə davam edib. 2024-cü il fevralın 23-də iki ölkə arasında hərbi əməkdaşlıq haqqında müqavilə imzalanıb. Müqaviləyə əsasən, Fransa Ermənistanı təkcə müdafiə qurğuları ilə deyil, həm də müasir hücum silahları ilə təmin edəcək. Yəni Fransa öz müttəfiqini hərbi baxımdan qüdrətli dövlətə çevirməyi qarşıya məqsəd qoyub.

Yunanıstan və Hindistan da Ermənistanın Cənubi Qafqazda hərbi baxımdan üstün dövlətə çevrilməsi prosesində fəallıq göstərirlər. Yunanıstanın Milli müdafiə naziri Nikolaos Dendias 2024-cü il martın 4-də Ermənistana səfər edib. İki ölkə arasında hərbi əməkdaşlıq məsələləri müzakirə olunaraq, qarşılıqlı yardım üçün razılaşmalar əldə edilib. Hindistan isə Ermənistana 245 milyon dollar dəyərində silah tədarük etmək üçün öhdəlik götürüb. Strateji əhəmiyyət kəsb edən ixrac mallarının Ermənistana daşınması üçün xüsusi hava dəhlizi yaradıb.

2024-cü il iyulun 23-də Avropa İttifaqı Şurası “Avropa Sülh Fondu” çərçivəsində Ermənistanın müdafiə qabiliyyətinin artırılması üçün 10 milyon avro məbləğində yardım göstərilməsinə qərar verib.

Bu və digər faktları uyğunlaşdırıb təhlil edəndə belə nəticə çıxır ki, Ermənistanın ətrafında yeni hərbi alyans formalaşdırılır. Ermənistanda revanşizm meyillərinin artmasına, yenidən təcavüzkar siyasət həyata keçirməsinə təkan verilir. Fransa başda olmaqla bir sıra digər dövlətlərin verdikləri dəstək nəticəsində Ermənistan Cənubi Qafqazda neokolonolist siyasəti icra edəcək güc mərkəzi halına gətirilir. Təbii ki, bu xidmətinin qarşılığında öz ambisiyalarının təmin edilməsi üçün də zəmanət alır. Sinxron şəkildə Azərbaycana qarşı revanşist hərəkətlənmə müşahidə olunur.

Amma bütün bunlar beynəlxalq ictimai rəyə fərqli formada təqdim edilir. Cənubi Qafqazı geosiyasi oyunlara cəlb edən ABŞ və Qərb mərkəzləri tərəfindən Ermənistan hərbiləşən, qisasçılıq ruhu ilə yaşayan, regionda yeni münaqişələr planlaşdıran dövlət kimi deyil, “zərərçəkən ölkə” kimi təqdim olunur. Elə rəy yaradırlar ki, guya, Azərbaycan Ermənistan ərazilərini işğal etməyə hazırlaşır. Qərb mərkəzləri Ermənistanı təcavüzə məruz qalan, Azərbaycanı isə işğala hazırlaşan dövlət kimi təqdim edirlər.

Həm Ermənistan, həm də Qərb mediası bu sahədə planlı və sinxron şəkildə təbliğat aparır, beynəlxalq rəyi çaşdıran tezislər yayırlar. Xüsusilə ABŞ media şəbəkəsi bu təbliğatın önündə görünür. Məsələn, ABŞ-nin Cənubi Qafqaz üzrə ixtisaslaşmış təbliğat qurumlarından olan “JAMnews” 2024-cü il fevralın 2-də yaydığı məqaləyə belə başlıq qoyub: “Paşinyan sülh axtarır, Azərbaycan isə müharibəyə hazırlaşır.”

Diqqət yetirsək görərik ki, “Amerikanın səsi”, “Azadlıq Radiosu”, “OC Media” və bu sırada dayanan digər ABŞ kütləvi informasiya vasitələri, habelə, “France-24” TV, “Le-Monde” və başqaları qərəzli şəkildə yaydıqları dezinformasiyalarla haqsız olaraq Azərbaycanın təcavüzkar obrazını yaratmağa çalışırlar.

2024-cü il iyulun 18-də “Avropa Siyasi İcması”nın Londonda keçirilən tədbiri çərçivəsində Ermənistanla Azərbaycan arasında görüşün keçirilməsinə təşəbbüs göstərildi. Tədbirə evsahibliyi edən Böyük Britaniya bu təşəbbüsü “Münxen Təhlükəsizlik Konfransı”nda Azərbaycan Prezidenti ilə Ermənistan baş naziri arasında baş tutmuş görüş formatının davamı kimi gündəmə gətirdi. Ermənistan baş naziri Nikol Paşinyan bu görüşdən birtərəfli qaydada imtina etməklə, sülh danışıqlarından yayındığını rəsmən büruzə verdi. Buna rəğmən, Ermənistan mediası görüşün baş tutmamasına görə Azərbaycan tərəfini günahlandırmağa çalışdı. Fransa və ABŞ KİV də “erməni şəbəkəsi”nin təbliğatına qoşulub Azərbaycanı haqsız çıxarmağa çalışdılar.

Mediada İnnovativ Təşəbbüslərə Dəstək İctimai Birliyinin (MİTD İB) Ermənistan mediası üzərində apardığı 5 aylıq monitorinqin nəticələri göstərir ki, bu ölkənin media vasitələri sülhyaratma prosesinin əleyhinə çalışırlar. Onlar öz cəmiyyətlərində sülhə meyil yaradılmasına deyil, əksinə, ölkənin hərbi-siyasi rəhbərliyinin yalanlarını tirajlamağa, qisasçılıq hissinin artırılmasına stimul verirlər. Belə davranış təkcə Ermənistanın “sülh istəkləri”nə deyil, həm də media üzrə beynəlxalq prinsiplərə ziddir. Beynəlxalq statuslu Free Press Unlimited təşkilatının hazırladığı “Sülh quruculuğu və media” adlı hesabatda, həmçinin “Deutsche Welle”in Almaniya Jurnalistlər Birliyi (VERDİ) ilə birgə hazırladığı “Media və münaqişə hesabatı”nda göstərilir ki, münaqişə tərəfi olmuş icmaların sülhə hazırlanması üçün istifadə edilməsi tövsiyə olunan alətlərdən biri də mediadır. Adı çəkilən sənədlərdə vurğulanır ki, münaqişədə olmuş cəmiyyətlərin barışdırılması üçün peşəkar medianın, jurnalistikanın imkanlarından istifadə edilməli, media sülh quruculuğu prosesinə dəstək verməlidir.

Son 4 il ərzində Ermənistan mediasında paylaşılan materialları təhlil edərkən, erməni cəmiyyətinin sülhə hazırlandığı müşahidə olunmur. Əksinə, burada revanşizmə çağırış, Azərbaycan əleyhinə dezinformasiyalar yer tutur. Mediada İnnovativ Təşəbbüslərə Dəstək İctimai Birliyi (MİTD İB) Ermənistan mediasının sülhyaratma dövründə yanlış yol tutduğunu, sülh əleyhinə çıxışların tribunasına çevrildiyini isbatlamaq üçün faktoloji mənbə yaradıb. Bu məqsədlə ingilis və rus dillərində versiyası olan 3 Ermənistan KİV-i (1 müstəqil, 1 müxalifyönlü, 1 iqtidaryönlü KİV subyekti) 5 ay müddətində monitorinqə cəlb edilib. Həmin KİV dərc edilmiş sülh əleyhinə çağırışlar, Azərbaycana qarşı nifrət çıxışları və dezinformasiyalar toplanılaraq təsnifatlaşdırılıb. Sülh əleyhinə çağırışları ehtiva edən materiallardan ibarət olan hesabatlar hazırlanıb.

Monitorinqlər zamanı daha bir nüans aşkara çıxarılıb. Aydın olub ki, Ermənistan media vasitələrində, həmçinin onların beynəlxalq havadarı olan transmilli KİV dərc edilən dezinformasiyaların dünya ictimaiyyəti ilə yanaşı, Azərbaycan auditoriyasına ötürülməsi də təşkil olunur. Bu kontekstdə xarici ölkələrdə məskunlaşmış, ictimai rəydə “söyüş müxalifəti” kimi tanınan qrupların idarə etdikləri informasiya resurslarından istifadə edilir. Məsələn, BBC özünün 18 sentyabr 2024-cü il tarixli buraxılışında “Azərbaycan həbsxanalarında Ruben Vardanyan və digər ermənilərlə nə baş verir?” başlığı ilə məqalə dərc edib.

Qeyd edilib ki, Bakıda keçiriləcək COP 29 tədbirləri ərəfəsində separatçı liderlərdən Ruben Vardanyan və digər əsirlərin işi üzrə beynəlxalq kampaniya təşkil olunacaq. Ermənistan KİV-indən “News.am” və digərləri həmin məqaləni təkrarən paylaşaraq, Azərbaycan əleyhinə istifadə ediblər. Separatçı liderlərin “haqsız yerə tutulduqlarını”, “həbs müddətində onların hüquqlarının pozulduğunu” iddia ediblər . Məqalə xarici ölkələrdə fəaliyyət göstərən azərbaycandilli internet TV-lər təfəindən də paylaşılıb. Bu TV-lərdə çıxış edən mühacir siyasətçilər “Ruben Vardanyana haqq qazandırmağa” çalışıblar. Dolayısı ilə Ruben Vardanyanın məhbus hüquqlarının pozulması kimi cəfəng ideyalara yer veriblər.

Buna bənzər faktların sayı kifayət qədər çoxdur. Hesab edirik ki, bu platformalar monitorinqə cəlb edilməli, həmin platformalarda yayımlanan dezinformasiyalar qeydə alınmalı, onların yanlışlığını isbatlayan informasiyalar dövriyyəyə buraxılmalıdır.

# "Qanun sülhün bərqərar olduğu cəmiyyətin banisidir"

*Beynəlxalq Prokurorlar Assosiasiyasının 29-cu İllik Konfransı və Ümumi Yığıncağının açılış mərasimindən qeydlər*

**Son illər Azərbaycanı dünyanın diqqət mərkəzinə çəkən hadisələrdən biri də ölkənin nüfuzlu beynəlxalq təşkilatların keçirdiyi tədbirlərə çox böyük uğurla ev sahibliyi etməsidir. Sentyabrın 29-da da dünya prokurorlarının ilk və yeganə qlobal təşkilatı olan Beynəlxalq Prokurorlar Assosiasiyasının (BPA) Bakı Konqres Mərkəzində 29-cu İllik Konfransı və Ümumi Yığıncağı keçirildi. 4 gün davam edəcək tədbirin miqyasını nümayiş etdirən əsas göstəricilərdən biri tolantıda dünyanın 95 dövlətinin çox sayda Baş prokurorlarının, 10 beynəlxalq təşkilat da daxil olmaqla, 465-dən çox yüksək vəzifəli şəxsin iştirak etməsi idi.**





Konfrans işinə başlamazdan əvvəl respublikanın Baş prokuror Kamran Əliyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin BPA-nın 29-cu İllik Konfransı və Ümumi Yığıncağın iştirakçılarına ünvanladığı təbrikini oxudu. Cənab İlham Əliyev təbrik məktubunda Azərbaycanın Beynəlxalq Prokurorlar Assosiasiyası ilə uzunmüddətli əlaqələrini yüksək qiymətləndirərək, bu tərəfdaşlığın möhkəmləndirilməsi istiqamətində səylərin gücləndirilməsinin vacib olduğunu qeyd etmişdir. Təbrik məktubunda həmçinin bildirilir ki, son onilliklərdə "Azərbaycanda prokurorluq orqanlarında mütərəqqi islahatlar həyata keçirilmiş, ölkədə qanunun aliliyi, fundamental hüquq və azadlıqlar tam təmin olunmuşdur. Ölkəmizin hüquq-mühafizə orqanları beynəlxalq səviyyədə transmilli cinayətkarlıq, terrorizm, separatizm, qaçaqmalçılıq, çirkli pulların yuyulması, narkotiklərin qanunsuz dövriyyəsi, kibercinayətkarlıq, qanunsuz miqrasiya və s. qarşı mübarizəyə öz mühüm töhfəsini verir və bu istiqamətdə beynəlxalq əməkdaşlığı dəstəkləyir".

Azərbaycan Prezidenti vurğulayıb ki, "transsərhəd cinayətkarlığının yeni forma və təzahürlərinin, o cümlədən kibercinayətkarlığın yeni növlərinin meydana gəlməsi, sosial media platformaları, süni intellektin yaratdığı imkanlardan cinayətkarlıq, terrorizm məqsədilə istifadə edilməsi prokurorluq orqanlarının qarşısında yeni və mürəkkəb çağırışlar qoyur. Eyni zamanda, dünyada etnik-dini zəmində artmaqda olan nifrət və irqçilik meyilləri hamımızı narahat edir". Sonda Azərbaycan Prezidenti əmin olduğunu bildirir ki, Bakı konfransı "ortaq məqsədlərə töhfə verəcək və daha böyük əməkdaşlığa yol açacaqdır".

Prezidentin təbrik məktubunun oxunuşundan sonra Beynəlxalq Prokurorlar Assosiasiyasının Prezidenti, Buenos-Ayres Muxtar Şəhərinin Dövlət Prokurorluğu Xidmətinin Baş prokuroru Juan Bautista Mahiques "Qanunun aliliyinin təmin edilməsində prokurorun rolu" mövzusuna həsr olunmuş beynəlxalq konfransın rəsmi açılışını elan etdi və tədbirə ev sahibliyi edən Azərbaycan tərəfinin qonaqpərvərliyinə, Assosiasiyanın işinə verilən dəyərli töhfə və daimi dəstəyə görə baş prokuror Kamran Əliyevə təşəkkür etdi, Assosasiyanın Prezidenti həmçinin tədbirdə fəal iştirak etdiklərinə görə nümayəndələrə təşəkkürünü bildirib, uğurlar arzuladı.

Juan Bautista Mahiques sonra Assosiasiyanın gələcək strategiyası, hədəfləri barədə məlumat verərək, quruma üzv dövlətlərin hüquq-mühafizə orqanları arasında qarşılıqlı və səmərəli əməkdaşlığın genişləndirilməsinin əhəmiyyətini diqqətə çatdırdı.

Konfransda məruzə ilə çıxış edən Azərbaycanın Baş prokuroru Kamran Əliyev vurğuladı ki, tədbirin Azərbaycanda keçirilməsi böyük hörmət və etimadın, eləcə də respublikanın milli, regional və qlobal səviyyədə ətraf mühitin qorunması, iqlim dəyişmələrinin qarşısının alınması işinə töhfəsinin təqdir olunmasının bariz nümunəsidir. Baş prokuror əmin olduğunu bildirdi ki, dostluq təməlləri əsasında keçirilən Assosiasiyanın 29-cu İllik Konfransı və Ümumi Yığıncaq regional təhlükəsizliyə, cinayətkarlığın bütün növlərinə qarşı birgə mübarizəyə xidmət edəcək, mövcud potensialın inkişafında və qarşılıqlı fəaliyyətin əlaqələndirilməsində səmərəli vasitə olacaq.

Çıxışında Azərbaycan prokurorluğunun fəaliyyətinə toxunan Kamran Əliyev bildirdi ki, ölkə prokurorluğunun müstəqil dövlətçiliyin bərpasından sonrakı fəaliyyətinin ən mühüm xüsusiyyəti onun müstəqil dövlət təsisatı kimi formalaşması, öz funksiyalarını tamamilə yeni - siyasi plüralizm və bazar iqtisadiyyatı, insan və vətəndaş azadlığı prinsipləri əsasında qurulan hüquqi dövlətin, demokratik cəmiyyətin tələbləri ilə uzlaşdırması olub. "Azərbaycan prokurorluğunun hər kəsin qanun qarşısında hüquq bərabərliyi, fiziki şəxslərin hüquq və azadlıqlarına, hüquqi şəxslərin hüquqlarına əməl və hörmət edilməsi, obyektivlik, qərəzsizlik və faktlara əsaslanma, vahidlik və mərkəzləşdirmə prinsipləri ilə fəaliyyət göstərməklə beynəlxalq standartlara uyğun dövlət təsisatı kimi formalaşması ulu öndər Heydər Əliyev və onun siyasi kursunun layiqli varisi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən həyata keçirilən ardıcıl və məqsədyönlü islahatlar nəticəsində mümkün olub".

K.Əliyev həmçinin qeyd etdi ki, Assosiasiyanın bu tədbiri bizə prokurorların rolunu müzakirə etmək üçün şərait yaradır. "Bütün prokurorların missiyası öz işini ədalətli şəkildə icra etməkdir: "Qanun sülhün bərqərar olduğu cəmiyyətin banisi, demokratiyanın və insan ləyaqətinin qoruyucusudur. Ancaq bu, deyəsən Ermənistana əsla aid deyil". Baş prokuror Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətini davam etdirdiyi illərdən bunun tam əksinin baş verdiyini qeyd edərək bildirdi ki, "qonşu ölkənin işğalçı hakimiyyəti 30 ilə yaxın xalqımıza qarşı etnik təmizləmə siyasəti həyata keçirmiş, çoxsaylı hərbi və insanlıq əleyhinə cinayətlər törətmişdir. Nəhayət, 2020-ci ildə Vətən müharibəsi və 2023-cü ildə antiterror əməliyyatı nəticəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa olundu. İşğal dövründə 4 minə yaxın azərbaycanlı itkin düşmüş, ağır işgəncələrə məruz qalmış və əksəriyyəti qətlə yetirilərək, cinayətlərinin izilərini itirmək üçün kütləvi məzarlıqlarda basdırılmışdır. İşğal dövründə Azərbaycana məxsus maddi-mədəniyyət nümunələri, dini ocaqlar, dağıdılmış, bütövlükdə 9 şəhər və yüzlərlə kənd və qəsəbə məhv edilmişdir. Bütün bu cinayətləri törətmiş təcavüzkar və işğalçı Ermənistan dövləti Azərbaycan xalqından üzr istəmək əvəzinə, xalqımıza qarşı əsassız ittihamlar irəli sürür. Buna baxmayaraq, Azərbaycan bu gün bölgədə sülh və sabitliyin yaradılması üçün səylərini davam etdirir".

Baş prokuror çıxışında BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29-un ölkəmizdə keçirilməsinin tarixi əhəmiyyəti barədə də məlumat verərək qeyd etdi ki, tədbirin Azərbaycanda təşkil olunması böyük hörmət və etimadın, eləcə də ölkəmizin milli, regional və qlobal səviyyədə ətraf mühitin qorunması, iqlim dəyişmələrinin qarşısının alınması işinə töhfəsinin təqdir olunmasının bariz nümunəsidir.

K.Əliyev COP29 zamanı Azərbaycan Respublikası Baş Prokurorluğunun Birləşmiş Millətlər Təşkilatının Narkotiklər və Cinayətkarlıqla Mübarizə İdarəsi -UNODC ilə birgə noyabrın 15-də "İqlim dəyişikliyi ilə mübarizədə hüquq-mühafizə orqanlarının səfərbər edilməsi" adlı yüksək səviyyəli plenar iclasın təşkili olunacağını da konfrans iştirakçılarının diqqətinə çatdırdı.

Konfransın təşkilat komitəsində bildirildi ki, sonrakı günlərdə müxtəlif plenar və xüsusi maraq sessiyaları, işçi qrup və şəbəkə iclasları, habelə ikitərəfli və çoxtərəfli görüşlər təşkil olunacaq. Həmçinin müxtəlif ölkələri təmsil edən prokurorlar və hüquqşünaslar arasında peşəkar əlaqələrin qurulması üçün bir sıra sosial tədbirlər də nəzərdə tutulur.

Tədbirin ikinci günü, sentyabrın 30-da Bakı Konqres Mərkəzində müxtəlif ölkələrin prokurorluq və ədliyyə qurumları arasında ikitərəfli və çox tərəfli görüşlər keçirilib. Konfrans çərçivəsində həmçinin "Müstəqil cinayət ədliyyə sisteminin üç əsas sütununu tarazlaşdırmaq üçün milli yanaşmalar - problemlər və cavablar" plenar sessiyası, "Prokurorun ittiham tərəfi ilə müdafiə tərəfi arasında bərabərliyin təmin edilməsində rolu", "Cəza prosesində prokurorun rolu"seminarlarında səmərəli fikir mübadilələri və müzakirələr aparılıb.

Konfransa çərçivəsində növbəti gündə davam edəcək plenar və xüsusi maraq sessiyalarında cinayət təqibində rəqəmsal sübutlar və süni intellektin cinayət prosesində də istifadəsi, cinayət mühakimə sistemində şəffaflığın artırılması və ictimai etimadın gücləndirilməsi, gender əsaslı zorakılıq cinayətlərinin istintaqı, iqtisadi cinayətkarlıq və əmlakın bərpası, müasir texnologiyaların beynəlxalq kontekstdə hüquq-mühafizə orqanlarına təsiri, getdikcə qloballaşan dünyada ədalətin təmin edilməsi üçün atılacaq addımlar, transmilli cinayətlərə qarşı mübarizədə ölkələr arasında əməkdaşlıq münasibətləri, birgə müvəqqəti ədalət mühakiməsinin effektivliyini artırmaq üçün yeni təşəbbüslər və s. məsələlər ətrafında da müzakirələr aparılacaq.

Konfransın yekununda Beynəlxalq Prokurorlar Assosiasiyasının strategiyası və gələcək fəaliyyəti ilə bağlı mühüm əhəmiyyətli qərarlar qəbul ediləcək.

BPA-nın 29-cu İllik Konfransı və Ümumi Yığıncağı oktyabrın 2-dək davam edəcək.

***İlqar RÜSTƏMOV***
***XQ***

# "Heydər Əliyev adına Beynəlxalq Təhsil Qrantı"

*100 xarici tələbə Azərbaycanda təhsil alacaq*




**Azərbaycan Prezidentinin 2023-cü il 8 iyul tarixli Sərəncamına uyğun olaraq Xarici İşlər Nazirliyi ilə Elm və Təhsil Nazirliyi tərəfindən birgə icra edilən "Heydər Əliyev adına Beynəlxalq Təhsil Qrantı" proqramının 2024–2025-ci tədris ili üzrə namizədlərin seçimi prosesi başa çatıb. Proqrama müraciət etmiş 47 ölkədən yüzlərlə namizəd sırasından 35 ölkə üzrə 100 nəfər təhsil qrantına layiq görülüb.**

Seçilmiş namizədlər əsasən Bakı Dövlət Universiteti, Azərbaycan Tibb Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Bakı Mühəndislik Universiteti olmaqla Azərbaycanın 10 ali təhsil müəssisəsində müxtəlif təhsil səviyyələrində təhsil alacaqlar.

Qeyd edək ki, bu proqrama əsasən, İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama Hərəkatına üzv ölkələr, İnkişaf etməkdə olan Kiçik Ada Dövlətləri qrupuna daxil olan ölkələr və xalqımızla etnik, tarixi və mədəni bağlara malik xalqların və milli azlıqların yaşadığı ölkələrin vətəndaşlarının 5 il ərzində ölkəmizin ali təhsil müəssisələrində müxtəlif təhsil səviyyələri üzrə təhsil almaları nəzərdə tutulub.

Xatırladaq ki, Azərbaycan Respublikası 2017–2022-ci illərdə İslam Əməkdaşlıq Təşkilatına və Qoşulmama Hərəkatına üzv ölkələrin vətəndaşları üçün 200-dək təhsil qrantı proqramının həyata keçirilməsini təmin edib. Həmin proqramların uğurlu təcrübəsi əsasında "Heydər Əliyev adına Beynəlxalq Təhsil Qrantı" proqramı təsis edilib.

***XQ***

# VII çağırış Milli Məclisin 2024-cü ilin payız sessiyasının ilk iclası

**Sentyabrın 30-da Sahibə Qafarovanın sədrliyi ilə yeddinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin 2024-cü il payız sessiyasında ilk plenar iclası keçirilib.**



Prezident İlham Əliyevə bir daha minnətdarlığını bildirən S.Qafarova dövlətimizin başçısının parlamentin birinci iclasında söylədiyi dərin məzmunlu nitqində yaxın illərdə ölkəmizin inkişaf istiqamətlərini müəyyən etməli olan strateji hədəfləri və milli prioritetləri elan etdiyini diqqətə çatdırıb.

O, Prezident İlham Əliyevin daxili və xarici siyasətinin qanunvericilik bazasını möhkəmləndirmək üçün Milli Məclisin öhdəsinə düşən vəzifələri bundan sonra da layiqincə yerinə yetirəcəyinə əminliyini ifadə edib.

Sonra MSK-nın sədri Məzahir Pənahov ölkəmizdə sentyabrın 1-də Milli Məclisə keçirilmiş növbədənkənar seçkilərdə qələbə qazanan deputatları təbrik edib, bu seçkilərin Azərbaycan tarixində xüsusi əhəmiyyətə malik olduğunu vurğulayıb.

Məzahir Pənahov Milli Məclisin sədri Sahibə Qafarovaya, parlament sədrinin birinci müavini Əli Əhmədova, sədr müavinləri Ziyafət Əsgərova, Musa Qasımlıya, Rafael Hüseynova və digər millət vəkillərinə deputat vəsiqələrini təqdim edib.

Vəsiqələrin təqdimatından sonra gündəlikdəki 17 məsələnin müzakirəsinə başlanılıb.

Gündəliyin ilk 15 məsələsi Milli Məclisin komitələrinin üzvlərinin seçilməsi ilə bağlı olub.

İclasda Hüquq siyasəti və dövlət quruculuğu, Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə, İnsan hüquqları, Təbii ehtiyatlar, energetika və ekologiya, İqtisadi siyasət, sənaye və sahibkarlıq, Aqrar siyasət, Əmək və sosial siyasət, Səhiyyə, Ailə, qadın və uşaq məsələləri, Gənclər və idman, İctimai birliklər və dini qurumlar, Regional məsələlər, Elm və təhsil, Mədəniyyət, Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitələrinin üzvlərinin seçilməsi haqqında qərar layihələri ayrı-ayrılıqda səsə qoyularaq qəbul edilib.

Milli Məclisin sədri növbəti – 16-cı məsələnin Milli Məclisin 2024-cü il payız sessiyasının qanunvericilik işləri planı haqqında olduğunu söyləyib. Deyib ki, qanunvericilik işləri planı 7 bənddən ibarətdir.

Sonra iclasda məsələ ətrafında müzakirələr aparılıb. Müzakirələrdə komitə sədrləri Zahid Oruc, Siyavuş Novruzov, Əli Hüseynli, Fazil Mustafa, deputatlar Jalə Əliyeva, Aydın Mirzəzadə, Hikmət Məmmədov çıxış edərək fikirlərini açıqlayıb, bir sıra təkliflərini səsləndiriblər.

Çıxışlardan sonra Milli Məclisin 2024-cü il payız sessiyasının qanunvericilik işləri planı təsdiq olunub.

Gündəliyin sonuncu məsələsi Milli Məclisin Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı müvəqqəti komissiyasının yaradılması haqqında olub.

Məsələnin müzakirəsində Milli Məclis sədrinin birinci müavini Əli Əhmədov, sədr müavinləri Ziyafət Əsgərov, Rafael Hüseynov, komitə sədrləri Arzu Nağıyev, Siyavuş Novruzov, Zahid Oruc, deputatlar Ramid Namazov, Kamran Bayramov, Nizami Səfərov, Bəhruz Məhərrəmov, Qüdrət Həsənquliyev və Mübariz Qurbanlı çıxış ediblər.

Müzakirələrin sonunda qərar layihəsi səsə qoyularaq qəbul edilib. Qərara əsasən, deputat Ramid Namazov müvəqqəti komissiyanın sədri seçilib.

Bununla da ilk plenar iclas başa çatıb.

***XQ***

# İrəvanda “kölgə” yüksəlişi

## *Özgə mallarını Rusiyaya ötürmək statistikası*

**Prezident İlham Əliyev iyulun 20-də “Yalan məlumatların ifşası: Dezinformasiyaya qarşı mübarizə” mövzusunda 2-ci Şuşa Qlobal Media Forumunda Rusiya ilə Ermənistan arasında ticarət dövriyyəsinin son iki ildə 5 dəfə artaraq 1,5 milyard dollardan 7,3 milyard dollara çatdığını bildirərək bunun çox təəccüblü olduğunu söyləyib: “Maraqlıdır ki, Ermənistan nəyin hesabına öz ixracını bu qədər artıra bilib. Bu, necə deyərlər, ritorik sualdır. Ancaq bizim ticarət dövriyyəmiz son bir ildə, təxminən, 17 faiz artıb – 4 milyard 300 və ya 4 milyard 400-ə bərabər olub”.**



Ermənistan statistik göstəricilərini müəyyən vasitələrlə artıraraq müsbət formada təqdim etməklə, ilk növbədə, öz vətəndaşlarını aldadır. 2024-cü il üçün Cənubi Qafqazda adambaşına düşən büdcə xərcləri ilə bağlı statistik göstəricilərə görə, Ermənistanın adambaşına düşən büdcə xərclərində 2650 ABŞ dolları ilə ilk yerdə qərarlaşması da bunun bariz ifadəsidir.

Ermənistanın maliyyə naziri Vahe Hovhannisyanın büdcə gəlirləri və xərcləri ilə bağlı açıqladığı rəqəmlər də, əslində, həqiqətdən uzaq göstəricilərdir. Belə ki, 2024-cü ildə Ermənistanın dövlət büdcəsinin gəlirləri indiki məzənnə ilə 6,7 milyard ABŞ dolları, xərclərinin isə 7,8 milyard ABŞ dolları olduğu bildirilir. Əhalinin sayı nəzərə alınsa, adambaşına düşən gəlir, təxminən, 2,2 min ABŞ dolları, xərclər 2,6 min ABŞ dolları təşkil edir. Burada gəlirlər və xərclər arasında yaranan 400 ABŞ dolları fərqin isə ianələr, yardımlar və borclar hesabına qapadıldığı vurğulanır. Ümumiyyətlə, büdcə gəlirləri və xərclərinin nəyin hesabına formalaşması, hansı amillərə görə qeydə alınması maraqlıdır ki, bu ölkədə sirr kimi saxlanılır.

Yeri gəlmişkən, Azərbaycanda bu məsələnin şəffaflığına xüsusi önəm verilir. Məsələn, 2024-cü ilin dövlət büdcəsinin xərcləri 21,7 milyard ABŞ dolları, adambaşına düşən büdcə xərcləri isə 2165 - 2170 ABŞ dolları təşkil edir. Ölkəmizin büdcə gəlirləri birbaşa yerli fiskal mənbələr, yəni 100 faiz vergi, gömrük və s. daxili mənbələr hesabına formalaşır, heç bir xarici qrant, maliyyə institutlarından borc alınmır. Amma digər Cənubi Qafqazın iki ölkəsinin büdcəsi xarici maliyyə mənbələri, o cümlədən xarici borclar hesabına formalaşır. Alınan borclar büdcə xərclərində öz əksini tapır ki, bu da rəqəmlərin şişirdilməsi ilə nəticələnir.

Ekspertlər qeyd edirlər ki, istənilən ölkənin güclü iqtisadiyyatının olması üçün iki faktor əsas rol oynayır. Bunlardan biri təbii sərvətlər və əlverişli coğrafi mövqeyə malik olmaqdırsa, digəri isə ölkənin real sektorunun, bu istiqamətdə istehsal fəaliyyətinin ifadəsidir.

Azərbaycanda aparılan islahatlar, yatırılan mühüm investisiyalar ölkə iqtisadiyyatını nəinki inkişaf etdirir, hətta dəyişən geosiyasi vəziyyətlərdən, qlobal böhranlardan qoruyur. Lakin Ermənistan iqtisadiyyatı sağlam təməllərə söykənmir. Ölkə təbii sərvətlər və kənd təsərrüfatı baxımdan məhdud imkanlara malikdir. Bu isə Ermənistanın təminetmə gücünü məhdudlaşdırır.

Rusiyalı tanınmış ictimai xadim, siyasi ekspert Maksim Şevçenko bir neçə gün bundan əvvəl Rusiya–Ermənistan münasibətləri barədə danışarkən baş nazir Nikol Paşinyanın Moskvanın yox, Rusiyada müəyyən dairələrin maraqlarına xidmət etdiyini bildirib. Siyasi ekspert fikirlərini bir qədər də konkretləşdirərək Rusiyanın Ermənistanla yox, ermənilikla yaxşı münasibətləri olduğunu, ermənilərin hər zaman “stavka”ların artmasına və azalmasına oynadıqlarını qeyd edib. M.Şevçenko daha sonra diqqəti Azərbaycan Prezidentinin yuxarıda vurğuladığı fikrə yönəldərək dövlət başçımızın Ermənistanla Rusiya arasında ticarət dövriyyəsinin həcminin dəfələrlə artması ilə bağlı söylədiklərinin təsadüfi olmadığını, həqiqətə əsaslandığını bildirib. Rusiyalı tanınmış ictimai xadim deyib: “Burada söhbət Ermənistanın istehsal etdiyi məhsullardan getmir, məsələ Ermənistan ərazisində qeydiyyata alınan və daha sonra isə Rusiya ərazisinə gətirilən mallarla bağlıdır. Baxın, bu, məhz birbaşa erməni lobbisinin fəaliyyəti ilə reallaşır. Ermənistan bankları bu “oyunla” böyük pullar qazanır. Beləcə iqtisadiyyat siyasəti formalaşdırır. Qarabağ klanının yerinə gələn yeni erməni lobbisi “boz sxem”ləri ilə Rusiyaya öz xidmətlərini təklif edir. Ermənilik məhz bunun üzərində qurulub”.

M.Şevçenko Ermənistanın Rusiya üçün heç bir əhəmiyyətinin olmadığını da vurğulayıb: “Ermənistan indi İrandan asılı vəziyyətdədir. Fikrimcə, onu Tehrana vermək lazımdır. Tehran Ermənistanın Fransa və ümumilikdə, Qərblə dialoquna məsul olmalıdır. Rusiya üçün Ermənistan sadəcə yükdür. Şimal-Cənub, Şərq-Qərb dəhlizləri Ermənistandan yan keçir. O zaman Ermənistanın nə strateji əhəmiyyəti qalır ki?! Ermənistan Cənubi Qafqazda sadəcə ağrılı nöqtədir. Aydındır ki, Moskvada kimsə bu ağrılı nöqtəni istismar etmək istəyir”.

Rusiyalı siyasi ekspertin vurğuladığı kimi, erməni lobbisinin “boz sxem”ləri vasitəsilə Ermənistanın ixracının davamlı artması faktı “Fitch Ratings” beynəlxalq reytinq agentliyinin hesabatında da vurğulanıb. Hesabatda Ermənistan iqtisadiyyatının hələ uzun müddət bu yolla Rusiyadan asılı qalacağı diqqətə çatdırılıb. Belə ki, işğalçı ölkənin reytinqinin “BB-” səviyyəsində təsdiqləndiyi “Fitch”in hesabatında Ermənistanın bu gün ticarət və enerji baxımından Rusiyadan asılı vəziyyətdə qaldığı bildirilib və onun yaxın gələcəkdə də müstəqil dövlətin iqtisadi inkişafı üçün ciddi təhlükə sayılan bu asılılıqdan yaxa qurtarmaq imkanında olmayacağı proqnozlaşdırılıb.

“Fitch”in cari il üçün Ermənistan iqtisadiyyatı ilə bağlı proqnozunda artımı şərtləndirən digər əsas amil kimi istehlak xərclərinin çoxalması göstərilib. Hesabatda bu, Rusiyadan Ermənistana gələn miqrantların, həmçinin Qarabağdan köçən etnik ermənilərin istehlak səviyyəsinin yüksəlməsi ilə əlaqələndirilib.

Təhlilçilərin fikrincə, Ermənistanın xarici ticarətinin üçdə birindən çox hissəsinin Rusiyanın payına düşməsi faktının ölkədə xarici ticarətin diversifikasiyasının çox aşağı səviyyədə olmasından, yalnız bir ölkədən asılılığının isə perspektivdə sosial-iqtisadi təlatümlərin baş qaldıracağından xəbər verir.

Ekspertlər bildirirlər ki, Ermənistan iqtisadiyyatı uzun illər ərzində əsasən Rusiya və digər ölkələrdəki erməni diasporunun maliyyə vəsaitləri ilə formalaşıb. Şübhəsiz ki, bu maddi yardımlarla iqtisadi inkişafı gerçəkləşdirmək, qlobal layihələrdə iştirak etmək mümkün deyil. Əksinə, xaricdən asılılıq ölkənin rifahı və gələcəyi üçün əsas əngəllərdən birinə çevrilir. Vəziyyətin ən acınacaqlı tərəfi isə Ermənistanın iqtisadiyyatını əsaslı formada gücləndirmək əvəzinə, statistik göstəriciləri müəyyən vasitələrlə müsbət formada təqdim etməsi, bu rəqəmlərlə öz vətəndaşlarını aldatmasıdır.

### Ekspert rəyi

**Fikrət YUSİFOV,**
**iqtisad elmləri doktoru, professor**



Ermənistan Amerika Birləşmiş Ştatları və Qərbin çoxsaylı sanksiyalarla idxalı Rusiyaya qadağan edilmiş malları və ilk növbədə, bu ölkənin hərbi sənayesinə hazırda, necə deyərlər, hava-su kimi lazım olan məhsulları elə həmin sanksiyaların tətbiqini imzalayan ölkələrdən alıb öz ərazisinə gətirir və buradan başqa mal-məhsul adları ilə Rusiyaya ixracını həyata keçirir. Bununla da işğalçı dövlət Ukrayna – Rusiya müharibəsində ikinciyə bənzəri olmayan bir qardaş xidməti göstərir. Rusiya öz hərbi sənayesi üçün zəruri olan bu məhsulların köməyi ilə Qərbin milyardlarla dollar həcmində maliyyə və hərbi yardımlar göstərdiyi Ukraynanın başına od yağdırır. Qərb isə bu əməllərinə görə, Ermənistanı cəzalandırmaq və sanksiyalar tətbiq etmək əvəzinə ona indiyə qədər göstərdiyi yardımların həcmini getdikcə artırır. Bu nə deməkdir? Bu qədər məntiqsizliyə, anlaşılmazlığa göz yummaqda Qərbin məqsədi nədir? Biz bütün bunlardan sonra Qərbin ədalətinə, demokratiyasına necə inana bilərik?

İndi isə dediklərimizin təsdiqi üçün Ermənistan Dövlət Statistika Komitəsinin rəsmi saytından götürdüyümüz rəqəmlərə nəzər salaq. Baxın, əgər Rusiyanın Ukraynaya qarşı başladığı müharibədən öncəki 2021-ci ildə Ermənistanın xarici ticarət dövriyyəsi 8 milyard 362 milyon ABŞ dolları olmuşdusa, 2023-cü ildə bu rəqəm 254 faiz artaraq 21 milyard 310 milyon dollara çatıb, cari ilin sonunda isə onun 4,2 dəfə (420 faiz) artaraq 35 milyard dollara yüksələcəyi gözlənilir.

Xatırladaq ki, nefti, qazı və digər enerji ehtiyatları olmayan, 2020-ci ildə isə böyük hərbi və digər resursların itirilməsi ilə nəticələnən 44 günlük Vətən müharibəsindəki ağır məğlubiyyətlə üzləşmiş bu ölkənin xarici ticarət dövriyyəsi 2013-cü ildə cəmi 5 milyard 865 milyon ABŞ dolları səviyyəsində olub. Təsəvvür edirsinizmi, belə bir ölkənin xarici ticarət dövriyyəsi 2024-cü ildə 35 milyard dollara çatacaq, yəni 10 ildən bir qədər artıq zaman kəsiyində 6 dəfəyə qədər artacaq! Bu, təbii ki, Ermənistan kimi bir ölkə üçün real ola bilməyən fantastik bir göstəricidir. Bunu mümkün edən isə dediyimiz kimi, Rusiya – Ukrayna müharibəsində Rusiyaya xaricdən idxalı qadağan olunmuş mal və məhsulları öz ərazisi üzərindən daşımaqla göstərilən “ayı xidmətidir”.

İdxal- ixracı Rusiya – Ukrayna müharibəsi başlayandan Ermənistanın Rusiyaya ixracının sürətlə böyüyən həcmi bu illər ərzində necə dəyişib? 2021-ci ildə, yəni müharibə başlayandan bir il öncə Ermənistandan Rusiyaya cəmi 840 milyon dollarlıq məhsul ixrac edilib. İki il sonra, yəni 2023-cü ildə bu rəqəm 4,2 dəfə böyüyərək 3 milyard 540 milyon dollardan çox olub. Ermənistandan Rusiyaya ixracın həcmi bu il də sürətlə artmaqdadır və biz cari ilin yekunlarına görə, daha böyük göstəricilərin şahidi olacağıq.

Bir anlıq təsəvvür etmək belə mümkün deyil ki, əgər Azərbaycan Rusiyaya belə bir dəstək versəydi nələr baş verərdi? Şübhəsiz ki, Qərb Azərbaycana amansız sanksiyalar tətbiq edərdi. Bəs indi Qərb Ermənistanın bu əməllərini niyə görmür?

# Ermənistan təzminat ödəməlidir!

**(əvvəli 6-cı səhifədə)**

ABŞ-dəki ermənipərəstlərin və onlara Ermənistanda dəstəvuz verənlərin bu davranışı qarşısında biz də torpaqlarımızı 30 il işğal altında saxlayan və həmin ərazilərdə, sözün əsl mənasında, ağır cinayətlər törədən bir ölkədən təzminat tələb etməliyik. Bu cinayətlərə mülki infrastrukturun məqsədyönlü şəkildə kütləvi miqyasda dağıdılması (urbisid), mədəni irsin dağıdılması, saxtalaşdırılması və talan edilməsi (kultursid), ətraf mühitə və biomüxtəlifliyə sağalmaz yaralar vurulması (ekosid), mülki əhalimizə, girov və ya əsir götürülmüş vətəndaşlarımıza münasibətdə törədilən əməllər, ərazilərimizin minalarla kütləvi şəkildə çirkləndirilməsi və sair mənfur əməllər daxildir. Bəli, rəsmi İrəvan bu əməllərinə görə cavab verməlidir!

Qeyd edək ki, Prezident İlham Əliyev hələ 2022-ci il mayın 4-də bildirmişdir ki, biz indi bütün hüquqi prosedurlara start vermişik: “Mən bu haqda Azərbaycan ictimaiyyətini məlumatlandırmışdım. Bir cinayət də cavabsız qalmayacaq. Birincisi, biz dəymiş bütün ziyanı hesablayırıq, bütün şəhər və kəndlərimizin pasportlaşdırılması prosesi gedir. Hər bir binanın, yaxud da ki, o binadan qalan dağıntıların video-foto çəkilişi aparılır. Bu, sübutdur və biz beynəlxalq məhkəmələrə də müraciət etmək əzmindəyik, hazırlıq işləri gedir. Həmçinin Vejnəli (Zəngilan rayonu ərazisində yerləşir–S.H.) qızıl yatağının xarici vətəndaşlar tərəfindən, o cümlədən erməni əsilli xarici vətəndaşlar tərəfindən qanunsuz istismar edilməsi onlara baha başa gələcək. Biz o adamların adlarını bilirik. Biz onları dünya qarşısında ifşa edəcəyik və bizə təzminat ödəyəcəklər. Vurulmuş ziyanın təzminatını mütləq ödəyəcəklər”.

Əlbəttə, konkret rəqəm söyləmək çətindir, amma işğal dövründə ölkəmizə yüz milyardlarla dollar dəyərində ziyan vurulduğu dəqiqdir. Bu gün Azərbaycan dövləti işğaldan azad olunmuş əraziləri yenidən qurur. Proses böyük maliyyə vəsaiti tələb edir. Prezident İlham Əliyev sentyabrın 23-də yeddinci çağırış Milli Məclisin ilk iclasında bildirdi ki, müharibədən sonra bu ilin sonuna qədər xərclənməyə nəzərdə tutulan vəsait 19 milyard manatdır. Biz bütün bu işləri öz hesabımıza edirik. Bu günə qədər bizə bərpa işlərində köməklik edən qardaş Özbəkistan və Qazaxıstan olublar. Onların dəstəyi ilə Füzuli şəhərində məktəb və uşaqların yaradıcılıq mərkəzi inşa edilib və hazırda Qırğızıstan da Ağdam rayonunda məktəb inşası ilə məşğuldur. Vəssalam! Dünyanın bir çox donor təşkilatları var, ancaq onlar bu işə biganədirlər. İndi “Artsax gəlirlərinin bərpası aktı” layihəsini irəli sürənlərin qarşısına biz də təzminat tələbi ilə çıxmalıyıq. Buyurun, etdiyiniz əməllərə görə cavab verin!

Digər tərəfdən, beynəlxalq hüquqda yer almış müddəalar onu tələb edir ki, işğalçı dövlət buna görə məsuliyyət daşımalıdır. XX əsrdə nasist Almaniyasının Polşaya qarşı törətdiyi əməllərə görə 1,3 trilyon avro kompensasiya ödənilib. İraqın Küveyti işğal etməsinə görə BMT tərəfindən müvafiq komissiya yaradılıb və zərər müəyyən edilib. BMT Təhlükəsizlik Şurasının 687 saylı qərarı ilə İraq Küveytə qarşı təzminat ödəməyə məcbur edilib. Ermənistan da nasist Almaniyasının və əvvəlki İraq hökumətinin yürütdüyü siyasətə bənzər siyasət yürüdüb. İndi isə bunun, necə deyərlər, hesabını ödəməlidir.

**“Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu mövzu ilə bağlı XQ-yə açıqlamasında bildirdi ki,** hazırda bizim əsas məqsədimiz sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında ikitərəfli saziş layihəsinin imzalanmasıdır. Onun sözlərinə görə, layihənin imzalanması üçün əsas tələbimiz qüvvəsində qalmaqdadır. Bu tələb Ermənistan konstitusiyasından Azərbaycana ərazi iddialarını özündə ehtiva edən müstəqillik bəyannaməsinə istinadın çıxarılması, başqa sözlə, əsas qanunun dəyişdirilməsidir: “Biz bu istiqamətdə rəsmi səviyyədə



çıxışlarımızı edir, beynəlxalq ictimaiyyətə mesajlarımızı göndəririk. Əlbəttə, təzminat məsələsi də əhəmiyyətlidir. Çünki ermənilər 30 illik işğal dövründə şəhər və rayonlarımızı, kənd və qəsəbələrimizi, infrastruktur obyektlərimizi, bütün tikililəri, bir sözlə, hər yeri və hər şeyi darmadağın ediblər. Bu, ölkəmizə yüz milyardlarla dollar dəyərində ziyan vurulması deməkdir. Odur ki, biz bu məsələni də qaldırmalıyıq. Amma bu proses paralel getməlidir”.

E.Şahinoğlu qeyd etdi ki, hazırda ABŞ Konqresində erməni separatizminə dəstək verən yanaşmalar var. Əslində isə bu, Ermənistan hakimiyyətinin maraqlarına ziddir: “Məsələn, Nikol Paşinyan və onun komandasına daxil olan şəxslər separatçıların adlarını da çəkmir, onlara dəstək istiqamətində heç bir fikir söyləmir. Amma biz Fransadan, ABŞ-dən daha qızışdırıcı açıqlamalar eşidirik. Deməli, onlara da xatırlatmalıyıq ki, bizim daha böyük tələblərimiz var. Elə götürək təzminat məsələsini. Biz bu məsələnin təbliğatını da gücləndirməliyik. Dağıdılan yaşayış məntəqələrinin, evlərin, iaşə obyektlərinin, müəssisələrin keçmiş və indiki durumunun müqayisəli foto-video görüntülərini yaymalıyıq. Bəlkə də bununla bağlı beynəlxalq aləmdə konfranslara da ehtiyac var. Amma bu, sülh prosesinə mane olmamalıdır”.

Müsahibimiz bildirdi ki, təzminatın torpaq formasında ödənilməsi məsələsi bu məsələnin müzakirəsi zamanı gündəmə gətirilə bilər. Onun sözlərinə görə, Ermənistanın indiki vəziyyətdə bizə təzminat ödəmək iqtidarında olmadığı aydındır. Amma bu mövzunu gündəmdə saxlamaqla biz həm Ermənistana, həm də beynəlxalq ictimaiyyətə mesaj göndərmiş olarıq ki, erməni separatizminə dəstəyiniz, Azərbaycana qarşı təxribatçı siyasətiniz davam edərsə, bizim də əlimizdə güclü arqumentlər var. Əlbəttə, bu o demək deyil ki, biz mütləq istədiyimizə nail olacağıq. Amma hər bir halda təzminat məsələsi əlimizdə güclü siyasi və diplomatik vasitədir. İşğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzuru özümüz bərpa edirik. Bu məqsədlə özümüz pul xərcləyirik. Amma biz ərazilərimizin dağıdılmasına görə yüz milyardlarla dollar zərərə uğramışıq. İşğal dövründə ərazilərimizə minaların basdırılması insan tələfatı ilə yanaşı, həmin yerlərdə kənd təsərrüfatı ilə məşğul olmağa imkan vermir.

Politoloq bu məsələlərin hər zaman qaldırılmalı olduğunu vurğuladı. Qeyd etdi ki, reallıqdan çıxış etsək, prosesdə nəticə əldə etmək çox çətindir. Amma təzminat məsələsi bizə qarşı təxribatçı siyasət yürüdənlərə qarşı əlimizdə güclü alətə çevrilməlidir.

**Sabiq xarici işlər naziri Tofiq Zülfüqarov isə bildirib ki,** hazırda sülh sazişi ilə bağlı danışıqlar aparılır. Daha sonra konkret mövzularda danışıqlar davam etdiriləcək: “Humanitar məsələlərin müzakirəsi zamanı müxtəlif məsələlər öz həllini tapmalıdır. Bunlardan birincisi siyasi məsuliyyətdir. Yəni münaqişə baş verib və burada siyasi məsuliyyəti kim daşıyır? Bu, mütləq çərçivə sazişində əksini tapmalıdır. Ona görə ki, Ermənistan dövlət olaraq Azərbaycana qarşı rəsmən ərazi iddiaları irəli sürüb, torpaqlarımızı işğal edib, ərazimizdə etnik təmizləmə aparılıb, dağıntılara yol verilib, dövlətimizə, insanlarımıza ziyan dəyib. Danışıqlar yolu ilə Ermənistan dövlət olaraq öz məsuliyyətini qəbul edərək Azərbaycana təzminat verə bilər. Məsələn, Almaniya faşizmə görə



məsuliyyəti üzərinə götürüb, dövlət olaraq müxtəlif ölkələrə, insanlara təzminat ödəyib. Təzminat ödənişi prosesi yaxın vaxtlara qədər davam edib”.

Sabiq nazir qeyd edib ki, əgər İrəvan danışıqlar yolu ilə təzminat ödəməyi qəbul etməsə, Azərbaycan dövləti Ermənistanı beynəlxalq məhkəməyə verə bilər: “Eyni zamanda, Azərbaycan vətəndaşlarının da hüquqları var ki, işğal nəticəsində onlara dəymiş ziyanla bağlı müxtəlif məhkəmə instansiyalarına müraciət etsinlər. Beləliklə, bunu sübut edərək Ermənistan dövlətindən dəymiş ziyanın ödənilməsini tələb edə bilərlər”.

T.Zülfüqarov nəzərə çatdırıb ki, əgər birbaşa danışıqlar olarsa, ərazi kompensasiyası da daxil olmaqla, müxtəlif qərarlar qəbul oluna bilər: “Təzminat məsələsi beynəlxalq məhkəmələr vasitəsilə həllini tapacaqsa, digər variantlar mümkün olmayacaq. Yəni beynəlxalq məhkəmələr yalnız hansısa məbləğdə təzminatla bağlı qərar qəbul edə bilər. Əgər təzminat məbləğinin ödənişi mümkün olmayacaqsa, ikinci mərhələdə Ermənistan müxtəlif variantları təklif edə bilər. Başqa sözlə, Ermənistan görsə ki, tələb olunan təzminat məbləği böyükdür, danışıqlar vasitəsilə torpaq kompensasiyası gündəmə gələ bilər. Beynəlxalq təcrübədə ərazi məsələsi ilə əlaqədar danışıqlar olub. Məsələn, vaxtilə Çin SSRİ-yə hansısa torpaqları dəyişmək təklifi verirdi. Yəni beynəlxalq təcrübədə belə hallar var. Amma öncə bu mövzu gündəmə gətirilməlidir”.

***Səxavət HƏMİD***
***XQ***




# “Yaşıl dünya” naminə həmrəylik



# Bakı iqlim həftəsi: COP29 hazırlıq təqdimatı




**(əvvəli 1-ci səhifədə)**

COP29-un Yüksək Səviyyəli Çempionu Nigar Arpadarai çıxışında iqlim böhranının artıq uzaq bir təhdid olmadığını vurğulayıb. O deyib ki, bu böhran nəfəs aldığımız havadan, içdiyimiz sudan, yeməkdən, inşa etdiyimiz evlərə qədər hamımıza təsir edir: “Tezliklə iqlim icmasını Bakıda COP29-da bir araya toplayacağıq. Bu tədbirə baxışımız açıqdır — məqsədimiz ambisiyaları artırmaq və iqlim böhranını aşmaq üçün konkret addımlar atmaqdır”. Bunu isə təkbaşına həyata keçirmək mümkün olmadğını vurğulayan Nigar Arpadarai bu məsələdə biznes və vətəndaş cəmiyyətindən tutmuş şəhərlərə və akademik institutlara qədər bütün maraqlı tərəflərdən innovasiya, bilik və öhdəlik lazım olduğunu diqqətə çatdırıb. Onun sözlərinə görə, Bakı iqlim həftəsi fəaliyyətə çağırışdır, dialoqun real strategiyalara çevrildiyi və strategiyaların uzunmüddətli dəyişikliyə səbəb olduğu bir məkandır.

Energetika naziri Pərviz Şahbazov çıxışında qeyd edib ki, Azərbaycan “yaşıl” enerji keçidinin məqsədyönlü islahatlarla müşayiət olunan milli, regional və qlobal müstəvidə reallaşdırır. Onun sözlərinə görə, ölkəmiz ümumi enerji istehsalında bərpaolunan enerjinin payını 2027-ci ildə 33 faizə yüksəldən şəbəkənin gücləndirilməsini, “yaşıl” enerji zonalarının yaradılmasını, neft-qaz əməliyyatlarının dekorbanizasiyanı, enerji səmərəliliyi və elektromobilliyi əhatə edən birinci mərhələsini artıq reallaşdırmaq üzrədir.

Azərbaycanda həyata keçirilən “yaşıl” enerji layihələrindən bəhs edən nazir xarici sərmayə əsaslı 230 meqavatlıq ilk günəş elektrik stansiyanın istifadəyə verilməsi ilə bu ilin 9 ayında ölkəmizdə günəş elektrik enerjisi istehsalının 9 dəfədən çox artdığını deyib: “Bu ilin sonunadək imzalanmış sənədlərə uyğun olaraq ümumi gücü 340 meqavat olan 2 günəş elektrik stansiyanın tikintisi layihəsi üzrə tədbirlərin davam etməsi, 100 meqavat gücündə olan stansiya üzrə isə ilk hərracın nəticələrin elan edilməsi nəzərdə tutulur. İki qiqavata yaxın 8 günəş, külək, həmçinin azad edilmiş ərazilərdə 270 meqavat gücündə 32 kiçik elektrik su stansiyaları imkan verir ki, emissiyaları illik 2,9 milyon tona qədər azalda bilək”

İqtisadiyyat naziri Mikayıl Cabbarov çıxış edərək bildirib ki, hazırda Azərbaycan dünyanın prioritet hesab etdiyi “yaşıl” keçidin əsas iştirakçılarından biridir. Onun sözlərinə görə, ölkəmizin iqlim dəyişikliyi sahəsindəki hədəflərinin qlobal problemlərlə uyğunlaşdırılması dəyərli təcrübə qazandırıb: “İri enerji şirkətləri ilə həyata keçirdiyimiz “yaşıl” layihələr ölkəmizin təmiz enerji dövlətinə çevrilməsinə və ekoloji dayanıqlılığı dəstəkləyən investisiyaların təşviqinə yönəlib. Bu istiqamətdə müəyyən öhdəliklər götürmüşük. 2022-2026-cı illər üzrə sosial-iqtisadi inkişaf strategiyasında elektrik enerjisi istehsalında bərpaolunan enerji mənbələrinin payının artırılması və tullantıların təkrar emalı proseslərinin genişləndirilməsi məqsədi müəyyən edilib”.

Azərbaycanın enerji keçidi prosesində mühüm təşəbbüslərə malik olduğunu vurğulayan nazir deyib ki, COP29-un fəaliyyət gündəliyində yer alan 14 əsas təşəbbüsdən biri İqlim Maliyyəsi üzrə Fəaliyyət Fondunun yaradılmasıdır. M. Cabbarovun sözlərinə görə, bu, iqlim maliyyəsində mövcud olan boşluqların aradan qaldırılmasında mühüm rol oynaya bilər: “Fondun əsas məqsədi inkişaf etməkdə olan ölkələrdə, eləcə də kiçik ada dövlətlərində iqlim fəaliyyətinə investisiya yatırmaqla yanaşı, qalıq yanacaq ehtiyatlarına malik ölkələrin və bu sektorda fəaliyyət göstərən müəssisələrin yaşıl keçidə olan töhfələrini artırmaqdır. Fondun fəaliyyətə başlaması üçün ilkin olaraq 1 milyard ABŞ dolları məbləğində kapital toplanması və ən azı 10 donor ölkənin ona qoşulması planlaşdırılır ki, fikrimizcə, COP29 çərçivəsində bu məsələ əsas müzakirə mövzularından biri olacaq”.

Rəsmi açılış mərasimindən sonra Bakı İqlim Fəaliyyəti Həftəsi müxtəlif sahələrə həsr olunan panellərlə davam edib. Panel iclaslarında xarici işlər nazirinin müavini, COP29-un baş danışıqçısı Yalçın Rəfiyev, BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Vladanka Andreeva, iqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyev, energetika nazirinin müavini, COP29 Azərbaycan üzrə baş icraçı direktor Elnur Soltanov, ekologiya və təbii sərvətlər nazirinin müavini Umayra Tağıyeva, Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev və başqaları iqlim fəaliyyəti ilə bağlı müxtəlif mövzularda çıxış ediblər.

# Beynəlxalq ekoloji savaş ölkələrarası mübarizə deyil

**(əvvəli 1-ci səhifədə)**

Çünki bəzi Qərb dövlətlərində Azərbaycanın strateji mövqeyi, enerji resursları və regional siyasətdəki roluna qısqanc yanaşma müşahidə edilir. Elə buna görə də həmin kampaniyalar geosiyasi mübarizənin bir hissəsinə çevrilir. Digər tərəfdən, Qərbin müəyyən dairələrində insan haqları və demokratik prinsiplərin qorunması məsələlərində Azərbaycana qarşı qərəzli, ədalətsiz yanaşma sərgilənir. Bu, ölkəmizin imicini zədələmək və beynəlxalq aləmdə müsbət təsirini azaltmaq məqsədi güdür.




Məlumdur ki, COP29-da əsas məsələ iqlim dəyişikliyi ilə bağlıdır. Azərbaycanın rolu və öhdəlikləri ətraf mühit siyasəti ilə bağlı müzakirələrin mərkəzindədir. Bəzi dairələrdə respublikamızın bu müzakirələrdəki iştirakını zəiflətmək üçün qara piar kampaniyalarına üstünlük verilir. Bu cür şəraitdə respublikamızın öz siyasi və iqtisadi maraqlarını qorumaq üçün strateji cavablar hazırlaması mühüm önəm daşıyır.

G.Axundovanın sözlərinə görə, 2020-ci ilədək müəyyənləşdirilmiş 100 milyard ABŞ dolları iqlim dəyişikliyinin qarşısını almaq üçün nəzərdə tutulmuş bir məqsəd olsa da, bu məbləğin yetərli olub-olmaması mübahisəlidir. Bu məsələyə isə bir neçə aspektdən yanaşmaq zəruridir. Belə ki, 100 milyard ABŞ dolları iqlim dəyişikliyinin təsirlərini azaltmaq, dayanıqlı inkişafı təmin etmək və enerji keçidini dəstəkləmək üçün lazımi maliyyə ehtiyaclarının yalnız bir hissəsini əhatə edə bilər. Beynəlxalq təşkilatların və ekspertlərin hesabatlarında isə həmin məbləğin əhəmiyyətli dərəcədə artırılması vurğulanır.

İnkişaf etmiş ölkələr iqlim dəyişikliyi ilə mübarizədə maliyyə dəstəyi verməyə maraqlı ola bilərlər, çünki bu, onların beynəlxalq imicini yaxşılaşdırır və iqlim probleminin qlobal təsirlərinin azalmasına kömək edir. Lakin iqtisadi resursların bölgüsü, siyasi və iqtisadi prioritetlər baxımından hər bir ölkə üçün fərqli yanaşmalar ortaya çıxa bilər. Qərb ölkələrinin iqlim maliyyəsi ilə bağlı öhdəliklərini yerinə yetirib-yetirməyəcəyi siyasi iradəyə, iqtisadi vəziyyətə və qlobal iqlim dəyişikliyi ilə mübarizə kontekstində yaranan yeni şərtlərə, həm də yerli və beynəlxalq siyasətçilərin və cəmiyyətlərin təzyiqlərinə bağlıdır.

G.Axundova əlavə edib ki, 100 milyard ABŞ dollarının ayrılması, Qlobal İqlim Maliyyəsi kimi platformalar vasitəsilə həyata keçirilməlidir: “Bu platformaların səmərəliliyi ölkələrin öhdəliklərini yerinə yetirməkdə nə dərəcədə fəal olmaları ilə bağlıdır. Bunları nəzərə alsaq, nəticə etibarilə, 100 milyard ABŞ dolları iqlim dəyişikliyinin qarşısını almaq üçün kifayət etməyə bilər, lakin bu, əhəmiyyətli bir başlanğıcdır. İnkişaf etmiş ölkələrin bu məbləği artırmaqda maraqlı olması iqlim ədalətinin təmin edilməsi və qlobal əməkdaşlığın gücləndirilməsi üçün vacibdir. Qərbin öhdəliklərini yerinə yetirib-yetirməyəcəyini isə gələcək müzakirələr və siyasi iradə göstərəcək”.

# Xəzərin problemləri də qloballaşır

**Ekologiya və təbii sərvətlər nazirinin müavini Vüqar Kərimov “Ümumdünya Dəniz Günü” ilə əlaqədar Abşeron Milli Parkında keçirilən festivalda jurnalistlərə açıqlamasında Bakıda keçiriləcək COP29-da Xəzər probleminin də müzakirə ediləcəyini bildirib.**



Onun sözlərinə görə, Xəzər dənizinin son 20 ildə səviyyəsi 2,5 metr azalıb. Bununla bağlı müxtəlif platformalarda müzakirələr aparılır və bu məsələdə Azərbaycanın fəallığı daha çox diqqət çəkir. Çünki respublikamız da bu problemdən əziyyət çəkir.

Son 10 ildə dünya okeanının səviyyəsi artsa da, ölkəmizdə, əksinə, iqlim dəyişmələrinin təsirləri su ehtiyatlarının, düşən yağıntının miqdarının, respublikamıza transfer olunan su ehtiyatlarının azalması ilə müşahidə edilir.

Ümumiyyətlə, Azərbaycanın su ehtiyatları son 30 ildə 15 faizdən çox azalıb. Proqnozlar da narahatedicidir. 2050-ci ilə qədər ən optimist rəqəmlərə görə, su ehtiyatlarımız daha 15-20 faiz azalacaq.

Nazir müavini bildirib ki, noyabrda Bakının evsahibliyi edəcəyi COP29-da əsas mövzulardan biri Xəzərin probleminə həsr olunacaq. Müxtəlif təkliflər səsləndiriləcək ki, Xəzərin problemlərinin həlli üçün hansı addımlar atılmalıdır. Həmçinin azalma əgər qaçılmazdırsa, hansı tədbirlərlə adaptasiya işləri görüləcəyi müzakirə olunacaq.



# Bankların “yaşıl” Fondu – 125 milyard dollar

**Avropa Yenidənqurma və İnkişaf Bankının hesabatına əsasən, 2023-cü ildə dünyada fəaliyyət göstərən inkişaf bankları iqlim dəyişikliyi ilə mübarizəyə 125 milyard ABŞ dolları vəsait ayırıb ki, bu da rekord məbləğdir.**

Məlumata əsasən, həmin məbləğin 74,7 milyard ABŞ dolları aşağı və orta gəlirli ölkələrə yönəldilib, 46,9 milyard ABŞ dolları investisiya məqsədləri üçün kredit şəklində ayrılıb. 2022-ci ildə isə qlobal iqlim maliyyəsi 111,2 milyard ABŞ dolları təşkil edib ki, bunun da 60,9 milyard ABŞ dolları aşağı və orta gəlirli dövlətlərin payına düşüb.

Hesabata Afrika və Asiya və İslam inkişaf bankları, Asiya İnfrastruktur İnvestisiya Bankı, Avropa Şurasının İnkişaf Bankı, Avropa İnvestisiya Bankı (AIB), Yeni İnkişaf Bankı və Dünya Bankı Qrupu daxil edilib.

# Qarabağ təmiz enerji zonasına çevriləcək

**Ölkəmizin işğaldan azad edilmiş ərazilərinin alternativ və bərpaolunan enerji mənbələri ilə zənginliyi Birləşmiş Millətlər Təşkilatının tribunasından da səsləndirilib. Bu barədə Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov BMT Baş Assambleyasının 16-cı plenar iclasında çıxışı zamanı məlumat verib. Nazir qeyd edib ki, Qarabağ və Şərqi Zəngəzur 2050-ci ilə qədər sıfır emissiya zonasına çevriləcək.**



Təmiz ətraf mühit və “yaşıl” iqtisadi artımın yeni milli inkişaf strategiyamızın beş prioritet sahəsindən birinə çevrildiyini vurğulayan C. Bayramovun sözlərinə görə, ölkəmiz buna müvafiq olaraq istixana qazı emissiyalarını daha da azaltmağın yollarını araşdırır və 1,5 dərəcə Selsi ilə uyğun gələn milli prioritetlər yaratmağa çalışır. Nazir Azərbaycanın bu məqsədə çatmaq üçün bir neçə ay əvvəl 2030-cu il üçün “Qlobal Metan Vədi”nə qoşulduğunu da diqqətə çatdırıb.

“Biz həmçinin 2050-ci ilə kimi Qarabağda və Şərqi Zəngəzurda “yaşıl” enerji zonaları yaradacaq və karbon neytrallığına nail olacağıq. Azərbaycan qlobal enerji təhlükəsizliyinin təmin edilməsində, davamlı inkişafa töhfə verməkdə, yoxsulluğun aradan qaldırılmasında və regionda və onun hüdudlarından kənarda milyonlarla insanın təmiz enerjiyə keçidinə kömək etməkdə mühüm rol oynamağa davam edəcək”, – deyə nazir əlavə edib.

Xarici işlər naziri onu da deyib ki, 2030-cu ilə qədər Azərbaycanda bərpaolunan enerji mənbələrinin ümumi quraşdırılmış elektrik gücünün 30 faizini təşkil edəcəyi gözlənilir. O, bu yüksək məqsədin, ilk növbədə, enerji səmərəliliyini artırmaq və şəhər mühitində, nəqliyyat sistemində, eləcə də sənayedə innovativ həllər təqdim etmək üçün qoyulduğunu vurğulayıb.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

# "Ulu öndər Heydər Əliyev və hüquq elminin inkişafı"

**Sentyabrın 30-da Bakı Kitab Mərkəzində Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin dekanı hüquq üzrə fəlsəfə doktoru, dosent Zaur Əliyevin "Ulu öndər Heydər Əliyev və hüquq elminin inkişafı" kitabının təqdimatı keçirilib. Kitab müasir Azərbaycan dövlətinin qurucusu, hüquq islahatlarının banisi ulu öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr edilib. Nəşrin ön sözünün müəllifi Prezident Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri Gündüz Kərimovdur.**



Zaur Əliyev qeyd edib ki, məhz Heydər Əliyev tərəfindən hüquq sahəsində keçirilən islahatlar hüquq elminin və hüquq təhsilinin yeni mərhələdə inkişafını təmin edib. Bu sahədə Ümummilli liderin formalaşdırdığı siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini qeyd edən müəllif Ulu öndərin müasir Azərbaycan dövlətinin qurucusu, Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin isə qalib Azərbaycan dövlətinin qurucusu olduğunu xüsusi vurğulayıb. Müəllif qeyd edib ki, Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondu Ulu öndərin xeyirxahlıq və humanizm missiyasını yaşadır və uğurla davam etdirir.

Sonra Milli Məclisin sədr müavini Ziyafət Əsgərov, Əməkdar hüquqşünas İkram Kərimov, Vəkillər Kollegiyası Akademiyasının rektoru Əmir Əliyev, BDU-nun kafedra müdiri Alış Qasımov və başqaları çıxış edərək Ulu öndərin Azərbaycan hüquq elmi və təhsilinin inkişafında misilsiz xidmətlərindən danışıblar.

Altı fəsildən ibarət kitabın I fəslində Ulu öndərin islahatlarının hüquq elminin inkişafında yeni mərhələnin başlanğıcı kimi əsasları, II fəsildə ölkə Konstitusiyasının qəbul edilməsi və konstitusiya hüquq elminin inkişafı, III fəsildə Azərbaycanda insan hüquqları elminin inkişafı məsələləri əksini tapıb. Kitabın IV fəslində Ulu öndərin hüquq islahatlarının hüquq doktrinasının inkişafına təsiri, V fəsildə hüquq təhsilinin inkişafında rolu, o cümlədən peşəkar və ixtisaslaşmış kadrların hazırlanması, VI fəsildə Ulu öndərin irsinin davam etdirilməsi, Prezident İlham Əliyevin uğurlu siyasəti və Birinci vitse-prezident Mehriban Əliyevanın xeyirxahlıq missiyası ətraflı təhlil edilib.

*XQ*

# Naxçıvan Ali Məclisinin ilk iclası

**Dünən VII çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin payız sessiyasının ilk iclası keçirilib.**



Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini Bəxtiyar Məmmədov iclası açıq elan edib. Gündəliyə Ali Məclisin qanunvericilik işləri planının təsdiqi, komitə sədrlərinin, sədr müavinlərinin və üzvlərinin seçilməsi, İntizam komissiyasının yaradılması məsələləri daxil edilib. Birinci məsələ ilə bağlı Bəxtiyar Məmmədov məlumat verdikdən sonra "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2024-cü il payız sessiyasının qanunvericilik işləri planı haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərarı səsə qoyularaq qəbul edilib.



Ali Məclisin komitə sədrlərinin, sədr müavinlərinin və üzvlərinin təklif olunan tərkibi səsə qoyularaq qəbul edilib. Ali Məclisin İntizam komissiyasının da tərkibi səsə qoyularaq qəbul edilib.

Bununla da VII çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin payız sessiyasının ilk iclası başa çatıb.

*XQ*

# Azərbaycan Qlobal İnnovasiya İndeksində

**Sentyabrın 30-da Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiya ilə Əqli Mülkiyyət Agentliyinin rəhbərlik etdiyi Əqli mülkiyyət məsələləri üzrə xüsusi işçi qrupunun iclası keçirilib.**



İclasda İdarə Heyətinin sədri, Əqli mülkiyyət məsələləri üzrə xüsusi işçi qrupunun rəhbəri Kamran İmanovun "Qlobal İnnovasiya İndeksi - 2024" hesabatında Azərbaycan üzrə göstəricilərin təhlili" mövzusunda geniş məruzəsi dinlənilib və təqdimatı olub. Məruzədə və təqdimatda Qlobal İnnovasiya İndeksinin müvafiq indikatorları üzrə müqayisəli şəkildə konseptual metodoloji məsələlər geniş təhlil edilib və növbəti ildə Azərbaycana dair göstəricilərin daha da yaxşılaşdırılması məqsədilə tövsiyələr verilib.

İclasda Prezident Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin İqtisadi islahatların monitorinqi, koordinasiyası və qiymətləndirilməsi sektorunun müdiri, Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyanın Katibliyinin rəhbəri Vüsal Şıxəliyev çıxış edib. O bildirib ki, "Qlobal İnnovasiya İndeksi" hesabatlarında ölkəmiz üzrə göstəricilərin dolğunluğunun təmin olunmasında məlumatların sistemləşdirilməsinin metodologiyasına xüsusi diqqət yetirilməlidir. Sektor müdiri bununla əlaqədar digər müvafiq işçi qruplarının da Ümumdünya Əqli Mülkiyyət Təşkilatı ilə əməkdaşlığının gücləndirilməsinin zəruriliyini qeyd edərək, bu işdə Azərbaycan Əqli Mülkiyyət Agentliyinin dəstəyindən yararlanmağın faydalı olacağını vurğulayıb.

İqtisadiyyat Nazirliyinin tabeliyində Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzinin icraçı direktorunun vəzifəsini icra edən, Əqli mülkiyyət məsələləri üzrə xüsusi işçi qrupunun üzvü Fariz Cəfərov çıxış edərək "Qlobal İnnovasiya İndeksi" hesabatına daxil edilən məlumatların toplanması və sistemləşdirilməsi sahəsində koordinasiya məsələləri barədə danışıb.

*XQ*

## 1 Oktyabr Beynəlxalq Musiqi Günüdür

**UNESCO-nun qərarı ilə 1975-ci ildə təsis edilmiş 1 Oktyabr Beynəlxalq Musiqi Günü bütün dünyada möhtəşəm konsert proqramları ilə qeyd olunur. Həmin gün dünya musiqi xəzinəsinin bənzərsiz inciləri ifa edilir. Bayramın başlıca məramı estetik dəyərlərə qarşılıqlı hörmət, sülh və dostluq ideallarının həyata keçirilməsidir. Sonsuz gücə malik olan musiqi səslənərək hərb meydanlarında topların gurultusunu kəsməyə çalışır.**

# Dünyaya melodiya gözəlliyi gətirən gün



Məşhur rus bəstəkarı Dmitri Şostakoviçin ilk təşəbbüskarı olduğu bu əlamətdar günlə bağlı hər il musiqi təhsili ocaqlarında, muzeylərdə zəngin bayram proqramı hazırlanır. Sənətsevərlər məşhur bəstəkarların əsərlərini dinləyir, dünya musiqi atətləri ilə tanış olurlar. Adı məhz musiqinin qüdrəti sayəsində yaddaşlara yazılmış görkəmli Azərbaycan bəstəkarı Üzeyir Hacıbəyli dünyasına da unudulmaz səyahət gerçəkləşir.

Üzeyir dühası daim milli musiqi mədəniyyətimizin başı üstündə Günəş kimi parlayır. Hər il Azərbaycanda Üzeyir bəyin adını daşıyan möhtəşəm beynəlxalq musiqi festivalı təşkil olunur. Elə ötən həftə sona çatan XVI festivalda çoxlu xarici qonaq, musiqişünaslar və sənətçilər iştirak edib. Bakı ilə yanaşı, Naxçıvan, Gəncə, Lənkəran, Qəbələ və Şəmkirdə musiqi bayramları xoş ovqat yaradıb. Üzeyir bəyin milli və beynəlxalq musiqi aləmləri arasında monolit körpü olduğu bir daha təsdiqlənib.

Vaxtilə Qori Müəllimlər seminariyasında təhsil almış Üzeyir Hacıbəylinin dünyagörüşünün formalaşmasında rus və Avropa musiqi klassiklərinin əsərləri böyük rol oynayıb. Məhz həmin dövrdə Üzeyir bəy geniş menzuralı nəfəs aləti baritonda və skripkada çalmağı, xalq mahnı nümunələrini nota köçürməyi öyrənib. Azərbaycan mədəniyyəti tarixinə böyük bəstəkar, opera sənətinin banisi kimi daxil olmuş Ü.Hacıbəyli dünya klassik incəsənətinin ənənələrini dərindən öyrənərək yazıb yaratmış, doğma xalqının mədəniyyətini yüksəklərə qaldırmışdır.

Dünya opera sənətində silinməz iz qoyan bəstəkar "Koroğlu"dan başqa bütün opera və operettaların mətnini özü yazıb. Onun librettoları mənasına və bədii keyfiyyətinə görə sərbəst dram əsərləri kimi yaşayır. "Ər və arvad", "O olmasın, bu olsun", "Arşın mal alan", "Əsli və Kərəm" insan duyğularını ifadə edən gözəl səhnə əsərləridir. 1908-ci ildə tamaşaya qoyulan ilk Azərbaycan operası "Leyli və Məcnun" bu gün də dünya səhnələrini bəzəyir. Ü.Hacıbəyli bundan sonra 7 il ərzində bir-birinin ardınca 5 opera və 3 operetta yaradıb. Azərbaycan operasının şah əsəri olan "Koroğlu" onun möhtəşəm sənət abidəsidir.

O, daima axtarışlarda olan bir dahi idi. Respublikamızda musiqi təhsilini tədris etməyə, gənc kadrların yetişməsinə, klassik və xalq musiqisini öyrənib bədii xüsusiyyətlərini meydana çıxarmağa, müasir musiqi formalarını yaymağa, müxtəlif musiqi kollektivləri yaratmağa müvəffəq olub və bununla da böyük bəstəkar və musiqi nəzəriyyəçisi kimi dünya şöhrəti qazanıb.

Üzeyir Hacıbəylinin əsərləri Azərbaycan kinosunun da təbliğində, dünyada tanınmasında böyük rol oynayıb. 1945-ci ildə görkəmli rejissor Rza Təhmasib Üzeyir Hacıbəylinin eyniadlı operettası əsasında tammetrajlı "Arşın mal alan" bədii filmini uğurla ekranlaşdırıb.

1965-ci ildə Üzeyir bəyin anadan olmasının 80 illiyi münasibəti ilə "Azərbaycanfilm" kinostudiyası "Arşın mal alan" operettasına yenidən müraciət edib. Ü.Hacıbəylinin 1910-cu ildə operetta janrında yazdığı ikinci ən böyük əsəri – "O olmasın, bu olsun" musiqili komediyası, bəstəkarın dramaturgiyasının ən parlaq nümunəsi hesab olunur. Filmdə musiqi xadimlərinin çəkilməsi – Rüstəm bəyin evindəki qonaqlıq səhnəsində Xan Şuşinski (xanəndə), Tələt Bakıxanov (kamança) və Bəhram Mənsurovdan (tar) ibarət üçlüyün "Segah" muğamını ifa etməsi, toy səhnəsində Əminə Dilbazinin rəqsi və s. epizodlar dünyaca məşhur olub. "Üzeyir ömrü" filmində isə xalq musiqisi, eyni zamanda Azərbaycan, rus və Qərbi Avropa bəstəkarlarının əsərlərindən parçalar səsləndirilib.

Məhz Üzeyir bəyin səpdiyi sağlam toxumlar sayəsində bu gün Azərbaycan musiqisi özünün çiçəklənmə dövrünü yaşayır, dünya musiqi mədəniyyətində özünəməxsus yer tutur. Ölkəmizdə ənənəvi olaraq keçirilən beynəlxalq musiqi festivalları, müxtəlif müsabiqələr, Azərbaycan musiqisinin, bütövlükdə Azərbaycan mədəniyyətinin daha geniş miqyasda təbliğinə xidmət edir.

Hər zaman olduğu kimi, bu il də oktyabrın 1-də ölkəmizin mədəniyyət ocaqlarında – konsert zallarında, kitabxanalarda, muzeylərdə konsertlər təşkil edilir, maraqlı tədbirlər keçirilir. M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanası tərəfindən Beynəlxalq Musiqi Günü ilə əlaqədar hazırlanan eyniadlı virtual sərgi də bu qəbildəndir. Sərgidə mövzu ilə əlaqədar kitablar, dövri mətbuat səhifələrində dərc olunan məqalələr, fotolar nümayiş olunur.

***Əli NƏCƏFXANLI***
*XQ*

# Açıq cəmiyyətin təşviqində media və QHT-nin rolu



**Dünən Medianın İnkişafı Agentliyinin və Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin birgə təşkilatçılığı ilə "Açıq hökumətin təşviqində və korrupsiyaya qarşı mübarizədə medianın rolu" mövzusunda keçirilən "dəyirmi masa"da müzakirə edilən məsələ ilə bağlı media və qeyri-hökumət təşkilatlarının əməkdaşlığının durumu və növbəti hədəfləri diqqət mərkəzində oldu.**

Media təmsilçilərinin və vətəndaş cəmiyyəti fəallarının iştirakı ilə aparılan müzakirədə "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022–2026-cı illər üçün Milli Fəaliyyət Planı" barədə Prezident sərəncamının müvafiq bəndlərinin icrası ilə bağlı görülən işlərdən, korrupsiyaya qarşı mübarizədə və ictimai nəzarətin həyata keçirilməsində media subyektlərinin və qeyri-hökumət təşkilatlarının əlbir fəaliyyətindən, ciddi nəticələrə nail olmaq üçün dövlət qurumları ilə tərəfdaşlığın vacibliyindən söz açıldı.

Medianın İnkişafı Agentliyinin İcraçı direktorunun müavini Natiq Məmmədli, Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin departament müdiri Elnur Bağırlı müzakirə edilən məsələnin önəmini vurğuladılar. Çıxış və müzakirələrdə qeyd edildi ki, belə görüşlərin keçirilməsi ölkəmizdə açıqlıq, şəffaflıq və hesabatlılıq prinsiplərinin tətbiqinin daha da genişləndirilməsinə, vətəndaş cəmiyyəti üzvlərinin fəaliyyətinin dəstəklənməsinə və informasiya əldə edilməsinin təmin olunmasına xidmət edir. Müzakirə edilən mövzunun cəmiyyətə yüksək peşəkarlıqla çatdırılmasında, müasir çağırışlara uyğun təsirli məlumatlandırmada isə medianın vətəndaş cəmiyyəti qurumları ilə əməkdaşlığı daha da fəallaşmalıdır.

Görüşdə müzakirə edilən mövzu ilə bağlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı, mülahizə və təkliflər öyrənildi.

***T.RÜSTƏMLİ***
*XQ*

# Füzulinin şərəfinə Beynəlxalq Kitab Sərgisi

**Oktyabrın 2-dən 8-dək Bakı Ekspo Mərkəzində keçiriləcək 10-cu Bakı Beynəlxalq Kitab Sərgisinə hazırlıq prosesi ilə əlaqədar Azərbaycan Milli Kitabxanasında Mədəniyyət Nazirliyinin və nəşriyyat rəhbərlərinin iştirakı ilə keçirilən görüşdə bildirilib ki, builki sərgi dahi Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin anadan olmasının 530 illiyinə həsr olunub.**




Sərginin Təşkilat Komitəsinin sədri, mədəniyyət nazirinin müavini Fərid Cəfərov bildirib ki, bu il sərginin 10 illik yubileyidir və ötən illərlə müqayisədə müddəti uzadılıb. İlk dəfə olaraq builki sərgi 7 gün davam edəcək. Kitab festivalı çərçivəsində müxtəlif formatda 320-dən çox tədbir təşkil olunacaq və bu statistika Bakı Beynəlxalq Kitab Sərgisinin tarixində ən yüksək göstəricidir.

Sərgidə 19 ölkədən 56 xarici təşkilat, kitab sənayesinin 110 subyekti iştirak edəcək və builki sərginin fəxri qonağı İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatı (ICESCO) olacaqdır. Sərgidə Azərbaycanla yanaşı, Türkiyə, İrlandiya, Almaniya, Venesuela və digər ölkələrdən tanınmış yazıçı və şairlər, elm adamları, gənc yazarlar iştirak edəcəklər. Kitab bayramında uşaqlar və böyüklər üçün ustad dərsləri, inklüzivlik və digər aktual mövzular üzrə kitab təqdimatları, imza günləri, konfranslar, simpoziumlar, müsabiqələr, qiraət və musiqi saatları və kitab sənayesi sektorunun subyektləri arasında əməkdaşlıq platformaları təşkil ediləcək.

***Rizvan FİKRƏTOĞLU***
*XQ*

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 214 (30618) 1 oktyabr 2024-cü il, çərşənbə axşamı

## İdman xəbərləri

## Cüdoçularımız Praqadan 3 medalla qayıdıblar

**Çexiyanın paytaxtı Praqada keçirilən Açıq Avropa kubokunda Azərbaycan cüdoçuları 3 medala sahib olublar.**




Yığma üzvləri Rəşad Yelkiyev (66 kq) bütün rəqiblərini məğlub edərək qızıl medal qazanıb. Hüseyn Allahyarov (60 kq) və Camal Qamzatxanov (+100 kq) isə gümüş medala yiyələniblər. Bu nəticə ilə Azərbaycan yarışın komanda hesabında 4-cü olub.

## Stolüstü tennisçilərimiz 3 mükafat qazanıblar

**Azərbaycanın stolüstü tennisçiləri Gürcüstanın Batumi şəhərində təşkil olunan "WTT Youth Contender" turnirində uğurla çıxış ediblər.**




Beynəlxalq yarışda baş məşqçi Mixail Timofeyev və məşqçi Səbinə Əzizlinin rəhbərliyi ilə iştirak edən komanda 1 qızıl, 2 bürünc medal qazanıb.

Təmsilçilərimizdən Onur Quluzadə 13 yaşadək idmançılar arasında bütün rəqiblərinə qalib gələrək 1-ci yeri tutub. Eyni yaş qrupunda mübarizə aparan Yağmur Məmmədli 3-cü olub. Adil Əhmədzadə – Mərziyyə Nurmətova tandemi isə qarışıq qoşa yarışlarında bürünc medal qazanıblar.

Qeyd edək ki, Batumi sınaqlarında ev sahibi Gürcüstanla yanaşı, Azərbaycan, Türkiyə, ABŞ, İngiltərə, İsrail, Qazaxıstan, Özbəkistan, Ukrayna, Belarus və Litva komandaları iştirak ediblər.

## Beynəlxalq turnirdə "gümüş"

**Azərbaycan badmintonçuları Aqil Qabilov və Era Maftuha Uqandanın paytaxtı Kampala şəhərində keçirilmiş "Future" seriyalı beynəlxalq turnirdə gümüş medala sahib olublar.**




Mübarizəyə 1/16 finaldan başlayan cütlük qarışıq qoşa kateqoriyasında ardıcıl 3 qələbə qazanaraq turnirin finalına kimi irəliləyib.

Fəxri kürsünün ən yüksək pilləsi uğrunda keçirilən qarşılaşmada Malayziya təmsilçiləri Əşrəf Daniel Zakaria–Lim Xuan qoşasına hər iki setdə (18-21,17-21) məğlub olan badmintonçularımız gümüş mükafatla kifayətləniblər.

*Leyla QURBANOVA*
*XQ*

✓ *Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti tərəfindən Əliyev Toğrul Əlikiram oğlunun adına verilmiş AR seriyalı, 056311 nömrəli xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.*

# Bir kənd çayxanasında...

## *Adamlar burada dincəlir, ictimai rəyə qoşulur, şeir də deyirlər*

**Çay masasının lap başında əyləşmiş ağsaqqala "Salam İsa müəllim", deyib şəstlə əl uzatdım. Əlimi sıxıb ayağa qalxmaq istəsə də, imkan verməyib ehmalca çiyninə toxundum. Diqqətlə üzümə baxıb heç nə demədi. Hiss etdim ki, tanımadı...**

Aradan ən azı 25 il keçmişdi. Onda İsa müəllim ara-sıra bizim qəzetin Gəncə Şəhər İcra Hakimiyyətinin inzibati binasındakı müxbir məntəqəsinə gələrdi. Səmimi söhbətlərimiz olurdu, yazdığı şeirlərdən oxuyardı, Tovuzdan, yaşadığı Əyyublu kəndinin gün-güzəranından danışardı, problemlərini dilə gətirərdi. Çox vaxt Tovuzdan hər hansı bir mövzuda yazı qələmə almaq istəyəndə İsa müəllimin söylədiklərini əsas götürərək rayona yollanardım. Bir ara şeirlər kitabının ikisinin çapına kömək göstərmişdik, redaktəsini aparmışdıq və buna görə elə hey dil-ağız edərdi...

Bu dəfə mən ona diqqətlə baxdım. Sifətində, alnında qırışların sayı çoxalsa da, üz-gözündəki nur elə həmin nur idi və sanki bir qədər də işıqlanmışdı. Səlis danışığı, nitqi qətiyyən dəyişməmişdi, yerli-yerində idi.

Birdən kimsə "İsa müəllim, bir şeir söylə, çoxdandı təzə heç nə oxumursan", – dedi. Ağsaqqal armudu stəkandakı çayından bir qurtum alıb gözlərini bir nöqtəyə zillədi və sonra da aramla:

***Dünyanı həvəslə dolanan səyyah,***
***Dost-tanış olmağa Tovuza gəlsin.***
***Baxıb bu yerlərin cah-cəlalına,***
***Xəyala dalmağa Tovuza gəlsin,***

– deyib arxasını gətirmədi. Çayxanadakı başqa masalardakı adamlar da səslərini çıxarmır, sanki əmrə müntəzir kimi dayanıb İsa müəllimi intizarla gözləyirdilər. Ətrafda qəribə bir səssizlik yaranmışdı. Ağsaqqal isə susurdu. Gözlərinə baxdım. İki damla yaş qızarmış yanaqlarında dayanmışdı. Birdən bizimlə eyni masada əyləşən cavan oğlanlardan biri cəld ayağa qalxaraq əlini də İsa müəllimə uzadıb:

***"İsa, çox igidin sözü burdadır,***
***Odlar ölkəsinin közü burdadır.***
***Bütün gözəlliyin gözü burdadır,***
***Duyub həzz almağa Tovuza gəlsin"***

– dedi və tez də əyləşdi.

Sükutu kəndin icra nümayəndəsi Məhərrəm Qasımov pozdu:

–Bütün Əyyublu bilir ki, kənd çayxanasındakı bu masa İsa müəllimin və onun şirin-duzlu söhbətləri, məsləhətləri üçün yığışan buradakı adamlarındır. Kənar adamın bu dəstəyə düşməsi mümkün olası iş deyil. Hamısı ziyalılar, ağsaqqallar, kənddə sayılıb seçilənlərdir. Bəzən deyirlər ey, "əşi, filan söhbət "çayxana söhbəti"dir, inanın, onun bura qətiyyən dəxli yoxdur. Çünki bu çay süfrəsi arxasında Əyyublunun elə problemləri müzakirə olunur, elə təkliflər verilir, təşəbbüslər irəli sürülür, çağırışlar edilir ki, heç rəsmi toplantılarda da bu cür olmur.

...Əyyublu Tovuzun ən böyük kəndidir. Əhalisinin sayı rəsmi statistikaya görə 13 min nəfərdir. Lakin bəzi məlumatlara görə 15 min nəfəri də keçir. Kənd XIX əsrin əvvəllərində keçmiş Gövhər Ayıblı kəndindən çıxmış ailələrin burada məskunlaşması nəticəsində yaranmışdır. Tədqiqatçıların məlumatına görə, bu kənd şərti olaraq əvvəllər 3 hissəyə ayrılıb: Aşağı Ayıblı, Yuxarı Ayıblı (və ya Qaş Ayıblı) və Qazanlar. Araşdırmalar göstərir ki, kəndin ilkin adı Çıraqlılar olub. Zəyəmçay üzərində məskunlaşmış çıraqlıların isə hakimi Eyyubxan olmuşdur. XVII–XVIII əsrlərdə kənd elə Əyyublu kimi də qeydə alınmışdır. Ayıblı Eyyublu adının təhrif olunmuş şəklidir. Kənd ağsaqqalları bu adların vaxtilə dəyişdirilməsini rus əlifbasında bəzi hərflərin olmaması ilə izah edir. Deyirlər ki, "bəzi kəndlərdə məskunlaşan azsaylı xalqlar yaşadıqları yerə özünəməxsus adlar qoyublar. "Gülüstan sülh müqaviləsi"ndən sonra ruslar bizim kəndimizin adının "e" hərfini "a" ediblər. Yaxşı ki, təhrif olunmuş bu adlar Milli Məclisin qərarı ilə 2012-ci ildən dəyişdirildi və Əyyublu kəndinin adı özünə qaytarıldı.

Əyyublu, kənddən daha çox şəhərə bənzəyir. Asfalt yollar, gözəl parklar, abidələr, digər sosial obyektlər, yaradılmış infrastruktur kəndə səlahiyyətli orqanlar tərəfindən qəsəbə adının verilməsini tələb edir və yəqin ki, Əyyublu sakinlərinin bu arzusu tezliklə reallaşacaqdır. Kənd başdan ayağa qazlaşdırılıb, elektrik xətləri yenilənib, 113 artezian quyusu var. Başqa sözlə, hər 100 nəfərə bir artezian düşür ki, buna da ancaq həsəd aparmaq olar. Özü də nəzərə almaq lazımdır ki, Gürcüstana gedən nəhəng elektrik xətti, Bakı-Qazax magistral avtomobil yolu, Bakı-Tbilisi dəmiryolu xətti, Bakı-Ərzurum qaz kəməri, Bakı-Supsa, Bakı-Ceyhan neft kəməri Əyyubludan keçir.

İkinci Dünya müharibəsinə yollanan Əyyublu sakinlərindən 269 nəfəri geri qayıtmayıb. Onların xatirəsinə möhtəşəm bir abidə ucaldılıb və bu yaxınlarda yenidən bərpa olunub, gözəl park salınıb.



Kənd adamları təşəbbüskar, həddindən artıq dövlətə və dövlətçiliyə bağlı insanlardır, necə deyərlər, hər xırda məsələ üçün yuxarı orqanları, təşkilatları narahat etməyi sevməzlər. Türkiyədə baş verən zəlzələlər zamanı özləri könüllü şəkildə bir yerə toplaşaraq 10 min manata yaxın ianə toplayıb göndərdilər. Rusiyada və bir sıra digər ölkələrdə yaşayan əyyublulardan ibarət "Vətən" Xeyriyyə cəmiyyəti yaradıblar. İkinci Qarabağ müharibəsi zamanı həlak olanların xatirəsinə respublikada ilk abidə də 2020-ci ildə elə bu kənddə ucaldılıb. Digər məsələləri, ortaya çıxan çətinlikləri də həmişə bir yerə yığışıb məsləhətləşir, həll edirlər.

Əyyublu Azərbaycanda yeganə kənddir ki, ora hər gün digər rayonlardan işləməyə 150-200 adam gəlir. Kartof, meyvə, həmçinin əkin-biçin zamanı əyyublular qonşu rayonların, digər kəndlərin adamlarını da dolandırırlar. Başqa sözlə, Əyyublu respublikanın bir sıra böyük kəndlərindən çox seçilir...

Qayıdaq kəndin çayxanasına, yazının əvvəlindəki söhbətə. Onsuz da Əyyubluya gələrkən məqsədim kəndin bir neçə ağsaqqalı, ziyalısı, gənci ilə görüşmək, onların fikirlərini öyrənmək, problemləri ilə maraqlanmaq idi və bunu kəndin icra nümayəndəsi Məhərrəm Qasımova



bildirəndə "gəlin gedək bizim kəndin çayxanasına, həm bir stəkan çay içək, həm də söhbət edək, hamısı ordadır" deyəndə əvvəlcə duruxmuşdum. Çünki çayxanalardan həmişə uzaq olmağa çalışmışam və nədənsə bir çox hallarda həmin məkanlarda olan söhbətlərə "çayxana söhbəti" kimi yanaşmışam. Amma...

**Məhərrəm Qasımov:** – Burada gördüyünüz adamlar kəndin sayılıb-seçilən adamlarıdır. Hər gün yığışırlar. Bax, beləcə, İsa müəllim əyləşir başda, digərləri də hərəsi öz yerində və sorğu-sual başlanır. Burada giley-güzar, qeybət söhbəti ola bilməz. Yalnız kəndlə bağlı, onun problemlərinin həlli ilə əlaqədar söhbətlər olur, bəzi təşəbbüslər dinlənilir, lazım gələndə hansısa səlahiyyətli bir adamı hesabat verməyə bura, çay masasının arxasına dəvət edirlər. Bəzən söhbət uzanır. İsa müəllimin təklifləri daha maraqlı olur və hamı bəyənir. Yeri gəlmişkən, İsa Cavadoğlu onlarla kitabın, o cümlədən Ulu öndərə həsr etdiyi "Heydər baba" poemasının müəllifidir. Bizim fikrimizcə, müvafiq təşkilatların rəhbərləri AYB-nin üzvü, bütün Tovuzun sayılıb-seçilən ağsaqqalı İsa Cavadoğlunun keçdiyi həyat yolu ilə daha yaxından tanış olmalı, öz təkliflərini verməlidirlər.

**İsa Cavadoğlu:** – Heç vaxt şöhrət dalınca qaçmamışam, 60 ildən çox müəllim işləməyimlə, o adla fəxr etmişəm. Bir də ki, sağ olsun rayon icra hakimiyyəti, Məmməd müəllim 90 illiyimdə mənə elə bir yubiley təşkil elədi ki, bəlkə də ömrümün uzanmasına, hələ də sizin aranızda olmağıma o bir stimul verdi.

**Mübariz Mehralıyev, sahibkar:** – İsa müəllim unikal bir şəxsdir. Bayaq adı çəkilən "Heydər baba" poemasını bilirsiniz nə vaxt yazıb? 80-ci illərin sonu, 90-cı illərin əvvəllərində, Ulu öndərə saysız-hesabsız hücumlar, qarayaxmalar dövründə. İlk dəfə Tovuz qəzetində çap olunan bu poema əl-əl gəzirdi. Çoxları deyirdi belə ahıl çağında bu kişi nə eləyir, tutacaqlar onu. Amma İsa müəllim qorxmaz, sözünü daim deyə bilən, haqqı nahaqqa verməyən adam olub, 94 yaşında da elədir. O, canlı bir ensiklopediyadır.

Bir məsələni də qeyd edim ki, kənddə həm həyətyanı sahələrdə, həm də pay torpaqlarında yetişdirilən bəzi məhsul növlərinin bazara çıxarılmasında problemlər olur. Məsələn, Gürcüstanla sərhəddə böyük bir bazar var idi. Biz öz məhsullarımızın çoxunu orada sata bilirdik, çünki yaxın idi. Bakı ilə aramız 420 kilometr olduğu halda "Qırmızı Körpü" ondan üç dəfə bizə yaxındır.

**Abbas Abbasov, təqaüdçü:** – Məni ən çox sevindirən Əyyublu camaatının bir-biri ilə bax, beləcə səmimi olması və bir də dövlətçiliyə sədaqəti, ölkə Prezidenti ətrafında sıx birləşməsidir. Bizi fərəhləndirən başqa bir cəhət də sözümüzün, faydalı təklifimizin, təşəbbüsümüzün heç vaxt diqqətdən kənarda qalmamasıdır.

...Həmin gün bizim üçün çox maraqlı, yaddaqalan bir gün oldu. On nəfərə yaxın müxtəlif peşə sahibinin, ziyalının, ağsaqqalın əyləşdiyi çay masası ətrafında, sözün əsl mənasında, işgüzar bir söhbət, diskussiya getdi və təbii ki, onların hamısını dərc etmək də mümkün deyil. Mümkün olan, yazılası və deyiləsi bilirsiniz nədir? Doğma kəndinə, elinə, obasına, adamlarına bağlılıq, sabaha inam və işıq! Ayrılarkən onların hər birinin gözündə bu işığı gördüm...

***Hamlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri***

**Tovuz**

# "Puerto princesa"



**YUNESCO-nun Dünya İrsi Siyahısına daxil olan məşhur yerlərdən biri də Filippin adasında yerləşən "Puerto princesa" Yeraltı Çay Milli Parkıdır. Gizli mağaralarla əhatə olunan bu ərazi təbii gözəllikləri, sıx meşələri və vəhşi təbiəti ilə seçilir. Uzunluğu 8,2 kilometr olan bu çay paytaxt Maniladan 360 kilometr cənub-qərbdə yerləşir.**

"Puerto princesa" Yeraltı Çay Milli Parkı əhəngdaşı və karst (müxtəlif süxurların suda həll olunması nəticəsində əmələ gələn relyef formaları) qəribə mənzərə yaradıb. Bu yeraltı çay sisteminin fərqli cəhəti ondan ibarətdir ki, bilavasitə dənizə axır. Çayın suyunun yarısının duzlu olması və okean axınına məruz qalması onu daha əsrarəngiz edir.

Yeraltı çayın üzərində 300 metrlik mağara günbəzi də var. Sərt qayalıqlarda və çay kanallarında böyük yarasalar, növbənöv dəniz canlıları məskunlaşıb.

*Fidan SALMANOVA*
*XQ*

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4002
SİFARİŞ 2230
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Səbuhi MƏMMƏDOV

Çapa imzalanmışdır 00:00